# AZƏRBAYCAN RESPUBLİKASI
# NAXÇIVAN MUXTAR RESPUBLİKASI
# ALİ MƏHKƏMƏSİ

# B Ü L L E T E N

№ 2 (36)

Naxçıvan – 2023



***"Biz qanunun aliliyinin təmin olunduğu, yüksək səviyyədə şəffaflıq olan, hər bir insanın sülh və əmin-amanlıq şəraitində yaşadığı və bütün azadlıqlardan istifadə etdiyi cəmiyyət qururuq."***

**NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏHKƏMƏSİNİN BÜLLETENİ**

*Bülleten 2006-cı ildən etibarən ildə iki dəfə dərc edilir.*
*Rəsmi sayt: www.nsupremecourt.gov.az*

# M Ü N D Ə R İ C A T

*Müstəqil Azərbaycanın, hər bir azərbaycanlının prezidenti*..........**6**

## Yeni sənədlər, normativ aktlar

*Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının 30 may 2023-cü il tarixli Qanunu*..........**13**

*"Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 879-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 6 mart tarixli 297 nömrəli, "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nın təsdiq edilməsi haqqında" 2012-ci il 8 may tarixli 626 nömrəli, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2012-ci il 6 iyun tarixli 648 nömrəli, "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 10 dekabr tarixli 387 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 12 iyul 2023-cü il tarixli Fərmanı*.......... **26**

*Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının 9 iyun 2023-cü il tarixli Qanunu* .......... **31**

**Buraxılış üçün məsul şəxs:**
*S.İ.Bəktaşi*

**Redaktor:**
*Ə.K.Allahverdiyev*

**Redaksiya heyəti:**
*Y.S.Qurbanov*
*İ.M.Mirzəyev*
*S.Ş.Bəylərli*
*V.K.Quliyev*
*C.G.Bayramova*
*Y.F.Xəlilov*
*A.N.İmanova*

**Məsul katib:**
*G.Ə.Qurbanova*

**Redaksiyanın ünvanı:**
*Naxçıvan şəhəri, Atatürk küçəsi, 19*

*Tel: 550-96-76*
*Faks: 544-61-80*

*“Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 904-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli 265 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 26 iyul 2023-cü il tarixli Fərmanı*........................................................................................ **34**

*Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının 6 iyul 2023-cü il tarixli Qanunu*.........................................................................**35**

*Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının 6 iyul 2023-cü il tarixli Qanunu*........................................................................................**36**

*Dövlət orqanları (qurumları) arasında sənəd mübadiləsinin elektronlaşdırılması haqqında Azərbaycan Respublikası Prezidentinin 1 avqust 2023-cü il tarixli Fərmanı*....................................................**37**

*Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi və bəzi birinci instansiya məhkəmələri hakimlərinin vəzifələrinin dəyişdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 11 oktyabr 2023-cü il tarixli Sərəncamından (Çıxarış)* ......................................................................................**39**

*Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 iyun tarixli 1043 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Elektron məhkəmə” informasiya sistemi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı*..................................................**40**

## Məhkəmə fəaliyyəti

### Mülki kollegiyadan

*Məhkəmə fəaliyyətinə dair 2023-cü ilin birinci yarısının yekunları üzrə statistik məlumatların təhlili* ........................................................ **41**

### Kommersiya kollegiyasından

*Məhkəmə fəaliyyətinə dair 2023-cü ilin birinci yarısının yekunları üzrə statistik məlumatların təhlili* ..........................................................**49**

**İnzibati kollegiyadan**

*Məhkəmə fəaliyyətinə dair 2023-cü ilin birinci yarısının yekunları üzrə statistik məlumatların təhlili* ............................................................**50**

**Cinayət kollegiyasından**

*Məhkəmə fəaliyyətinə dair 2023-cü ilin birinci yarısının yekunları üzrə statistik məlumatların təhlili* ............................................................**51**

## İnsan hüquqları və məhkəmə təcrübəsi

*İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının icmalı*..........................................................................................**59**

## Nəzəriyyə və hüquqtətbiqetmə problemləri

*Mənzildən istifadə hüququnun həyata keçirilməsinin bəzi xüsusiyyətləri barədə*..........................................................................................**76**

## Hakimlərin milli və beynəlxalq qurumlarında

*"Ədalət mühakiməsinin büllur tərəzisi" mükafatı uğrunda 2023-cü ildə keçirilmiş beynəlxalq müsabiqə haqqında*............................................. **87**

## Azad tribuna

*Elektron səsvermə elektron demokratiyanın mühüm institutu kimi*.......................................................................................... **91**

## Ali Məhkəmənin mətbuat xidmətindən

*2023-cü ilin iyul-noyabr aylarında keçirilən tədbirlərin xülasəsi*..........................................................................................**114**

*"Müasir dövrdə ədalət mühakiməsi: Yeni çağırışlar, yeni imkanlar" mövzusunda elmi-praktiki konfrans keçirilib*....................................**135**

***Səadət Bəktaşi***
***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri,***
***Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının üzvü***

## Müstəqil Azərbaycanın, hər bir azərbaycanlının prezidenti

Hər bir xalqın gələcəyi, onun mövcudiyyəti və sonrakı taleyi xalqın hər bir fərdindən, onun həlledici və tarixi məqamlarda sərgilədiyi mövqeyindən və göstərdiyi mübarizədən asılı olur. Lakin etiraf etmək lazımdır ki, heç də bütün fərdlər cəmiyyətin taleyinə bərabər təsir imkanına malik deyillər. Məhz bu məqamlarda liderlik fenomeni həlledici faktor olur. Lider, hərfi mənada qiymətləndirildikdə, bələdçi, maarifləndirici, öyrədən, gələcəyi göstərən, insanların tələb və ehtiyaclarını vaxtında hiss edən, zamanın və gələcəyin nəbzini tutan, problemlərdən fürsətlər yaradan uzaqgörən və praqmatik insanlardır.

Xüsusilə də yenicə müstəqillik əldə etmiş, daxili və xarici böhranlarla mübarizə aparan, dövlətçiliyin ictimai-siyasi dayaqlarını gücləndirməmiş Azərbaycanın həqiqi mənada müstəqil və qüdrətli dövlətə çevrilməsini, tarixi nailiyyətlər qazanaraq tərəqqi və qələbə zirvəsinə yüksəlməsini mümkün edən amil liderlik fenomeni olmuşdur. Özünün qətiyyətli, milli maraqlara, dövlətçiliyə, tam müstəqillik məfkurəsinə əsaslanan siyasəti ilə xalqımıza liderlik edən Ümummilli Lider Heydər Əliyev və Prezident İlham Əliyevin gələcəyə yönəlmiş, planlı və düşünülmüş strateji fəaliyyəti sayəsində Azərbaycan öz nüfuzunu bütün dünyada sübut etmiş, üçrəngli bayrağımız qələbə zirvəsində qürurla və əzəmətlə dalğalanmış, qalib dövlətin vətəndaşları - müzəffər xalqın nümayəndələri olmaq milli qürurunu yaşamışıq. Ümummilli Liderimizin ***"Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, azərbaycanlıyam"*** kəlamı artıq hər birimizin milli şüarına çevrilmiş, milli-siyasi şüurumuza əbədi yazılmışdır!

Ümummilli Lider, Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına tarixi müraciəti zamanı İlham Əliyevlə bağlı fikirlərində deyirdi: ***"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".*** Məhz bu fikirlər özlüyündə ona olan güvənin və öhdəsinə düşən məsuliyyətin ağırlığını açıqca ifadə edir.

Azərbaycan Respublikasının müstəqilliyinin bərpasının ilk illərindən miras qalmış bir çox problem hələ də tamamlanmamış qalmışdı. Mürəkkəb

beynəlxalq və daxili şərait hələ öz həllini gözləyirdi. Torpaqlarımızın işğaldan azad olunması, qaçqın və məcburi köçkün problemlərinin həlli, Azərbaycanın beynəlxalq aləmdə haqq səsini ucaltması üçün daha münbit şəraitlərin yaradılması, ictimai-siyasi sabitliyə nail olunması vətəndaşların hüquq və mənafelərinin müdafiəsinə, bazar münasibətlərinə əsaslanan iqtisadiyyatın və sahibkarlığın inkişafına, beynəlxalq iqtisadi və maliyyə sisteminə inteqrasiyaya istiqamət götürən, sosial ədalət prinsipinə əsaslanan demokratik, hüquqi dövlət quruculuğu kimi ağır və məsuliyyətli vəzifələr qarşıda dayanırdı. Danılmaz həqiqətdir ki, Prezident İlham Əliyev ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən Azərbaycanın hərtərəfli və sürətli inkişaf tarixini yazmağa başladı.

Şübhəsiz, sosial-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi üstünlüyün, hərtərəfli tərəqqinin təməlində də inkişaf strategiyası, onun müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti dayanır. O da sirr deyil ki, dövlətin əsaslarının möhkəmliyi və həyata keçirilən strategiyanın səmərəliliyi məhz Prezident İlham Əliyevin liderlik keyfiyyətləri sayəsində mümkün olub. Bu prinsiplərə sadiqliyini qoruyub saxlayan Prezident İlham Əliyev siyasi innovasiyalara, dövrün çağırışlarına tez uyğunlaşmaq bacarığı, dəyişən qlobal və regional reallıqlar şəraitində ölkənin milli maraqlarını qoruya bilmək qabiliyyəti ilə özünün liderlik keyfiyyətlərini sübut edib.

İlham Əliyevin Prezidentlik fəaliyyətinə başlaması Azərbaycanın inkişaf yolunun yeni mərhələsi idi. Məhz bundan sonra müstəqilliyimiz daha da möhkəmləndirildi, ölkə dinc və dayanıqlı inkişaf yoluna qədəm qoydu. Məhz o vaxtdan başlayaraq respublikada sosial-iqtisadi inkişaf, hüquqi dövlət quruculuğu ən geniş formada vüsət aldı. İlham Əliyevin böyük siyasətdə atdığı inamlı addımlar nəticəsində Azərbaycanda təkcə sosial-iqtisadi sistemdə deyil, həm də siyasi və ictimai təsisatlarda əsaslı yeniləşmələr oldu, səmərəli intensiv islahatlar aparıldı.

Bu islahatlar içərisində məhkəmə-hüquq islahatları həm ölkə vətəndaşları həm də biz hüquqşünaslar üçün xüsusilə önəmlidir. Məhkəmə-hüquq islahatlarının aparılması üçün milli qanunvericiliyimizin təkmilləşdirilməsi məqsədi ilə dünyanın inkişaf etmiş demokratik ölkələrinin müsbət təcrübəsindən istifadə edərək yeni normativ hüquqi bazanın yaradılması üzrə ilkin hazırlıq mərhələsi 1995-2003-cü illərə təsadüf edir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş mütərəqqi məhkəmə-hüquq islahatlarını 2003-cü ildən inamla davam etdirən və yeni dövrün tələblərinə uyğun təkmilləşdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hüquqi dövlət quruculuğu prosesinin mühüm tərkib hissəsi olaraq məhkəmə hakimiyyətinin yeniləşdirilməsini mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmişdir. Son 20 ildə yeni dövrün tələblərinə adekvat şəkildə

reallaşdırılan bu islahatların əsas hədəfi məhkəmə-hüquq sistemini müasirləşdirmək, məhkəmə orqanlarının özünüidarə imkanlarını genişləndirmək və ədalət mühakiməsinin səmərəliliyini artırmaq olmuşdur. Bu baxımdan “Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi haqqında” 19 yanvar 2006-cı il tarixli Fərman məhkəmə sisteminin müasirləşdirilməsi və inkişafında mühüm əhəmiyyət kəsb edir. Bu Fərmanla məhkəmə islahatlarının üçüncü mərhələsi başlanmışdır. Fərmana əsasən vətəndaşların məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması, məhkəmələrdə süründürməçilik və digər hüquq pozuntuları hallarının aradan qaldırılması, hakimlərin iş yükünün azaldılması, məhkəmələrin yeni informasiya texnologiyaları ilə təmin edilməsinə dair müəyyən edilmiş vəzifələrin həyata keçirilməsi üçün regionların inkişafı nəzərə alınmaqla Bakı, Gəncə, Sumqayıt, Şəki və Şirvan şəhərlərində regional Apellyasiya və Yerli İqtisad Məhkəmələri, Naxçıvan Muxtar Respublikasında isə Ağır Cinayətlərə dair işlər üzrə məhkəmə təşkil edilmişdir.

“Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında” Azərbaycan Respublikası Prezidentinin 2 noyabr 2006-cı il tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikasında yerləşən məhkəmələrin fəaliyyəti müasir tələblər səviyyəsində təşkil olmuşdur.

Qanunvericiliyə sonrakı dəyişikliklərlə Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının Məhkəməsi ləğv edilərək, onun əvəzinə Bakı, Gəncə, Lənkəran və Şəki Ağır Cinayətlər Məhkəməsi və habelə Yerli İqtisad Məhkəmələrinin bazasında İnzibati-İqtisadi Məhkəmələr yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 iyul tarixli Sərəncamı ilə mövcud inzibati-iqtisadi məhkəmələr ləğv edilməklə Naxçıvan Muxtar Respublikasında, Bakı, Gəncə, Sumqayıt, Şirvan və Şəkidə yeni Kommersiya və ayrıca İnzibati məhkəmələr yaradılmışdır.

2019-cu il 3 aprel tarixdə imzalanmış “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi” haqqında Fərman bu sahədə həyata keçirilən məhkəmə-hüquq islahatlarının mühüm tərkib hissəsidir. Fərmanın əsas məqsədi müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirməklə onun keyfiyyətini və səmərəliliyini yüksəltmək, bütövlükdə məhkəmə hakimiyyətinə ictimai etimadı, əlçatanlığı və fəaliyyətində şəffaflığı artırmaq olmuşdur. Məhkəmə sisteminin gələcək inkişafının strateji prioritetlərini müəyyən edən bu Fərman, həm də müstəsna əhəmiyyətə malik “yol xəritəsi” olmaqla proqram xarakteri daşıyır.

Azərbaycan Respublikası Prezidentinin 13 fevral 2014-cü il tarixli Sərəncamı ilə ədalət mühakiməsinin həyata keçirilməsi zamanı şəffaflığın, insan və vətəndaşların hüquq və azadlıqlarının səmərəli müdafiəsinin təmin

edilməsi, müasir informasiya texnologiyalarının tətbiqi prosesinin sürətləndirilməsi məqsədi ilə "Elektron Məhkəmə" İnformasiya sisteminin yaradılması qərara alınmış, 1 iyun 2020-ci il tarixli Fərmanla "Elektron məhkəmə" informasiya sistemi haqqında Əsasnamə təsdiq edilmiş, bununla əlaqədar qanunvericilik bazasına müvafiq dəyişikliklər edilməklə məhkəmələrdə işlərə kağızsız, elektron qaydada baxılması üçün hüquqi əsas formalaşdırılmışdır. Bununla da məhkəməyə müraciət etmək hüququnun yaranması anından məhkəmə qərarlarının icrasının tamamlanmasına qədər bütün prosesi əhatə edən "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə insanlar məhkəməyə gəlmədən, elektron formada müraciət etmək imkanı əldə etmişlər.

Digər mühüm islahat isə "Mediasiya haqqında" Qanunun qəbul edilməsi, bununla da mülki xarakterli mübahisələrin məhkəmədən kənar həlli mexanizmlərinin yaradılmasıdır. Mübahisələrin məhkəməyəqədər həllinə zəmin yaradan mediator institutunun formalaşdırılması məhkəmə sisteminin iş yükünün azaldılması, məhkəmələrə əlçatanlığın artırılması və bu kimi digər müsbət keyfiyyətlərlə yanaşı, konfliktlər zamanı hüquqların müdafiəsində vasitə seçiminə, yəni, dövlət müdafiə vasitələrindən və ya daha adekvat həll yolundan istifadə üçün verilən əlavə təminatdır.

Bütün bu islahatlar ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılması, işlərə daha operativ baxılması və vətəndaş məmnunluğunun təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Hər birimizə məlumdur ki, ölkədə aparılan bu genişmiqyaslı inkişaf konsepsiyası yalnız məhkəmə-hüquq sistemi ilə məhdudlaşmır. 2003-2018-ci illərdə Azərbaycan dünyada ən çox islahat aparan 10 ölkədən biri kimi tanınıb və tariximizə möhtəşəm iqtisadi yüksəliş dövrü kimi daxil olub. İlham Əliyev ölkə iqtisadiyyatında qeyri-neft sektorunun inkişafı ilə bağlı davamlı tədbirlər görüb və onun tapşırığı ilə nəhəng infrastruktur layihələr həyata keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəyə rəhbərlik etdiyi 20 illik bir müddətdə xalqın böyük etimadını qazanaraq Azərbaycanı həm daxili, həm də beynəlxalq miqyasda layiqincə təmsil edir. ***"Biz bütün ölkələrlə yalnız qarşılıqlı maraqlar və hörmət əsasında bərabərhüquqlu münasibətlər qururuq. Biz Azərbaycan xalqının dəstəyinə arxalanırıq və bu dəstək Prezident kimi mənə xarici siyasəti müstəqil şəkildə aparmaq üçün əlavə güc verir. Mən məhz buna arxalanıb müstəqil siyasət aparıram"***- bu sözlər onun öz fəaliyyətində xalqın təmsilçisi mövqeyinin aydın ifadəsidir. Ötən 20 ildə bir tərəfdən mövcud ənənələr müdafiə olundu, digər tərəfdən isə dövlət idarəçiliyinə illərdir ehtiyac duyulan yeni və müasir yanaşma gətirildi. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın istər daxili,

istərsə də xarici siyasətində əldə edilən hər bir uğur onun peşəkarlığının təcəssümü, milli inkişaf amalının təzahürüdür.

Prezident İlham Əliyevin ***"Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşının rifahı və mənafeyi dayanır"*** tezisi söz ilə əməlin vəhdətini ifadə edir. Azərbaycanda regionların sosial-iqtisadi inkişafına xidmət edən mühüm dövlət proqramları, fərman və sərəncamlar uğurla icra edilib, həyata keçirilən sosial infrastruktur layihələri nəticəsində bölgələrin siması dəyişib. Sahibkarlığın inkişafı, yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması, yeni iş yerlərinin açılması naminə sistemli addımlar atılıb. Bölgələrin balanslı inkişafı məqsədilə 4 regional inkişaf proqramı qəbul edilib. Azərbaycan Respublikası regionlarının 2004-2008, 2009-2013, 2014-2018, 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası nəticəsində ölkəmizin ümumi mənzərəsi tamamilə dəyişib, inkişaf tərəqqi, quruculuq abadlıq işləri geniş vüsət alıb. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı" ilə bölgənin inkişafı üzrə qarşıya qoyulmuş hədəflərin realizəsi üçün gələcək yol xəritəsi müəyyən olunub.

Bütün bu islahatların ən kəskin, çevik və effektiv təsirləri məhz ordu quruculuğunda hiss olundu. Belə ki, ötən dövrlər ərzində Azərbaycan Ordusunun döyüş qabiliyyəti dəfələrlə artırıldı, Silahlı Qüvvələrin maddi-texniki bazası kifayət qədər möhkəmləndirildi, bu sahədə ardıcıl tədbirlər görüldü və bu gün də həmin tədbirlər görülməkdədir. Məhz Ali Baş Komandanının qüdrətli sərkərdəliyi ilə 2020-ci il sentyabrın 27-də Ermənistanın hərbi təcavüzünə cavab olaraq haqq savaşı başladı və illərdir işğal altında olan şəhər və kəndlərimiz qeyrətli, mərd və peşəkar əsgər və zabitlərimizin fədakarlığı ilə 44 gün ərzində düşmən tapdağından azad edildi. Qarabağın tacı, döyünən ürəyi olan Şuşanın fəthi tariximizə Zəfər Günü kimi yazıldı. Bununla da cənab Prezidentin dediyi kimi ata vəsiyyəti yerinə yetirildi. Bu da ona göstərilən etimadın bariz nümunəsidir. Nəhayət bu ilin sentyabrın 19-da silahlı qüvvələrimiz tərəfindən keçirilən antiterror tədbirləri nəticəsində ərazimizdə qanunsuz fəaliyyət göstərən separatçı rejim təslim oldu, qondarma qurumları ləğv olundu. Hazırda ölkəmizə qarşı hərbi cinayətlər törətmiş şəxslər kimliyindən asılı olmayaraq məhkəmə məsuliyyətinə cəlb olunur.

Silahlı qüvvələrimizin keçirdiyi antiterror əməliyyatı nəticəsində ərazimizdə dövlətin tam suverenliyi bərpa olundu, Xankəndi şəhəri başda olmaqla terrorçulardan azad olunan ərazilərdə konstitusion təsisatlar formalaşmaqdadır. Bayrağımız bütün ərazimizdə qürurla dalğalanmaqdadır. Bizlərə yaşatdıqları qürur və fəxarət hissləri üçün Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham

Əliyevə, ordumuzun hər bir əsgər və zabitinə təşəkkür edir, qazilərimizə şəfa diləyir, şəhidlərimizin ruhu qarşısında baş əyirik. Bu gün də bu qətiyyət, siyasi iradə Qarabağın, Şərqi Zəngəzurun, bütövlükdə Azərbaycanın inkişafı üçün, daha güclü və sabit dövlət olması üçün, vətəndaşının rifah halının daha da yaxşılaşdırılması üçün göstərilir. Ona görə də, Müzəffər Ali Baş Komandan cənab Prezident İlham Əliyevə Azərbaycanın tərəqqisi naminə yorulmaz və şərəfli fəaliyyətində uğurlar arzulayırıq.



# YENİ SƏNƏDLƏR, NORMATİV AKTLAR

Bülletenin "Yeni sənədlər, normativ aktlar" sərlövhəsini təqdim etməkdə məqsəd muxtar respublikamızla əlaqədar məsələləri nizama salan, habelə məhkəmə sistemi ilə bağlı Azərbaycan Respublikasının qanunvericiliyi, Naxçıvan Muxtar Respublikasının hüquqi aktları, eləcə də Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, qanunvericiliyə edilən dəyişikliklər, normativ-hüquqi aktlar sisteminə daxil olmayan, lakin muxtar respublikamız üçün mühüm əhəmiyyətə malik olan rəsmi sənədlərlə oxucularımızı tanış etməkdir.

Sərlövhədə bu günədək 370-ə yaxın qanunvericilik aktı və mühüm rəsmi sənəd dərc edilmişdir. Bu isə məhkəmə və hüquq-mühafizə orqanları əməkdaşlarının muxtar respublikamızla bağlı zəruri hüquqi sənədlərlə yaxından tanış olmalarına geniş imkan yaratmışdır.

Bülletenin bu sayının sözügedən sərlövhəsində oxucularımızı yeni qəbul edilmiş bir sıra qanunvericilik aktları ilə tanış edirik.

**Redaksiya heyəti**

## Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 14-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Ailə Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 126; 2002, № 12, maddə 702; 2004, № 7, maddə 505; 2006, № 2, maddə 66, № 11, maddə 923, № 12, maddələr 1005, 1006; 2007, № 1, maddə 4, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1218; 2008, № 7, maddə 602; 2010, № 2, maddə 70, № 3, maddə 171, № 5, maddə 380, № 7, maddə 578; 2011, № 7, maddələr 585, 620, № 12, maddə 1110; 2014, № 12, maddə 1515; 2019, № 2, maddə 185, № 3, maddə 372, № 5, maddə 800, № 12, maddə 1906; 2020, № 7, maddə 832, № 12 (I kitab), maddə 1424; 2021, № 4, maddə 308, № 6 (I kitab), maddə 541, № 7, maddə 711, № 8, maddə 894; 2022, № 1, maddə 11, № 6, maddə 580, № 8, maddə 828; 2023, № 1, maddə 19, № 2, maddələr 192, 207, № 3, maddə 334) aşağıdakı dəyişikliklər edilsin:

1. 51.6-cı maddənin birinci cümləsində "şəxslər və digər vətəndaşlar" sözləri "və digər şəxslər" sözləri ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 68.4-1-ci maddə əlavə edilsin:

"68.4-1. Bu Məcəllənin 116-1.5-ci maddəsində nəzərdə tutulmuş hallarda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) valideynlik hüquqlarının məhdudlaşdırılması barədə iddia qaldıra bilər.".

3. 71.2-ci maddədən "himayədar valideynlərin və ya" sözləri çıxarılsın.

4. 72-ci maddə üzrə:

4.1. 72.1-ci maddənin birinci cümləsinə "təhlükədə olduqda" sözlərindən sonra "(bu Məcəllənin 116-1.5-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla)" sözləri əlavə edilsin;

4.2. 72.2-ci maddə üzrə:

4.2.1. birinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Uşağı götürən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) dərhal prokurora və uşağın yerləşdirilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verməlidir.";

4.2.2. ikinci cümlədə "Həmin orqan" sözləri "Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

5. 114.2-ci maddədə "116.1-ci" sözləri "116-cı" sözləri ilə əvəz edilsin və həmin maddədən "(övladlığa vermə istisna olmaqla)" sözləri çıxarılsın.

6. 115-ci maddə üzrə:

6.1. 115.2-ci maddə ləğv edilsin;

6.2. 115.7-ci maddədə "115.2–115.4-cü" sözləri "115.1-ci, 115.3-cü və 115.4-cü" sözləri ilə əvəz edilsin.

7. 116-cı maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 116. Valideyn himayəsindən məhrum olan uşaqların yerləşdirilməsi**

116.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Məcəllənin 114.1-ci maddəsində qeyd olunan uşaqlar barədə məlumatı aldıqdan sonra 3 (üç) iş günü müddətində uşağın və onun ailəsinin həyat şəraitini, valideyn himayəsindən məhrum olma səbəblərini müəyyən etmək məqsədilə ilkin qiymətləndirilməni həyata keçirir.

116.2. İlkin qiymətləndirmə nəticələrinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) aşağıdakı qərarlardan birini qəbul edir:

116.2.1. uşağın ailəsinin olmamasını və ya ailədə qalmasının qeyri-mümkünlüyünü müəyyən etdikdə, onun bu Məcəllənin 116.6–116.8-ci maddələrinə uyğun olaraq yerləşdirilməsi barədə;

116.2.2. uşağın öz ailəsinə və ya qohumlarına qaytarılmasının və yaxud ailəsində qalmasının mümkünlüyünü müəyyən etdikdə, 14 (on dörd) iş günü müddətində əlavə qiymətləndirmənin aparılması və ailə inkişaf planının tərtibi barədə.

116.3. Ailə inkişaf planında uşağın valideyn himayəsindən məhrum olmasının səbəbləri, onların əhəmiyyətlilik dərəcəsi üzrə bölgüsü, bu səbəblərin aradan qaldırılması üsulları, ailə üçün zəruri hüquqi, sosial, tibbi, tibbi-psixoloji və məişət dəstək tədbirləri qeyd edilir.

116.4. Ailə inkişaf planının tərtibi və icrası müddətində uşağın öz ailəsində qalması onun həyatı və təhlükəsizliyi baxımından məqsədəuyğun hesab edilmədikdə və ya uşağın valideynləri ailə inkişaf planında nəzərdə tutulan tədbirlərin icrasından imtina etdikdə və yaxud uşağı tərbiyə etməkdən boyun qaçırdıqda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ailə inkişaf planının icrasının dayandırılması və uşağın bu Məcəllənin 116.5–116.7-ci maddələrinə uyğun olaraq yerləşdirilməsi barədə qərar qəbul edə bilər.

116.5. Uşağın valideynləri olmadıqda və ya valideynlərinə qaytarılması mümkün olmadıqda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilk növbədə onun qəyyumluğa (himayəyə) verilməsi imkanlarının araşdırılması üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) dərhal sorğu göndərir.

116.6. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Məcəllənin 116.5-ci maddəsində qeyd olunan sorğu daxil olduqdan sonra 10 (on) iş günü müddətində araşdırma apararaq, uşağın qəyyumluğa (himayəyə) verilməsinin mümkün olub-olmaması barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verir.

116.7. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Məcəllənin 116.6-cı maddəsinə əsasən uşağın qəyyumluğa (himayəyə) verilməsinin mümkün olmadığı barədə məlumatı aldıqdan sonra 10 (on) iş günü müddətində uşağın himayədar ailəyə və ya övladlığa verilməsi, bu mümkün olmadıqda isə valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisəyə yerləşdirilməsi barədə qərar qəbul edir.

116.8. Bu Məcəllənin 114.1-ci maddəsində qeyd olunan uşaq aşkar olunan zaman onun sağlamlığı və ya həyatı üçün birbaşa təhlükə olduqda və təcili yerləşdirilməsi zərurəti yarandıqda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Məcəllənin 116.1-ci maddəsinə uyğun olaraq ilkin qiymətləndirməni aparmadan uşağın təcili yerləşdirilməsi ilə bağlı qərar qəbul edir. Uşaq yerləşdirildikdən sonra müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Məcəllənin 116.1-ci maddəsinə uyğun olaraq uşaqla bağlı ilkin qiymətləndirməni aparır.

116.9. Uşağın yerləşdirilməsi zamanı onun fikirləri, maraqları, etnik mənşəyi, müəyyən dinə və mədəniyyətə mənsubiyyəti, ana dili, təhsili və tərbiyəsi üçün daha əlverişli imkanları və yerləşdirmənin uşaq üçün təhlükəsizliyi nəzərə alınmalıdır.

116.10. Valideyn himayəsindən məhrum olmuş uşaqlar bu Məcəllənin 116.5–116.7-ci maddələrinə uyğun olaraq yerləşdirilənədək onlar üzərində qəyyumluq və himayəçilik orqanının funksiyalarını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həyata keçirir.”.

8. Aşağıdakı məzmunda 116-1-ci və 118.16-1-ci maddələr əlavə edilsin:

**“Maddə 116-1. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrə yerləşdirilmiş uşaqlarla işin aparılması**

116-1.1. Bu Məcəllənin 116.7-ci maddəsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisəyə yerləşdirilmiş uşağın fərdi, təhsil, sosial-mədəni inkişafını təmin etmək və ailə tərbiyəsinə verilməsinin mümkünlüyünü müəyyənləşdirmək məqsədilə yaşı, sağlamlığı, istək və mənafeləri, bacarıq və digər xüsusiyyətləri nəzərə alınmaqla uşaqla bağlı fərdi inkişaf planı tərtib edir.

116-1.2. Fərdi inkişaf planının tərtibi zamanı 7 yaşına çatmış uşağın fikri nəzərə alınır, eləcə də valideyni və ya qohumları varsa, fərdi inkişaf planının tərtibində onların iştirakı təmin edilir.

116-1.3. Uşağın yerləşdiyi müəssisənin rəhbəri fərdi inkişaf planının hazırlanmasında və icrasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) kömək göstərməlidir.

116-1.4. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) fərdi inkişaf planının icrası nəticəsində uşağın öz ailəsinə və ya qohumlarına qaytarılmasının mümkünlüyünü müəyyənləşdirdikdə ailə inkişaf planı tərtib edir və onun ailədəki vəziyyəti, əqli, fiziki, psixoloji və psixi sağlamlıq vəziyyətinin öyrənilməsi məqsədilə uşaq ailəyə qaytarıldıqdan sonra 1 (bir) il ərzində rübdə azı bir dəfə olmaqla ailədə monitorinq aparır.

116-1.5. Bu Məcəllənin 116-1.4-cü maddəsinə uyğun olaraq uşağın ailəyə qaytarılmasından sonra aparılan monitorinq nəticəsində uşağın sağlamlığı və ya həyatı üçün birbaşa təhlükə olduğu aşkarlandıqda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) dərhal uşağı ailədən alıb bu Məcəllənin 116.8-ci maddəsinə uyğun olaraq təcili yerləşdirir və bu barədə prokurora məlumat verir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) uşağın yerləşdirilməsindən sonra 10 (on) iş günü müddətində məhkəməyə valideynlik hüquqlarından məhrumetmə və ya bu hüquqların məhdudlaşdırılması barədə iddia ilə müraciət edə bilər.";

"118.16-1. Uşaq onu 3 (üç) aydan az olmayan müddətdə tərbiyə edən qəyyumları (himayəçiləri), habelə himayədar valideynləri tərəfindən övladlığa götürüldükdə, bu Məcəllənin 118.3.3–118.3.5-ci maddələrinin tələbləri həmin şəxslərə şamil olunmur.".

9. 119-cu maddə üzrə:

9.1. 119.1-ci maddədə "elektron informasiya sistemində "e-sosial" internet portalı" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi" sözləri ilə əvəz edilsin;

9.2. 119.2.8-ci maddəyə "əvvəllər" sözündən sonra "qəyyum (himayəçi), himayədar valideyn və ya" sözləri əlavə edilsin;

9.3. 119.6-cı maddədə "119.2.1–119.2.2-ci maddələrində" sözləri "119.2.2-ci maddəsində" sözləri ilə əvəz edilsin.

10. 120.2-ci maddəyə "Övladlığa götürməyə," sözlərindən sonra "himayədar ailə olmağa," sözləri əlavə edilsin.

11. 136.1-ci maddədə "valideynlərini itirmiş uşaqlara (bu Məcəllənin 114.1-ci maddəsi)" sözləri "bu Məcəllənin 114.1-ci maddəsində qeyd edilən uşaqlara" sözləri ilə əvəz edilsin.

12. Aşağıdakı məzmunda 138-1-ci maddə əlavə edilsin:

**“Maddə 138-1. Himayədar ailəyə verilmiş uşaqlar üzərində qəyyumluq və himayə**

Himayədar ailəyə verilmiş uşaqlar üzərində qəyyumluq və himayəçilik orqanının funksiyalarını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həyata keçirir.”.

13. 142-ci maddə aşağıdakı redaksiyada verilsin:

**“Maddə 142. Himayədar ailənin yaranması**

142.1. Himayədar ailə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə himayədar valideyn olmaq istəyən şəxs (şəxslər) arasında uşağın himayədar ailəyə verilməsinə dair müqavilə əsasında yaranır.

142.2. Himayədar ailənin yaranması aşağıdakı 3 (üç) mərhələdə həyata keçirilir:

142.2.1. himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) uçota alınması;

142.2.2. himayədar ailəyə verilmənin uşağın mənafeyinə uyğunluğunun müəyyənləşdirilməsi;

142.2.3. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə himayədar valideyn olmaq istəyən şəxs (şəxslər) arasında uşağın himayədar ailəyə verilməsinə dair müqavilənin bağlanılması.

142.3. Himayədar ailəyə verilmənin uşağın mənafeyinə uyğunluğu müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aşağıdakı qaydada müəyyən edilir:

142.3.1. himayədar valideyn olmaq istəyən şəxslə (şəxslərlə) müsahibənin aparılması və həmin şəxsin (şəxslərin) maddi-məişət şəraitinin müayinəsi;

142.3.2. himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) təlimlərə cəlb edilməsi;

142.3.3. himayədar valideyn olmaq istəyən şəxsə (şəxslərə) uyğun uşağın və himayədar ailəyə veriləcək uşağa uyğun himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) seçilməsi.

142.4. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) həyat şəraiti, ailə tərkibi, ailə üzvlərinin himayəyə götürməyə münasibətini öyrənmək məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemində uçota alınma ardıcıllığına uyğun olaraq seçilmiş himayədar valideyn olmaq istəyən şəxslə (şəxslərlə) müsahibə keçirir və bu Məcəllənin 118.4-cü maddəsində nəzərdə tutulmuş qaydaya uyğun olaraq həmin şəxslərin maddi-məişət şəraitinin müayinəsini aparır.

142.5. Müsahibədən keçmiş himayədar valideyn olmaq istəyən şəxs (şəxslər) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən himayədar ailə ilə bağlı müddəti 30 (otuz) gündən çox olmayan təlimlərə cəlb edilirlər.

142.6. Himayədar ailə ilə bağlı təlimlərdən keçmiş himayədar valideyn olmaq istəyən şəxs (şəxslər) 1 (bir) il müddətində himayədar ailə olmaq üçün təkrar müraciət etdikdə təlimlərə cəlb edilmir.

142.7. Himayədar ailə ilə bağlı təlimin nəticələri bu Məcəllənin 118.4-cü maddəsində nəzərdə tutulmuş qayda ilə müəyyən edilən meyarlara əsasən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən qiymətləndirilir.

142.8. Təlimin nəticələri müsbət qiymətləndirildikdə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) və himayədar ailəyə veriləcək uşağın istək və mənafeyini nəzərə almaqla, himayədar valideyn olmaq istəyən şəxsə (şəxslərə) uyğun uşaq və himayədar ailəyə veriləcək uşağa uyğun himayədar valideyn seçir və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi yerdə sosial işçinin iştirakı ilə onların görüşünü təşkil edir.

142.9. Bu Məcəllənin 142.8-ci maddəsində nəzərdə tutulmuş görüşün nəticəsinə dair sosial işçinin hesabatı nəzərə alınmaqla, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) himayədar valideyn olmaq istəyən şəxslə (şəxslərlə) uşağın himayədar ailəyə verilməsinə dair müqavilə bağlayır. Himayədar ailəyə tərbiyə üçün yalnız yetkinlik yaşına çatmayanlar və yalnız bu maddəyə uyğun olaraq bağlanılmış müqavilədə nəzərdə tutulmuş müddətə verilə bilərlər.

142.10. Uşağın himayədar ailəyə verilməsinə dair müqavilədə uşağın sağlamlıq vəziyyəti, onun yaşayış, tərbiyə və təhsil şəraiti, himayədar valideynlərin və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hüquq və vəzifələri, bu müqavilənin müddətinin uzadılması, ləğv olunmasının əsasları və nəticələri qeyd edilir.

142.11. Uşağın himayədar ailəyə verilməsinə dair müqavilə himayədar ailəyə verilmiş uşaqların müvəqqəti olduqları yer, yəni himayədar ailənin yaşadığı yer üzrə qeydiyyata alınması üçün əsas hesab edilir.

142.12. Uşağın himayədar ailəyə verilməsinə dair müqavilənin formasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edir.

142.13. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) himayəyə götürülmüş hər bir uşağa görə himayədar valideynlərə

onların himayədar valideyn olduğunu təsdiq edən və üzərində himayədar valideynlərin, himayəyə verilmiş uşağın soyadı, adı, atasının adı və fotoşəkli əks olunmuş vəsiqə təqdim edir.

142.14. Himayədar valideynlərə verilən vəsiqənin nümunəsini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edir.”.

14. Aşağıdakı məzmunda 142-1-ci maddə əlavə edilsin:

**“Maddə 142-1. Himayədar ailələrə verilmiş uşaqların və himayədar ailə (himayədar valideyn) olmaq istəyən ailələrin (şəxslərin) uçotu**

142-1.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) himayədar ailələrə verilmiş uşaqların və himayədar ailə (himayədar valideyn) olmaq istəyən şəxsin (şəxslərin) vahid informasiya bazasını yaratmaq məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi üzərindən dövlət orqanlarının (qurumlarının) apardığı elektron informasiya ehtiyatlarından (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) istifadə etməklə onların vahid uçotunu bu maddənin tələbləri nəzərə alınmaqla elektron formada aparır.

142-1.2. Bu Məcəllənin 142-1.1-ci maddəsində qeyd edilən vahid informasiya bazasında aşağıdakı məlumatlar əks olunmalıdır:

142-1.2.1. himayədar ailələrə verilmiş uşaqların soyadı, adı, atasının adı, cinsiyyəti, doğum tarixi, doğulduğu yer, FİN-i, qeydiyyat ünvanı, vətəndaşlığı və himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) soyadı, adı, atasının adı, FİN-i, qeydiyyat ünvanı, faktiki yaşadığı ünvan;

142-1.2.2. himayədar ailələrə verilmiş uşaqların və himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) sağlamlıq vəziyyəti barədə məlumatlar;

142-1.2.3. uşağın əvvəllər qəyyumluğa (himayəyə), himayədar ailəyə və ya övladlığa verilib-verilməməsi barədə məlumatlar;

142-1.2.4. himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) təhsili (peşəsi), iş yeri, vəzifəsi barədə məlumatlar;

142-1.2.5. himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) məhkumluğunun olub-olmaması barədə məlumatlar;

142-1.2.6. himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) yaşayış şəraiti, gəlirləri və maliyyə öhdəlikləri barədə məlumatlar;

142-1.2.7. himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) əvvəllər qəyyum (himayəçi), himayədar valideyn və ya övladlığa götürən şəxs olub-olmaması barədə məlumatlar;

142-1.2.8. uşağın himayədar ailəyə verilməsi barədə müqavilənin müddəti barədə məlumat.

142-1.3. Bu Məcəllənin 142-1.2-ci maddəsində qeyd edilən məlumatlar bu Məcəllənin 118.4-cü maddəsində nəzərdə tutulmuş qaydaya uyğun olaraq dövlət orqanlarının (qurumlarının) apardığı elektron informasiya ehtiyatlarından (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) əldə edilir və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həmin məlumatların mütəmadi yenilənməsi təmin edilir. Bu mümkün olmadıqda həmin məlumatlar "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinə uyğun olaraq əldə edilir.

142-1.4. Bu Məcəllənin 142-1.2.2-ci, 142-1.2.4–142-1.2.7-ci maddələrində qeyd edilən məlumatlar himayədar valideyn olmaq istəyən şəxs (şəxslər) tərəfindən təqdim edildiyi halda həmin məlumatlar 6 (altı) ay müddətində etibarlıdır.

142-1.5. Himayədar valideyn olmaq istəyən şəxs (şəxslər) bu Məcəllənin 142-1.2.1-ci, 142-1.2.2-ci və 142-1.2.4–142-1.2.7-ci maddələrində qeyd olunan məlumatların düzgünlüyünə görə məsuliyyət daşıyırlar.

142-1.6. Bu Məcəllənin 142-1.1-ci maddəsində qeyd edilən vahid informasiya bazasında uçota alınmış himayədar ailəyə verilmiş uşaqlar uşağın himayədar ailəyə verilməsinə dair müqavilə ləğv edildikdə uçotdan çıxarılırlar.

142-1.7. Himayədar valideynlər aşağıdakı hallarda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən uçotdan çıxarılırlar:

142-1.7.1. öz müraciətləri əsasında;

142-1.7.2. vəfat etdikdə və yaxud məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında xəbərsiz itkin düşmüş hesab edildikdə və ya ölmüş elan edildikdə;

142-1.7.3. bu Məcəllənin 142-1.5-ci maddəsinə uyğun olaraq bilə-bilə təhrif olunmuş və ya düzgün olmayan məlumat təqdim etdikdə, bir il müddətinə;

142-1.7.4. bu Məcəllənin 142.3.1-ci maddəsinə uyğun olaraq müsahibədən himayədar valideyn olmaqla bağlı məqsədlərinin uşağın mənafeyinə uyğun olmaması səbəbindən keçmədikdə;

142-1.7.5. bu Məcəllənin 120.1.6-cı maddəsində qeyd edilən cinayət əməllərinin törədilməsinə görə məsuliyyətə cəlb edildikdə;

142-1.7.6. bu Məcəllənin 120.2-ci maddəsi ilə müəyyən edilən xəstəliklərdən birinə tutulduqda;

142-1.7.7. barəsində cinayət təqibi üzrə icraat aparılan şəxslər, cinayət təqibi müddətində;

142-1.7.8. bu Məcəllənin 144.2-ci maddəsinə uyğun olaraq ailədə adambaşına düşən orta aylıq gəlir ailə üzvlərinin hər biri üçün ölkə üzrə müəyyən olunmuş yaşayış minimumu məbləğindən az olduqda;

142-1.7.9. bu Məcəllənin 144.3-cü maddəsinə uyğun olaraq yaşayış sahəsinin adambaşına düşən ümumi sahəsi qanunla müəyyən edilmiş yaşayış sahəsinin ayrılma normasından az olduqda;

142-1.7.10. himayədar ailəyə verilmiş uşaqla birlikdə yaşayacağı yaşayış sahəsinə tələb yönəldildikdə;

142-1.7.11. bu Məcəllənin 143.2.1–143.2.3-cü maddələrində qeyd olunan hallarda uşağın himayədar ailəyə verilməsinə dair müqavilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən birtərəfli qaydada ləğv edildikdə.

142-1.8. Himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) notarial qaydada təsdiq edilmiş ərizəsi bu Məcəllənin 118.4-cü maddəsində nəzərdə tutulmuş qaydaya uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə daxil edildiyi andan himayədar valideyn olmaq istəyən şəxs (şəxslər) uçota alınır. Himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) ərizəsinin forması və həmin ərizədə əks olunmalı olan məlumatlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

142-1.9. Himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) ərizədə qeyd etdiyi məlumatlarda, o cümlədən ailə tərkibində, eləcə də onların faktiki yaşadığı ünvanda dəyişiklik olduqda, himayədar valideyn olmaq istəyən şəxs (şəxslər) həmin məlumatları yeniləməklə, yeni ərizə ilə bu Məcəllənin 142-1.8-ci maddəsinə uyğun olaraq yenidən müraciət etməlidir.

142-1.10. Bu Məcəllənin 142-1.7.4-cü maddəsinə əsasən uçotdan çıxarılmış şəxslər azı 1 il keçdikdən sonra himayədar ailə olmaq üçün təkrar müraciət edə bilərlər.”.

15. 143-cü maddə aşağıdakı redaksiyada verilsin:

**“Maddə 143. Uşağın himayədar ailəyə verilməsinə dair müqavilənin ləğv edilməsi**

143.1. Uşağın himayədar ailəyə verilməsinə dair müqavilə himayədar valideynlərin uşağın himayədar ailəyə verilməsinə dair müqavilənin ləğv edilməsi barədə müraciəti (xəstəlik və ailə vəziyyətinin dəyişməsi, himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) yaşayış şəraiti, gəlirləri və aliment, kredit və digər maliyyə öhdəliklərində əhəmiyyətli dəyişikliklər baş verdikdə, uşaqla qarşılıqlı anlaşmanın olmaması, uşaqlar arasında münaqişəli vəziyyət olması səbəblərinə görə), həmin müqavilənin müddətinin başa çatması, himayədar valideynlərin və ya himayədar ailəyə verilmiş uşağın vəfat etməsi,

o cümlədən bu Məcəllənin 143.2-ci maddəsində qeyd olunan hallarda ləğv edilir.

143.2. Uşağın himayədar ailəyə verilməsinə dair müqavilə aşağıdakı hallarda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən birtərəfli qaydada ləğv edilir:

143.2.1. himayədar valideynlər onlara həvalə edilmiş himayədar valideyn vəzifələrini yerinə yetirmədikdə;

143.2.2. himayədar valideynlər və ya onlarla birgə yaşayan (ümumi ev təsərrüfatına malik) şəxslər uşaqların mənəvi inkişafına, fiziki və psixi sağlamlığına xələl yetirən hərəkətlərə, habelə uşaqların tərbiyəsində onların istismarına, təhqir edilməsinə, mənəviyyatının alçaldılmasına, qəddarlığa, kobudluğa, biganəliyə yol verdikdə;

143.2.3. himayədar valideynlər və ya onlarla birgə yaşayan (ümumi ev təsərrüfatına malik) şəxslər alkoqolik və ya narkoman olduqda;

143.2.4. bu Məcəllənin 142-1.7.3-cü, 142-1.7.5–142-1.7.10-cu maddələrinə uyğun olaraq, himayədar valideynlərin uçotdan çıxarılması üçün əsaslar olduqda;

143.2.5. himayədar ailəyə verilmiş 10 yaşına çatmış uşağın müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müraciəti əsasında;

143.2.6. himayədə olan uşağın öz ailəsinə qaytarılması, qəyyumluğa (himayəyə) verilməsi və ya övladlığa götürülməsi ilə bağlı əsaslar yarandıqda.

143.3. Uşağın himayədar ailəyə verilməsinə dair müqavilə müddətinin başa çatması, himayədar valideynlərin təşəbbüsü və ya bu Məcəllənin 143.2.6-cı maddəsinə uyğun olaraq ləğv edildikdən sonra müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) 3 (üç) iş günü müddətində uşağın himayədar ailədən alınıb bu Məcəllənin 116.8-ci maddəsinə uyğun olaraq yerləşdirilməsi ilə bağlı tədbirlər görür.

143.4. Uşağın himayədar ailəyə verilməsinə dair müqavilə bu Məcəllənin 143.1-ci maddəsinə uyğun olaraq himayədar valideynin vəfat etməsi və ya bu Məcəllənin 143.2.1–143.2.5-ci maddələrinə uyğun olaraq ləğv edildikdən sonra müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) dərhal uşağın himayədar ailədən alınıb bu Məcəllənin 116.8-ci maddəsinə uyğun olaraq yerləşdirilməsi ilə bağlı tədbirlər görür.”.

16. Aşağıdakı məzmunda 143-1-ci və 143-2-ci maddələr əlavə edilsin:

**“Maddə 143-1. Uşaq himayədar ailəyə verildikdən sonra monitorinq**

143-1.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) himayəyə götürülmüş uşağın ailədəki vəziyyəti, əqli, fiziki, psixoloji və psixi sağlamlıq vəziyyətinin öyrənilməsi məqsədilə ayda bir dəfədən az

olmamaq şərtilə himayədar ailəyə verilmiş uşaqların vəziyyətinin və himayədar ailə tərəfindən müqavilə şərtlərinə əməl edilməsinin monitorinqini aparır.

143-1.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) monitorinqləri planlı (qabaqcadan xəbərdar etməklə) və ya plandankənar (qabaqcadan xəbərdar etmədən) həyata keçirir.

143-1.3. Monitorinqlər zamanı ailənin yaşayış şəraiti, maddi vəziyyəti, himayədar ailəyə verilmiş uşağın və himayədar valideynlərin sağlamlıq vəziyyəti, ailədə uşağa qulluq və qayğı vəziyyəti nəzərə alınır.

143-1.4. Monitorinqlər zamanı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Məcəllənin 143.2.1–143.2.3-cü maddələrində qeyd edilən əsaslardan birini aşkar etdikdə, dərhal uşağın himayədar ailəyə verilməsinə dair müqaviləni birtərəfli qaydada ləğv edir.

**Maddə 143-2. Himayədar ailəyə verilmiş uşağın inkişafı**

143-2.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) himayədar ailəyə verilmiş uşağın maraqları əsasında onun əqli, fiziki, emosional, psixoloji inkişafını təmin etmək, onun bioloji valideynlərinə (bioloji valideynləri olmadıqda isə qohumlarına) qaytarılması imkanlarını qiymətləndirmək məqsədilə himayədar valideynlərin, mümkün olduqda uşağın bioloji valideynlərinin iştirakı ilə uşağın fərdi inkişaf planını hazırlayır.

143-2.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) fərdi inkişaf planında olan tədbirlərin vaxtında və keyfiyyətlə icrası məqsədilə uşağın bioloji valideynləri (olduğu halda) və himayədar valideynlərlə mütəmadi iş aparır.

143-2.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) himayədar valideynlərin fikrini nəzərə almaqla uşaqla bioloji valideynlərin və ya qohumların görüşünü təşkil edir. Himayədar valideynlər belə görüşlərin keçirilməsi üçün lazımi şərait yaratmalıdırlar.”.

17. 144-cü maddə aşağıdakı redaksiyada verilsin:

**“Maddə 144. Himayədar valideynlər**

144.1. Bu Məcəllənin 120.1.1–120.1.7-ci maddələrində qeyd edilənlər istisna olmaqla, bu Məcəllənin 120.2-ci, 120.3-cü, 121.1-ci və 121.2-ci maddələrinin tələbləri nəzərə alınmaqla, yetkinlik yaşına çatmış, hər iki cinsdən olan, ən azı ümumi orta təhsilli Azərbaycan Respublikasının ərazisində daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşları himayədar valideyn ola bilərlər.

144.2. Ailədə adambaşına düşən orta aylıq gəliri ailə üzvlərinin hər biri üçün (himayədar ailəyə veriləcək uşaqlar istisna olmaqla) ölkə üzrə müəyyən

olunmuş yaşayış minimumunun məbləğindən az olan şəxslər himayədar valideyn ola bilməzlər (uşaqların öz qohumlarına himayədar ailəyə verilməsi halı istisna olmaqla). Himayədar ailəyə veriləcək uşaqla birlikdə yaşayacağı yaşayış sahəsinə tələb yönəldilmiş şəxslər himayədar valideyn ola bilməzlər.

144.3. Yaşayış sahəsinin adambaşına düşən ümumi sahəsi qanunla müəyyən edilmiş yaşayış sahəsinin ayrılma normasından az olmamalıdır.

144.4. Uşağın qəyyumları (himayəçiləri), bioloji və ya ögey valideynləri himayədar valideyn ola bilməzlər.

144.5. Bir ünvanda iki və daha çox himayədar ailənin (valideynin) yerləşməsinə yol verilmir.

144.6. Bu Məcəllənin 120.1.6-cı, 120.1.7-ci və 120.2-ci maddələrində qeyd olunan tələblər eyni zamanda himayədar valideynlərlə birlikdə yaşayan (ümumi ev təsərrüfatına malik) şəxslərə münasibətdə də tətbiq edilir.”.

18. 145-ci maddə üzrə:

18.1. 145.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

“145.1. Bu Məcəllənin 119.1-ci maddəsinə uyğun olaraq uçota alınmış valideyn himayəsindən məhrum olmuş uşaqlar tərbiyə edilmək üçün himayədar ailələrə verilə bilər.”;

18.2. 145.2-ci maddənin birinci cümləsi çıxarılsın;

18.3. 145.3-cü, 145.4-cü və 145.6-cı maddələr ləğv edilsin;

18.4. 145.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

“145.5. Himayədar ailəyə verilmiş uşaqlar bu Məcəllənin 140-cı maddəsində nəzərdə tutulmuş hüquqlara malikdirlər.”.

19. Aşağıdakı məzmunda 145.8–145.10-cu, 145-1-ci və 145-2-ci maddələr əlavə edilsin:

“145.8. Öz uşaqları da daxil olmaqla, hər iki valideyni olan himayədar ailədə uşaqların ümumi sayı 5-dən, bir valideyni olan himayədar ailədə uşaqların ümumi sayı 3-dən artıq ola bilməz.

145.9. Himayədar ailələr üçün himayəyə verilmiş uşaqların sayı 3-dən artıq olmamalıdır (bacı-qardaşlar himayəyə götürüldüyü hallar istisna olmaqla).

145.10. Himayədar ailəyə verilmiş uşağın əqli, fiziki, emosional, psixoloji inkişafına xələl gətirə biləcək halların qarşısını almaq məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) himayədar ailəyə verilən uşaqlar arasındakı yaş fərqini nəzərə almalıdır.”;

**“Maddə 145-1. Himayədar valideynlərin hüquq və vəzifələri**

145-1.1. Himayədar valideynin (valideynlərin) aşağıdakı hüquqları vardır:

145-1.1.1. uşağın saxlanılmasına görə "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilən aylıq və birdəfəlik müavinəti almaq;

145-1.1.2. uşağın mənafeyinə zidd olan hallar istisna olmaqla, uşaq haqqında tam və dolğun məlumat almaq;

145-1.1.3. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) tövsiyələrini və uşağın fikrini nəzərə almaqla, onun tərbiyə üsullarını sərbəst müəyyənləşdirmək;

145-1.1.4. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) müqavilə üzrə öhdəliklərinin tam və vaxtında icrasını tələb etmək;

145-1.1.5. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə razılaşdırmaqla, onun ümumi orta təhsil alması üçün təhsil müəssisəsini seçmək.

145-1.2. Himayədar valideynin (valideynlərin) aşağıdakı vəzifələri vardır:

145-1.2.1. mütəmadi olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təşkil edilən təlimlərdə iştirak etmək;

145-1.2.2. uşağı tərbiyə etmək, onun fiziki və psixi, mənəvi və əxlaqi inkişafının, sağlamlığının qeydinə qalmaq, uşağa ailə mühitində qayğı və nəzarəti təmin etmək;

145-1.2.3. uşağın himayədar ailədə qaldığı müddətdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) məsul sosial işçiləri tərəfindən monitorinqlərin aparılması üçün zəruri şərait yaratmaq, uşaqla bağlı hazırlanmış fərdi inkişaf planlarının uğurlu icrası üçün əməkdaşlıq etmək;

145-1.2.4. uşaqla birlikdə Azərbaycan Respublikasının hüdudlarından kənara getmək zərurəti yarandıqda (şəxsi, ailə, istirahət, müalicə, təhsil) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) razılığını almaq;

145-1.2.5. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) razılığı ilə uşağın öz ailəsi və qohumları ilə ünsiyyətinə şərait yaratmaq;

145-1.2.6. himayədar ailəyə verilmiş uşaqlara mövsümi geyim alınması üçün müavinəti təyinatı üzrə istifadə etmək və təsdiqedici sənədləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim etmək;

145-1.2.7. himayədar ailəyə verilmiş uşaqlara mövsümi geyim alınması üçün müavinəti təyinatı üzrə istifadə etmədikdə müavinətin məbləğini geri qaytarmaq.

**Maddə 145-2. Uşağın himayədar ailəyə verilməsinə uşaqların, valideynlərin, uşağın yerləşdiyi müəssisələrin rəhbərlərinin razılığı**

145-2.1. 7 yaşı tamam olmuş uşağın himayədar ailəyə verilməsi zamanı onun fikri pedaqoji işçinin və ya psixoloqun iştirakı ilə öyrənilir və nəzərə alınır. 10 yaşı tamam olmuş uşaq himayədar ailəyə verildikdə, onun razılıq verməsi zəruridir.

145-2.2. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisəyə yerləşdirilmiş uşağın himayədar ailəyə verilməsi zamanı onun valideynlərinin (olduğu halda) və yerləşdiyi müəssisənin razılığı tələb olunmur.”.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 30 may 2023-cü il

§

**“Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 879-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2000-ci il 6 mart tarixli 297 nömrəli, “Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası”nın təsdiq edilməsi haqqında” 2012-ci il 8 may tarixli 626 nömrəli, “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” 2012-ci il 6 iyun tarixli 648 nömrəli, “Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 2018-ci il 10 dekabr tarixli 387 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 879-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 68.4-1-ci maddəsində, 72.2-ci maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 116.1-ci, 116.2-ci, 116.4-cü, 116.5-ci (hər iki halda), 116.6-cı (hər iki halda), 116.7-ci maddələrində, 116.8-ci maddəsinin birinci və ikinci cümlələrində, 116.10-cu, 116-1.1-ci, 116-1.3-cü, 116-1.4-cü maddələrində, 116-1.5-ci maddəsinin birinci və ikinci cümlələrində, 119.1-ci, 138-1-ci, 142.1-ci, 142.2.3-cü, 142.3-cü, 142.4-cü (hər iki halda), 142.5-ci, 142.7-ci, 142.8-ci (hər iki halda), 142.9-cu, 142.10-cu, 142.12–142.14-cü, 142-1.1-ci (hər iki halda) maddələrində, 142-1.3-cü maddəsinin birinci cümləsində, 142-1.7-ci, 142-1.7.11-ci maddələrində, 142-1.8-ci maddəsinin birinci və ikinci cümlələrində, 143.2-ci, 143.2.5-ci, 143.3-cü, 143.4-cü, 143-1.1-ci, 143-1.2-ci, 143-1.4-cü, 143-2.1–143-2.3-cü, 145.10-cu, 145-1.1.3–145-1.1.5-ci, 145-1.2.1-ci, 145-1.2.3–145-1.2.6-cı maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 68.4-1-ci maddəsində, 72.2-ci maddəsinin birinci cümləsində (ikinci halda), 116.1-ci, 116.2-ci, 116.4-cü, 116.5-ci (birinci halda), 116.6-cı (ikinci halda), 116.7-ci maddələrində, 116.8-ci maddəsinin birinci və ikinci cümlələrində, 116.10-cu, 116-1.1-ci, 116-1.3-cü, 116-1.4-cü maddələrində, 116-1.5-ci maddəsinin hər iki cümləsində, 119.1-ci, 138-1-ci, 142.1-ci, 142.2.3-cü, 142.3-cü, 142.4-cü (hər iki halda), 142.5-ci, 142.7-ci, 142.8-ci (hər iki halda), 142.9-cu, 142.10-cu, 142.12–142.14-cü, 142-1.1-ci (hər iki halda) maddələrində, 142-1.3-cü maddəsinin birinci cümləsində, 142-1.7-ci, 142-1.7.11-ci maddələrində, 142-1.8-ci maddəsinin birinci və ikinci cümlələrində, 143.2-ci, 143.2.5-ci, 143.3-cü, 143.4-cü, 143-1.1-ci, 143-1.2-ci, 143-1.4-cü, 143-2.1–143-2.3-cü, 145.10-cu, 145-1.1.3–145-1.1.5-ci, 145-1.2.1-ci, 145-1.2.3–145-1.2.6-cı maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 72.2-ci maddəsinin birinci cümləsində (birinci halda) və ikinci cümləsində, 116.5-ci (ikinci halda), 116.6-cı (birinci halda) maddələrində "orqan (qurum)" dedikdə yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi aşağıdakı normativ hüquqi aktları iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

2.1. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 142.12-ci maddəsinə uyğun olaraq, uşağın himayədar ailəyə verilməsinə dair müqavilənin formasını;

2.2. həmin Məcəllənin 142.14-cü maddəsinə uyğun olaraq, himayədar valideynlərə verilən vəsiqənin nümunəsini;

2.3. həmin Məcəllənin 142-1.8-ci maddəsinə uyğun olaraq, himayədar valideyn olmaq istəyən şəxsin ərizəsinin formasını.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 879-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

4. “Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 297 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 164; 2002, № 7, maddə 412, № 8, maddə 478, № 12, maddə 716; 2003, № 6, maddə 290; 2004, № 7, maddə 526; 2006, № 12, maddə 1034; 2007, № 3, maddə 226, № 11, maddə 1105; 2010, № 5, maddə 393, № 7, maddə 613, № 8, maddə 722; 2019, № 5, maddə 818, № 12, maddə 1930; 2021, № 6 (I kitab), maddə 565; 2022, № 1, maddə 30; 2023, № 1, maddə 85, № 3, maddə 348; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 may tarixli 2160 nömrəli Fərmanı) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bəndə “65.5,” rəqəmlərindən sonra “68.4-1-ci maddəsində, 72.2-ci maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində,” sözləri, “115.7-ci,” sözlərindən sonra “116.1, 116.2, 116.4, 116.5 (hər iki halda), 116.6 (hər iki halda), 116.7-ci maddələrində, 116.8-ci maddəsinin birinci və ikinci cümlələrində, 116.10, 116-1.1, 116-1.3, 116-1.4-cü maddələrində, 116-1.5-ci maddəsinin birinci və ikinci cümlələrində,” sözləri, “118.20,” rəqəmlərindən sonra “119.1,” rəqəmləri, “131.4,” rəqəmlərindən sonra “138-1, 142.1, 142.2.3, 142.3, 142.4 (hər iki halda), 142.5, 142.7, 142.8 (hər iki halda), 142.9, 142.10, 142.12-142.14, 142-1.1-ci (hər iki halda) maddələrində, 142-1.3-cü maddəsinin birinci cümləsində, 142-1.7, 142-1.7.11-ci maddələrində, 142-1.8-ci maddəsinin birinci və ikinci cümlələrində, 143.2, 143.2.5, 143.3, 143.4, 143-1.1, 143-1.2, 143-1.4, 143-2.1–143-2.3, 145.10, 145-1.1.3–145-1.1.5, 145-1.2.1, 145-1.2.3–145-1.2.6” sözləri əlavə edilsin;

4.2. 2.2-ci bənddən “116.2,” və “142.2,” rəqəmləri çıxarılsın;

4.3. 2.9-cu bənddən “49.4, 51.2,”, “63.3, 66.5,”, “69.4,”, “72.2,” və “114.1, 114.2, 114.3, 115.1-115.3, 116.4, 144.2, 145.2, 145.7” rəqəmləri çıxarılsın;

4.4. 2.11-ci bəndə “Məcəllənin” sözündən sonra “63.3,” rəqəmləri, “65.2,” rəqəmlərindən sonra “66.5, 69.4, 114.1, 114.2, 114.3, 115.1, 115.3” rəqəmləri və “134.13,” rəqəmlərindən sonra “145.7,” rəqəmləri əlavə edilsin;

4.5. aşağıdakı məzmunda 2.9-1-ci, 2.9-2-ci və 2.11-1-ci bəndlər əlavə edilsin:

“2.9-1. həmin Məcəllənin 72.2-ci maddəsinin birinci cümləsində (birinci halda) və ikinci cümləsində, 116.5 (ikinci halda), 116.6-cı (birinci halda) maddələrində “orqan (qurum)” dedikdə yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları nəzərdə tutulur;

2.9-2. həmin Məcəllənin 49.4-cü və 51.2-ci maddələrində müvafiq icra hakimiyyəti orqanı dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları nəzərdə tutulur;”;

“2.11-1. həmin Məcəllənin 68.4-1-ci maddəsində, 72.2-ci maddəsinin birinci cümləsində (ikinci halda), 116.1, 116.2, 116.4, 116.5 (birinci halda), 116.6 (ikinci halda), 116.7-ci maddələrində, 116.8-ci maddəsinin birinci və ikinci cümlələrində, 116.10, 116-1.1, 116-1.3, 116-1.4-cü maddələrində, 116-1.5-ci maddəsinin birinci və ikinci cümlələrində, 119.1, 138-1, 142.1, 142.2.3, 142.3, 142.4 (hər iki halda), 142.5, 142.7, 142.8 (hər iki halda), 142.9, 142.10, 142.12–142.14, 142-1.1 (hər iki halda), 142-1.3, 142-1.7, 142-1.7.11-ci maddələrində, 142-1.8-ci maddəsinin birinci və ikinci cümlələrində, 143.2, 143.2.5, 143.3, 143.4, 143-1.1, 143-1.2, 143-1.4, 143-2.1–143-2.3, 145.10, 145-1.1.3–145-1.1.5, 145-1.2.1, 145-1.2.3–145-1.2.6-cı maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;”.

5. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 5, maddə 419; 2019, № 5, maddə 847, № 12, maddə 1936; 2020, № 7, maddə 895, № 8, maddə 1036; 2021, № 6 (I kitab), maddə 566, № 8, maddə 922; 2022, № 6, maddə 599; 2023, № 3, maddə 351) ilə təsdiq edilmiş “Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.5.11-ci yarımbəndə “vahid” sözündən əvvəl “, habelə himayədar ailə (himayədar valideyn) olmaq istəyən ailələrin (şəxslərin) və himayədar ailəyə verilmiş uşaqların” sözləri əlavə edilsin;

5.2. 2.5.16-cı yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.5.17–2.5.21-ci yarımbəndlər əlavə edilsin:

“2.5.17. himayədar ailə sahəsində tənzimləmənin və dövlət nəzarətinin həyata keçirilməsini təmin edir;

2.5.18. himayədar ailəyə verilmiş uşaqlar üzərində qəyyumluq (himayəçilik) orqanının funksiyalarını həyata keçirir;

2.5.19. valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrdə yerləşdirilməsi və həmin müəssisələri tərk etməsi ilə bağlı qərar qəbul edir;

2.5.20. valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrdən öz ailələrinə qaytarılması və ya himayədar ailəyə verilməsi ilə bağlı tədbirlər görür;

2.5.21. valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrə düşməsinin qarşısının alınması istiqamətində tədbirlər görülməsini, habelə həmin müəssisələrdə olan uşaqlarla bağlı fərdi inkişaf planlarının hazırlanmasını təmin edir.”;

5.3. 2.8.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

“2.8.3. Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq, vahid uçota alınmış valideyn himayəsindən məhrum olan uşaqların yerləşdirilməsinə yardım edir;”;

5.4. 2.8.7-ci yarımbənd ləğv edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 542; 2013, № 1, maddə 29, № 2, maddə 117, № 3, maddə 246, № 8, maddə 909, № 10, maddə 1155, № 12, maddə 1514; 2014, № 5, maddələr 477, 487, № 9, maddə 1027, № 12, maddə 1577; 2015, № 3, maddə 271, № 9, maddə 1005, № 11, maddə 1322, № 12, maddə 1448; 2016, № 2 (II kitab), maddə 273, № 5, maddələr 859, 864, № 8, maddə 1384, № 9, maddə 1464, № 10, maddə 1647, № 11, maddə 1835; 2017, № 3, maddə 353, № 4, maddə 545, № 5, maddə 807, № 8, maddə 1521, № 10, maddə 1797; 2018, № 2, maddələr 191, 215, № 3, maddə 427, № 4, maddə 659, № 7 (I kitab), maddə 1462, № 10, maddə 2017, № 12 (I kitab), maddələr 2538, 2596; 2019, № 3, maddə 406, № 4, maddə 655, № 5, maddələr 820, 826, 848, 852, 857, № 6, maddə 1037, № 12, maddə 1936; 2020, № 1, maddə 7, № 8, maddə 1039, № 10, maddə 1247; 2021, № 1, maddələr 16, 36, № 6 (I kitab), maddə 567, № 8, maddə 919, № 11, maddə 1211, № 12, maddə 1367; 2022, № 1, maddə 29, № 4, maddələr 302, 323, № 5, maddə 475, № 6, maddə 594, № 8, maddə 874, № 10, maddə 1142, № 12, maddələr 1411, 1428, 1441; 2023, №

4, maddə 480) ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 4.6.15-ci yarımbəndi ləğv edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2544; 2019, № 7, maddələr 1213, 1233, № 12, maddə 1935; 2020, № 8, maddə 1039; 2021, № 5, maddə 435, № 6 (I kitab), maddələr 579, 583, № 8, maddə 922, № 9, maddələr 983, 987, № 11, maddə 1212, № 12, maddə 1403; 2022, № 12, maddə 1448; 2023, № 2, maddə 219) ilə təsdiq edilmiş "DOST" mərkəzlərində göstərilən xidmətlərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

7.1. 5.2.1-ci yarımbəndə aşağıdakı məzmunda 6-cı abzas əlavə edilsin:

"6. himayədar ailəyə verilmiş uşaqlara mövsümi geyim alınması üçün müavinət";

7.2. 5.2.2-ci yarımbəndə aşağıdakı məzmunda 4-2-ci abzas əlavə edilsin:

"4-2. himayədar ailəyə verilmiş uşağın, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın tərbiyə edilməsinə görə müavinət";

7.3. aşağıdakı məzmunda 9-2-ci və 9-3-cü hissələr əlavə edilsin:

"9-2. Himayədar ailə sahəsində göstərilən xidmətlər

9-2.1. himayədar ailə ilə bağlı müraciətlərin qəbul edilməsi

9-2.2. himayədar ailə ilə bağlı məsləhət və məlumat verilməsi

9-3. Valideyn himayəsindən məhrum olmuş uşaqların hüquqlarının müdafiəsi, onların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrə yerləşdirilməsi və həmin müəssisələrdən götürülməsi ilə bağlı müraciətlərin qəbul edilməsi".

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 12 iyul 2023-cü il

§

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə

323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761; 2005, № 4, maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə 1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, № 5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 2011, № 6, maddələr 471, 476, № 7, maddələr 583, 619, № 12, maddələr 1096, 1105; 2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 2015, № 6, maddə 677, № 12, maddə 1435; 2016, № 5, maddə 836, № 6, maddə 1016, № 11, maddələr 1761, 1763, № 12, maddə 2047; 2017, № 2, maddə 155, № 4, maddə 523, № 5, maddələr 706, 750, № 11, maddələr 1935, 1975; 2018, № 5, maddə 879, № 8, maddə 1672, № 11, maddələr 2209, 2225, № 12 (I kitab), maddələr 2524, 2534; 2019, № 1, maddə 23, № 5, maddələr 792, 812, № 7, maddə 1197, № 12, maddələr 1897, 1907; 2020, № 7, maddə 832, № 11, maddə 1333; 2021, № 4, maddə 309, № 7, maddələr 711, 713, № 8, maddə 894, № 12, maddə 1346; 2022, № 6, maddə 580, № 8, maddə 828; 2023, № 1, maddələr 19, 23, 40, № 2, maddə 200; Azərbaycan Respublikasının 2023-cü il 2 may tarixli 867-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 14.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"14.5. Bu Məcəllə ilə müəyyən edilmiş hallarda, vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan şəxs maraqlarının təmsil olunması və prosessual hüquqlarının həyata keçirilməsi üçün dövlət hesabına peşəkar hüquqi yardım almaq hüququna malikdir.".

2. 67.2-ci maddə ləğv edilsin.

3. Aşağıdakı məzmunda 67-1-ci maddə əlavə edilsin:

**"Maddə 67-1. Vəkilin prosesdə dövlət hesabına iştirakı**

67-1.1. Bu Məcəllə ilə vəkilin prosesdə məcburi iştirakı tələb olunduğu hallarda işdə iştirak edən şəxslərin vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmadıqda, işdə iştirak edən şəxslərin yazılı müraciəti əsasında məhkəmə aktını qəbul etmiş məhkəmə dövlət hesabına vəkilin prosesdə iştirakını təmin edir.

67-1.2. Birinci və apellyasiya instansiya məhkəmələrində mülki işlər üzrə məhkəmə icraatında maraqlarının təmsil olunması və prosessual hüquqlarının həyata keçirilməsi məqsədilə peşəkar hüquqi yardıma ehtiyacı olan, lakin kifayət qədər vəsaiti olmayan şəxsin dövlət hesabına vəkil ilə təmin olunması məsələsini məhkəmə həll edir. Bu işlərə, məhkəməyə müraciət etmək üçün hüquqi yardıma ehtiyacı olan, lakin kifayət qədər vəsaiti olmayan şəxsin müraciətinə əsasən vəkil qurumunun ərizəsi əsasında həmin qurumun

yerləşdiyi yer üzrə rayon (şəhər) məhkəməsi, məhkəmə icraatı zamanı isə işdə iştirak edən şəxsin yazılı müraciəti əsasında işə baxan məhkəmə tərəfindən baxılır.

67-1.3. Bu Məcəllənin 67-1.1-ci maddəsində nəzərdə tutulmuş hallarda məhkəmə bu Məcəllənin 67-1.4-cü maddəsində göstərilən şəxslərin, habelə vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan işdə iştirak edən digər şəxslərin vəkil tərəfindən göstərilən hüquqi yardım haqqını ödəməkdən azad edilməsi və ödəmənin Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilməsi və ya bundan imtina barədə əsaslandırılmış qərardad qəbul edir.

67-1.4. Bu Məcəllənin 67-1.2-ci maddəsində nəzərdə tutulmuş hallarda məhkəmə iddia tələbinin kifayət qədər əsaslılığına dair ilkin sübutların mövcudluğunu nəzərə alaraq, aşağıdakı şəxslərin vəkil tərəfindən göstərilən hüquqi yardım haqqını ödəməkdən azad edilməsi və ödəmənin Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilməsi və ya bundan imtina barədə əsaslandırılmış qərardad qəbul edir:

67-1.4.1. orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş və işləməyən, eləcə də 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər;

67-1.4.2. insan alverinin qurbanları, məişət zorakılığından zərər çəkmiş şəxslər;

67-1.4.3. valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olunmuş uşaqlar;

67-1.4.4. ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri;

67-1.4.5. müvafiq icra hakimiyyəti orqanında işsiz kimi qeydiyyatda olan şəxslər;

67-1.4.6. maddi vəziyyəti və orta aylıq gəlirinin cari il üçün yaşayış minimumundan əhəmiyyətli dərəcədə aşağı olması məhkəmə tərəfindən qiymətləndirilən digər şəxslər.

67-1.5. Məhkəmə bu Məcəllənin 67-1.4-cü maddəsində nəzərdə tutulmuş şəxslərin müraciətinə əsasən vəkil qurumunun ərizəsinə daxil olduğu vaxtdan 15 gün müddətində, müraciət müvəqqəti təminat tədbirlərinin tətbiqi ilə bağlı olduqda isə təxirə salınmadan baxır. Ərizəyə baxılmasının nəticəsi barədə qərardaddan bu Məcəllə ilə müəyyən edilmiş qaydada şikayət verilə bilər.

67-1.6. Məhkəmə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məbləğdə ödənilmiş vəsaitin iddianın təmin edilmiş hissəsinə mütənasib olaraq əleyhinə məhkəmə qərarı çıxarılmış digər şəxsdən tutularaq dövlət büdcəsinə ödənilməsini iş üzrə yekun qərarında qət edə bilər.”.

4. 121-ci maddə üzrə:

4.1. 121.1-ci maddədə “çıxış üçün təqdim olunmuş hesab nəzərə alınmaqla” sözləri “təqdim edilmiş məlumatlar qiymətləndirilməklə” sözləri ilə əvəz edilsin;

4.2. 121.2-ci maddə ləğv edilsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 9 iyun 2023-cü il

§

**“Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 904-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli 265 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 904-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 67-1.6-cı maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

1.2. həmin Məcəllənin 67-1.4.5-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. dövlət hesabına göstərilən hüquqi yardıma görə vəkilə ödənilən haqqın məbləğinin dəyişdirilməsi zərurətini öyrənsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 904-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına tövsiyə edilsin ki, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 904-VIQD nömrəli Qanunundan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

4. "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli 265 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 44; 2002, № 8, maddə 478; 2006, № 8, maddə 677, № 12, maddə 1034; 2007, № 3, maddə 226; 2009, № 6, maddə 414; 2011, № 11, maddə 1009; 2016, № 3, maddə 471, № 6, maddə 1045; 2017, № 3, maddə 352, № 4, maddə 551, № 8, maddə 1517; 2018, № 11, maddə 2261; 2019, № 6, maddə 1030, № 12, maddə 1931; 2020, № 11, maddə 1358; 2021, № 7, maddə 737; 2022, № 5, maddə 476; 2023, № 1, maddələr 85, 98; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 iyun tarixli 2166 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-1-ci bənddə "118.2-ci maddəsində" sözləri "67-1.6-cı və 118.2-ci maddələrində" sözləri ilə əvəz edilsin;

4.2. 2.6-cı bəndə "Məcəllənin" sözündən sonra "67-1.4.5-ci," sözləri əlavə edilsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 26 iyul 2023-cü il

§

## Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 10, maddə

762, № 12, maddə 973; 2010, № 7, maddə 587; 2011, № 6, maddə 485, № 7, maddə 593; 2012, № 5, maddə 410; 2013, № 1, maddə 16, № 11, maddə 1267; 2016, № 1, maddə 12; 2017, № 4, maddə 522, № 5, maddə 752, № 11, maddə 1976; 2018, № 5, maddələr 855, 878, № 7 (I kitab), maddə 1440; 2019, № 1, maddə 23, № 7, maddə 1199, № 12, maddə 1899; 2020, № 6, maddə 669; 2021, № 7, maddələr 711, 715; 2022, № 6, maddə 591, № 7, maddə 703; 2023, № 2, maddə 199, № 4, maddə 445) aşağıdakı dəyişikliklər edilsin:

1. 2.2.9-cu, 131.1-ci, 132.1-ci və 132.2-ci maddələrdə ismin müvafiq hallarında "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "Azərbaycan Respublikasının Mərkəzi Bankı" sözləri ilə əvəz edilsin.

2. 19-cu fəslin (hər iki halda), 131-ci və 132-ci maddələrin adlarında, 131.2-ci maddənin ikinci cümləsində ismin müvafiq hallarında "Maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "Azərbaycan Respublikasının Mərkəzi Bankı" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 6 iyul 2023-cü il

§

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə 323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761; 2005, № 4, maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə 1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, № 5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 2011, № 6, maddələr 471, 476, № 7, maddələr 583, 619, № 12, maddələr 1096, 1105; 2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 2015, № 6, maddə 677, № 12, maddə 1435; 2016, № 5, maddə 836, № 6, maddə 1016, № 11, maddələr

1761, 1763, № 12, maddə 2047; 2017, № 2, maddə 155, № 4, maddə 523, № 5, maddələr 706, 750, № 11, maddələr 1935, 1975; 2018, № 5, maddə 879, № 8, maddə 1672, № 11, maddələr 2209, 2225, № 12 (I kitab), maddələr 2524, 2534; 2019, № 1, maddə 23, № 5, maddələr 792, 812, № 7, maddə 1197, № 12, maddələr 1897, 1907; 2020, № 7, maddə 832, № 11, maddə 1333; 2021, № 4, maddə 309, № 7, maddələr 711, 713, № 8, maddə 894, № 12, maddə 1346; 2022, № 6, maddə 580, № 8, maddə 828; 2023, № 1, maddələr 19, 23, 40, № 2, maddə 200; Azərbaycan Respublikasının 2023-cü il 2 may tarixli 867-VIQD nömrəli Qanunu) 355-16-cı maddəsində, 355-17.2-ci maddəsinin birinci cümləsində, 355-17.5-ci və 355-19.1-ci maddələrində ismin müvafiq hallarında "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "Azərbaycan Respublikasının Mərkəzi Bankı" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 6 iyul 2023-cü il

§

## Dövlət orqanları (qurumları) arasında sənəd mübadiləsinin elektronlaşdırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dövlət orqanlarında (qurumlarında) kargüzarlığın aparılması sahəsində qabaqcıl informasiya və kommunikasiya texnologiyalarından istifadə olunmaqla "kağızsız hökumət"ə keçid prosesinin sürətləndirilməsi və rəqəmsal idarəçiliyin tətbiq edilməsi məqsədilə **qərara alıram:**

1. Elektron Hökumət İnformasiya Sisteminin infrastrukturunda dövlət orqanlarının (qurumlarının) elektron sənəd dövriyyəsi sistemləri arasında real vaxt rejimində və təhlükəsiz qaydada sənəd mübadiləsinin aparılması ilə bağlı inteqrasiyanın və sənədlərin hərəkəti üzrə uçotun həyata keçirilməsini təmin edən Rəqəmsal Sənəd Dövriyyəsi altsistemi (bundan sonra – altsistem) yaradılsın.

2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi altsistemin 2023-cü il sentyabrın 1-dək formalaşdırılmasını təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. idarələrarası elektron sənəd dövriyyəsi sistemi ilə bağlı təkliflərini dörd ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. altsistemin, bu Fərmanın 6-cı hissəsinə əsasən yaradılacaq elektron sənəd dövriyyəsi sistemlərinin formalaşdırılması, aparılması və saxlanılması ilə əlaqədar xərclərin cari ildə dövlət büdcəsində nəzərdə tutulmuş vəsait çərçivəsində maliyyələşdirilməsi üçün, növbəti illərdə isə dövlət büdcəsi layihələrində müvafiq vəsaitin nəzərdə tutulması üçün tədbirlər görsün;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinə tapşırılsın və Azərbaycan Respublikasının Milli Məclisinə, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə, Azərbaycan Respublikasının Ali Məhkəməsinə, Azərbaycan Respublikasının Baş Prokurorluğuna, Azərbaycan Respublikasının Mərkəzi Bankına, Azərbaycan Respublikasının Hesablama Palatasına, Azərbaycan Respublikası İnsan Hüquqları üzrə müvəkkilinin (ombudsmanın) Aparatına, Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının Aparatına, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Katibliyinə, Azərbaycan Respublikası Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının Katibliyinə, Azərbaycan Respublikası Audiovizual Şurasının Aparatına, Azərbaycan Kredit Bürosuna, İcbari Sığorta Bürosuna tövsiyə edilsin ki, altsistem formalaşdırıldıqdan sonra elektron sənəd dövriyyəsi sistemlərini altsistemə inteqrasiya etməklə digər dövlət orqanları (qurumları) ilə sənəd mübadiləsinin həmin altsistem üzərindən aparılmasını təmin etsinlər.

5. Mərkəzi icra hakimiyyəti orqanları 2023-cü il noyabrın 1-dək, yerli icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər 2024-cü il avqustun 1-dək mövcud elektron sənəd dövriyyəsi sistemlərini altsistemə inteqrasiya etməklə digər dövlət orqanları (qurumları) ilə sənəd mübadiləsinin həmin altsistem üzərindən aparılmasını təmin etsinlər.

6. Elektron sənəd dövriyyəsi sistemləri mövcud olmayan dövlət orqanları (qurumları) altı ay müddətində elektron sənəd dövriyyəsi sistemlərinin yaradılması ilə bağlı tədbirlər görsünlər.

7. Dövlət orqanları (qurumları) bu Fərmanın 5-ci və 6-cı hissələrində nəzərdə tutulan tədbirləri Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”na uyğun olaraq, texniki və səmərəlilik baxımından məqsədəuyğunluğu haqqında Azərbaycan

Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəyi nəzərə alınmaqla həyata keçirsinlər.

8. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti:

8.1. dövlət orqanlarının (qurumlarının) elektron sənəd dövriyyəsi sistemlərinin altsistemə qoşulması üçün onları mühafizə olunan telekommunikasiya kanalları ilə təmin etsin;

8.2. dövlət orqanlarının (qurumlarının) elektron sənəd dövriyyəsi sistemlərinin altsistemə inteqrasiyası üçün onların informasiya təhlükəsizliyi tələblərinə cavab verməsi ilə bağlı rəy versin;

8.3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə altsistemin informasiya təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görsün.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 1 avqust 2023-cü il

§

## Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi və bəzi birinci instansiya məhkəmələri hakimlərinin vəzifələrinin dəyişdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (Çıxarış)

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu bəndini rəhbər tutaraq qərara alıram:

1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü və 96-cı maddələrinə uyğun olaraq, hakim vəzifəsinə aşağıdakı namizədlər birinci instansiya məhkəmələrinin hakimləri təyin edilsinlər:

...

inzibati məhkəmələr üzrə:

Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsi

Əliyev Tural Yusif oğlu

...

2. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq aşağıdakı hakimlərin vəzifələri dəyişdirilsin:

...

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 11 oktyabr 2023-cü il

§

**Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 iyun tarixli 1043 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron məhkəmə" informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 2 dekabr tarixli 665-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 iyun tarixli 1043 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 685; 2022, № 5, maddə 444; 2023, № 2, maddə 241) ilə təsdiq edilmiş "Elektron məhkəmə" informasiya sistemi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 11.2.21-1-ci yarımbənd əlavə edilsin:

"11.2.21-1. icra sənədinin tərtib edilməsi üçün tələbkar və borclu şəxslər barədə "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 7.1.4-cü maddəsində nəzərdə tutulmuş məlumatlar;".

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 11 noyabr 2023-cü il*



# MƏHKƏMƏ FƏALİYYƏTİ

***MÜLKİ KOLLEGİYADAN***

## Məhkəmə fəaliyyətinə dair 2023-cü ilin birinci yarısının yekunları üzrə statistik məlumatların təhlili

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən 2023-cü ilin birinci yarısında 1856 mülki işə baxılmaqla nəticə verilmişdir. 2022-ci ilin birinci yarısında isə həmin məhkəmələr tərəfindən 1301 mülki işə baxılmışdır. Bu onu göstərir ki, baxılan mülki işlərin sayı 2022-ci ilin birinci yarısı ilə müqayisədə 2023-cü ilin birinci yarısında 42,66% artmışdır.

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələrinin mülki işlər üzrə çıxardıqları qətnamə və qərardadlardan verilmiş apellyasiya şikayətləri üzrə 2023-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasında 63 apellyasiya şikayətinə baxılıb nəticə verilmişdir.

Apellyasiya şikayətləri ilə bağlı 63 mülki işdən 60 işə apellyasiya qaydasında baxılaraq 34 qətnamə və 10 qərardad dəyişdirilmədən saxlanılmış, 4 qətnamə dəyişdirilmiş, 8 qətnamə və 4 qərardad isə ləğv edilmişdir.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 369-cu maddəsində göstərilən əsasla 3 apellyasiya şikayətinin icraatına isə xitam verilmişdir.

Apellyasiya şikayəti ilə əlaqədar kollegiyada baxılıb nəticə verilmiş işləri mülki hüquq münasibətlərinin mahiyyətinə görə təsnif etdikdə bu işlər üzrə göstəricilər aşağıdakı qaydada müəyyən olunur:

- ailə münasibətləri üzrə mübahisələr – 17 iş
- mənzil mübahisələri – 5 iş
- torpaq mübahisələri üzrə – 4 iş
- müqavilənin bağlanması, dəyişdirilməsi və ləğv edilməsi, etibarsız hesab edilməsi, məcburi bağlanması üzrə mübahisələr – 1 iş
- müqavilələrdən əmələ gələn öhdəliklər üzrə mübahisələr – 20 iş

- mülki hüquq pozuntularından (deliktlərdən) əmələ gələn öhdəliklər üzrə mübahisələr – 1 iş
- vərəsəlik hüququ üzrə mübahisələr – 4 iş
- xüsusi icraat işləri üzrə – 1 iş
- sair mülki işlər – 7 iş

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən 2023-cü ilin birinci yarısında baxılmış mülki işlər üzrə çıxarılan qərarlardan verilmiş apellyasiya şikayətləri üzrə məhkəmə təcrübəsinin təhlili göstərir ki, 2022-ci ilin birinci yarısı ilə müqayisədə 2023-cü ilin birinci yarısında apellyasiya şikayətlərinin sayı 1,61% artmışdır. Belə ki, 2022-ci ilin birinci yarısında birinci instansiya məhkəmələri tərəfindən mülki işlər üzrə qəbul edilmiş qərarlardan verilmiş apellyasiya şikayətləri üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasında 62 apellyasiya şikayətinə baxılmışdır.

Qəbul edilmiş qərarların sabitliyi üzrə göstərici 2022-ci ilin birinci yarısı ilə müqayisədə 2023-cü ilin birinci yarısında yuxarı olmuşdur. Belə ki, 2023-cü ilin birinci yarısında rayon (şəhər) məhkəmələri tərəfindən qəbul edilən 1856 qətnamə və qərardaddan 0,86%-i apellyasiya qaydasında dəyişdirilmiş və yaxud ləğv edilmişdirsə, 2022-ci ilin birinci yarısında məhkəmələrin baxdığı işlər üzrə çıxarılan 1301 qətnamə və qərardaddan 1,61%-i dəyişdirilmiş və yaxud ləğv edilmişdir. Bu isə o deməkdir ki, məhkəmə qərarlarının sabitlik göstəricisi 2022-ci ilin birinci yarısında 98,39% 2023-cü ilin birinci yarısında isə 99,14% təşkil etmişdir.

Statistik məlumatlara görə kollegiya tərəfindən 2023-cü ilin birinci yarısında apellyasiya qaydasında baxılan qərarların 26,67%-nin ləğv edilməsinə və yaxud dəyişdirilməsinə həmin işlərə baxılarkən birinci instansiya məhkəmələri tərəfindən maddi və prosessual hüquq normalarının tələblərinin pozulması və məhkəmənin gəldiyi nəticə üçün mühüm əhəmiyyəti olan bütün halların aydınlaşdırılmaması səbəb olmuşdur.

Apellyasiya baxışının nəticələrinə görə muxtar respublikanın ayrı-ayrı məhkəmələri üzrə 2022 və 2023-cü illərin birinci yarımilinə dair göstəricilər aşağıdakı cədvəllərdə göstərildiyi kimi olmuşdur.

2022-ci ilin birinci yarısında apellyasiya qaydasında baxılan işlər üzrə məlumat:

| Məhkəmənin adı | Cəmi baxılıb | Ap.şik icr. xit.verilib | Q ə t n a m ə l ə r | | | | | Qərardadlar | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Dəyişdirilmədən saxlanılıb | Dəyişdirilmişdir | Ləğv edilərək | | | Ləğv edilmişdir | Qüvvədə saxlanılmışdır |
| | | | | | Yeni qətnamə çıxarılıb | Ərizə baxılmamış saxl | İş.ic.xit ver. | | |
| Naxçıvan | 22 | 2 | 13 | | 3 | | 2 | | 2 |
| Babək | 6 | 1 | 1 | 2 | 1 | | | | 1 |
| Şərur | 16 | 1 | 4 | 1 | 1 | 2 | 2 | | 5 |
| Şahbuz | 8 | | 4 | 1 | | | 1 | 1 | 1 |
| Kəngərli | 1 | | 1 | | | | | | |
| Culfa | 5 | 1 | 3 | | 1 | | | | |
| Ordubad | 4 | | | 1 | 1 | 1 | | | 1 |
| YEKUN | 62 | 5 | 26 | 5 | 7 | 3 | 5 | 1 | 10 |

2023-cü ilin birinci yarısında apellyasiya qaydasında baxılan işlər üzrə məlumat:

| Məhkəmənin adı | Cəmi baxılıb | Ap.şik icr. xit.verilib | Q ə t n a m ə l ə r | | | | | Qərardadlar | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Dəyişdirilmədən saxlanılıb | Dəyişdirilmişdir | Ləğv edilərək | | | Ləğv edilmişdir | Qüvvədə saxlanılmışdır |
| | | | | | Yeni qətnamə çıxarılıb | Ərizə baxılmamış saxl | İş.ic.xit ver. | | |
| Naxçıvan | 31 | 2 | 18 | 1 | 2 | 1 | | 1 | 6 |
| Babək | 6 | 1 | 1 | 1 | 1 | | | | 2 |
| Şərur | 13 | | 8 | 2 | 2 | | | 1 | |
| Şahbuz | 3 | | 1 | | | | 1 | | 1 |
| Kəngərli | 3 | | 1 | | | | | 1 | 1 |
| Culfa | 2 | | 2 | | | | | | |
| Ordubad | 4 | | 2 | | 1 | | | 1 | |
| Sədərək | 1 | | 1 | | | | | | |
| YEKUN | 63 | 3 | 34 | 4 | 6 | 1 | 1 | 4 | 10 |

Apellyasiya qaydasında 2023-cü ilin birinci yarısında ləğv edilmiş və yaxud dəyişdirilmiş məhkəmə qərarları üzrə ayrı-ayrı məhkəmələrin göstəricilərini bir-biri ilə, eləcə də həmin məhkəmələr tərəfindən çıxarılmış qətnamə və qərardadların ümumi sayı ilə müqayisə etdikdə müəyyən olur ki, qətnamə və qərardadların sabitliyi üzrə ən aşağı göstəriciyə Ordubad Rayon Məhkəməsi, ən yüksək göstəriciyə isə Sədərək və Culfa rayon məhkəmələri malikdir. Belə ki, 2023-cü ilin birinci yarısında *Ordubad Rayon Məhkəməsində* çıxarılan 104 qərardan 1 qətnamə və 1 qərardad, yəni həmin dövr ərzində çıxarılan qərarların 1,92%-i ləğv edildiyinə görə məhkəmə qərarlarının sabitliyi üzrə göstərici 98,08% olduğu halda, *Culfa və Sədərək rayon məhkəmələrinin* qətnamə və qərardadlarının sabitliyi üzrə göstərici 100% təşkil etmişdir. Çünki həmin dövrdə *Sədərək Rayon Məhkəməsi* tərəfindən çıxarılmış 53, *Culfa Rayon Məhkəməsi* tərəfindən çıxarılmış 159 qətnamə və qərardaddan ləğv edilən və ya dəyişdirilən olmamışdır.

*Babək Rayon Məhkəməsi* tərəfindən 2023-cü ilin birinci yarısında çıxarılan 269 qətnamə və qərardaddan 2 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 0,74%-i ləğv edilmiş və ya dəyişdirilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 99,26% təşkil etmişdir.

*Kəngərli Rayon Məhkəməsi* tərəfindən 2023-cü ilin birinci yarısında çıxarılan 136 qətnamə və qərardaddan 1 qərardad, yəni həmin dövr ərzində çıxarılan qərarların 0,74%-i ləğv edilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 99,26% təşkil etmişdir.

*Şahbuz Rayon Məhkəməsi* tərəfindən 2023-cü ilin birinci yarısında çıxarılan 124 qətnamə və qərardaddan 1 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 0,81%-i ləğv edilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 99,19% təşkil etmişdir.

*Naxçıvan Şəhər Məhkəməsi* tərəfindən 2023-cü ilin birinci yarısında çıxarılan 524 qətnamə və qərardaddan 4 qətnamə və 1 qərardad, yəni həmin dövr ərzində çıxarılan qərarların 0,95%-i ləğv edilmiş və ya dəyişdirilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 99,05% təşkil etmişdir.

*Şərur Rayon Məhkəməsi* tərəfindən 2023-cü ilin birinci yarısında çıxarılan 487 qətnamə və qərardaddan 4 qətnamə və 1 qərardad, yəni həmin dövr ərzində çıxarılan qərarların 1,03%-i ləğv edilmiş və ya dəyişdirilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 98,97% təşkil etmişdir.

2022-ci ilin birinci yarısında isə baxılmış işlər üzrə qəbul edilmiş qətnamə və qərardadların sabitlik göstəriciləri aşağıdakı kimi olmuşdur:

- *Sədərək Rayon Məhkəməsi* – 100% (50 qətnamə və qərardaddan apellyasiya şikayəti verilməmişdir );

- *Kəngərli Rayon Məhkəməsi* – 100% (98 qətnamə və qərardaddan ləğv edilən və ya dəyişdirilən olmamışdır);
- *Culfa Rayon Məhkəməsi* – 98,82% (85 qətnamə və qərardaddan 1 qətnamə, yəni 1,18%-i ləğv edilmişdir);
- *Naxçıvan Şəhər Məhkəməsi* – 98,77% (407 qətnamə və qərardaddan 5 qətnamə, yəni 1,23%-i ləğv edilmişdir);
- *Babək Rayon Məhkəməsi* – 98,56% (208 qətnamə və qərardaddan 3 qətnamə, yəni 1,44%-i ləğv edilmiş və ya dəyişdirilmişdir);
- *Şərur Rayon Məhkəməsi* – 97,79% (271 qətnamə və qərardaddan 6 qətnamə, yəni 2,21%-i ləğv edilmiş və ya dəyişdirilmişdir);
- *Şahbuz Rayon Məhkəməsi* – 96,74% (92 qətnamə və qərardaddan 2 qətnamə və 1 qərardad, yəni 3,26%-i ləğv edilmiş və ya dəyişdirilmişdir);
- *Ordubad Rayon Məhkəməsi* – 96,67% (90 qətnamə və qərardaddan 3 qətnamə, yəni 3,33%-i ləğv edilmiş və ya dəyişdirilmişdir)

Qətnamə və qərardadların sabitliyi üzrə 2022 və 2023-cü illərin birinci yarımilinə dair göstəricilərin müqayisəsi onu göstərir ki, Kəngərli Rayon Məhkəməsinin sabitlik göstəricisi 2022-ci ilin birinci yarısı ilə müqayisədə aşağı düşmüş, Naxçıvan şəhər, Babək, Şahbuz, Şərur, Culfa və Ordubad rayon məhkəmələrinin qətnamə və qərardadlarının sabitlik göstəricisi yüksəlmiş, Sədərək Rayon Məhkəməsinin qətnamə və qərardadlarının sabitlik göstəricisi isə dəyişməmişdir.

Qətnamə və qərardadların sabitlik göstəricisi, yəni buraxılan məhkəmə səhvlərinin həcmi bir çox amillərlə yanaşı, həm də məhkəmələrin üzərinə düşən iş yükündən də asılı olmuşdur.

Muxtar respublika məhkəmələrinin mülki mühakimə icraatı üzrə iş yükünə görə təsnif etdikdə müəyyən olunur ki, 2022-ci ilin birinci yarısında olduğu kimi 2023-cü ilin birinci yarısında da ən çox mülki işə Naxçıvan Şəhər Məhkəməsində baxılmışdır. Belə ki, bu məhkəmədə 2022-ci ilin birinci yarısında 407 mülki işə, 2023-cü ilin birinci yarısında isə 524 mülki işə baxılmışdır.

Digər məhkəmələr üzrə iş yükü aşağıdakı kimi olmuşdur:

- *Şərur Rayon Məhkəməsi* – 487 iş (2022-ci ilin birinci yarısında 271 işə baxılmışdır);
- *Babək Rayon Məhkəməsi* – 269 iş (2022-ci ilin birinci yarısında 208 işə baxılmışdır);
- *Culfa Rayon Məhkəməsi* – 159 iş (2022-ci ilin birinci yarısında 85 işə baxılmışdır);

- *Kəngərli Rayon Məhkəməsi* – 136 iş (2022-ci ilin birinci yarısında 98 işə baxılmışdır);
- *Şahbuz Rayon Məhkəməsi* – 124 iş (2022-ci ilin birinci yarısında 92 işə baxılmışdır);
- *Ordubad Rayon Məhkəməsi* – 104 iş (2022-ci ilin birinci yarısında 90 işə baxılmışdır);
- *Sədərək Rayon Məhkəməsi* – 53 iş (2022-ci ilin birinci yarısında 50 işə baxılmışdır).

Göründüyü kimi 2022-ci ilin birinci yarısı ilə müqayisədə 2023-cü ilin birinci yarısında muxtar respublika məhkəmələrində mülki mühakimə icraatı üzrə iş yükü artmışdır.

*Məhkəmələr üzrə "nikahın ləğvi" tələbinə dair işlər üzrə isə statistik göstəricilər aşağıdakı kimi olmuşdur:*

**Naxçıvan Şəhər Məhkəməsi üzrə** - 2022-ci ildən 2023-cü ilə 66 iş qalıq qalmış, 2023-cü ilin birinci yarısında 88 mülki iş, ümumilikdə 154 mülki iş icraata daxil olmuşdur. 66 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 16 qərardad çıxarılmaqla 4 iş üzrə iddia baxılmamış saxlanılmış, 12 iş üzrə icraata xitam verilmişdir. 18 mülki iş üzrə ərizə geri qaytarılmış, 54 iş 2023-cü ilin ikinci yarısına qalıq qalmışdır.

**Şərur Rayon Məhkəməsi üzrə** - 2022-ci ildən 2023-cü ilə 75 iş qalıq qalmış, 2023-cü ilin birinci yarısında 67 mülki iş, ümumilikdə 142 mülki iş icraata daxil olmuşdur. 65 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 14 qərardad çıxarılmaqla 8 iş üzrə iddia baxılmamış saxlanılmış, 6 iş üzrə icraata xitam verilmişdir. 8 mülki iş üzrə ərizə geri qaytarılmış, 55 iş 2023-cü ilin ikinci yarısına qalıq qalmışdır.

**Babək Rayon Məhkəməsi üzrə** - 2022-ci ildən 2023-cü ilə 29 iş qalıq qalmış, 2023-cü ilin birinci yarısında 55 mülki iş, ümumilikdə 84 mülki iş icraata daxil olmuşdur. 33 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 13 qərardad çıxarılmaqla 4 iş üzrə iddia baxılmamış saxlanılmış, 9 iş üzrə icraata xitam verilmişdir. 5 mülki iş üzrə ərizə geri qaytarılmış, 33 iş 2023-cü ilin ikinci yarısına qalıq qalmışdır.

**Culfa Rayon Məhkəməsi üzrə** - 2022-ci ildən 2023-cü ilə 23 iş qalıq qalmış, 2023-cü ilin birinci yarısında 21 mülki iş, ümumilikdə 44 mülki iş icraata daxil olmuşdur. 25 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 3 qərardad çıxarılmaqla 3 iş üzrə icraata xitam verilmişdir. 1 mülki iş üzrə ərizə geri qaytarılmış, 15 iş 2023-cü ilin ikinci yarısına qalıq qalmışdır.

**Kəngərli Rayon Məhkəməsi üzrə** - 2022-ci ildən 2023-cü ilə 17 iş qalıq qalmış, 2023-cü ilin birinci yarısında 21 mülki iş, ümumilikdə 38 mülki iş icraata daxil olmuşdur. 14 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 6 qərardad çıxarılmaqla 1 iş üzrə iddia baxılmamış saxlanılmış, 5 iş üzrə icraata xitam verilmişdir. 1 mülki iş üzrə ərizə geri qaytarılmış, 17 iş 2023-cü ilin ikinci yarısına qalıq qalmışdır.

**Ordubad Rayon Məhkəməsi üzrə** - 2022-ci ildən 2023-cü ilə 17 iş qalıq qalmış, 2023-cü ilin birinci yarısında 19 mülki iş, ümumilikdə 36 mülki iş icraata daxil olmuşdur. 23 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 2 qərardad çıxarılmaqla 1 iş üzrə iddia baxılmamış saxlanılmış, 1 iş üzrə icraata xitam verilmişdir. 1 mülki iş üzrə ərizə geri qaytarılmış, 10 iş 2023-cü ilin ikinci yarısına qalıq qalmışdır.

**Şahbuz Rayon Məhkəməsi üzrə** - 2022-ci ildən 2023-cü ilə 16 iş qalıq qalmış, 2023-cü ilin birinci yarısında 17 mülki iş, ümumilikdə 33 mülki iş icraata daxil olmuşdur. 11 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 9 qərardad çıxarılmaqla 3 iş üzrə iddia baxılmamış saxlanılmış, 6 iş üzrə icraata xitam verilmişdir. 2 mülki iş üzrə ərizə geri qaytarılmış, 11 iş 2023-cü ilin ikinci yarısına qalıq qalmışdır.

**Sədərək Rayon Məhkəməsi üzrə** - 2022-ci ildən 2023-cü ilə 4 iş qalıq qalmış, 2023-cü ilin birinci yarısında 10 mülki iş, ümumilikdə 14 mülki iş icraata daxil olmuşdur. 4 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 1 qərardad çıxarılmaqla 1 iş üzrə icraata xitam verilmişdir. 1 mülki iş üzrə ərizə geri qaytarılmış, 8 iş 2023-cü ilin ikinci yarısına qalıq qalmışdır.

2023-cü ilin birinci yarısında məhkəmələr tərəfindən “nikahın ləğvi” tələbinə dair 43 iş (14,10%) üzrə icraata tərəflərin barışması səbəbindən xitam verilmişdir. Xitam verilmiş işlər üzrə məhkəmələrin göstəriciləri aşağıdakı kimi olmuşdur:

- Şahbuz Rayon Məhkəməsi - 30% (20 işdən 6 işin icraatına xitam verilib);
- Kəngərli Rayon Məhkəməsi - 25% (20 işdən 5 işin icraatına xitam verilib);
- Sədərək Rayon Məhkəməsi - 20% (5 işdən 1 işin icraatına xitam verilib).
- Babək Rayon Məhkəməsi - 19,57% (46 işdən 9 işin icraatına xitam verilib);
- Naxçıvan Şəhər Məhkəməsi - 14,63% (82 işdən 12 işin icraatına xitam verilib);

- Culfa Rayon Məhkəməsi - 10,71% (28 işdən 3 işin icraatına xitam verilib);
- Şərur Rayon Məhkəməsi - 7,59% (79 işdən 6 işin icraatına xitam verilib).
- Ordubad Rayon Məhkəməsi - 4% (25 işdən 1 işin icraatına xitam verilib);

2023-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasında baxılan mülki işlər üzrə qəbul olunmuş qətnamə və qərardadlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin mülki kollegiyasına 14 kassasiya şikayəti verilmiş, onlardan 13 kassasiya şikayətinə baxılaraq 11 qətnamə dəyişdirilmədən saxlanılmış, 1 qətnamə və 1 qərardad ləğv edilmiş, 1 qətnamədən verilmiş kassasiya şikayəti isə hazırda Azərbaycan Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının icraatında baxılmaqdadır.

Beləliklə, 2023-cü ilin birinci yarısında qəbul edilən qərarlar üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının sabitlik göstəricisi 85,71 % təşkil etmişdir.

≈≈≈≈≈≈≈≈≈
≈≈≈≈≈≈
≈≈≈

***KOMMERSİYA KOLLEGİYASINDAN***

## Məhkəmə fəaliyyətinə dair 2023-cü ilin birinci yarısı üzrə statistik məlumatların təhlili

2023-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsinin icraatında ümumilikdə 106 kommersiya mübahisələrinə dair iş olmuş, onlardan 9 iş 2022-ci ildən cari ilə qalıq qalmış, 97 iş isə 2023-cü ilin birinci yarısında daxil olmuşdur.

Kommersiya mübahisələri üzrə işlərdən 17 işə mahiyyəti üzrə baxılmaqla 14 iş üzrə iddia təmin edilmiş, 1 iş üzrə iddia rədd edilmiş, 2 iş üzrə iddia baxılmamış saxlanılmışdır. 59 iş üzrə iddia ərizəsi geri qaytarılmış, 30 kommersiya mübahisələri üzrə iş isə 2023-cü ilin ikinci yarısına qalıq qalmışdır.

2022-ci ilin birinci yarısı ilə müqayisədə 2023-cü ilin birinci yarısında Kommersiya Məhkəməsinin icraatına daxil olan kommersiya mübahisələrinə dair işlərin sayı 2 dəfə artmışdır. Belə ki, 2022-ci ilin birinci yarısında həmin məhkəmənin icraatına 53 iş daxil olmuşdur.

Məhkəmə təcrübəsinin təhlili göstərir ki, Kommersiya Məhkəməsinə 2023-cü ilin birinci yarısında daxil olan işlərin böyük əksəriyyətini hüquqi şəxslər və fərdi sahibkarlıq fəaliyyəti subyektləri arasında yaranan mübahisələr üzrə (50 iş - 47,17%) və vergi ödəmələri barədə mübahisələr üzrə (37 iş - 34,91%) iddia tələbinə dair işlər təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsinin çıxardığı qətnamə və qərardadlardan verilmiş apellyasiya şikayətləri üzrə 2023-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kommersiya kollegiyasında 9 işə baxılaraq 1 qətnamə və 2 qərardad ləğv edilmiş, 6 qərardad dəyişdirilmədən saxlanılmışdır. 2022-ci ilin birinci yarısı (4 iş) ilə müqayisədə 2023-cü ilin birinci yarısında (9 iş) kollegiyada baxılan kommersiya mübahisələrinə dair işlərin sayı artmışdır.

2023-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kommersiya kollegiyasında baxılan kommersiya mübahisələri üzrə qəbul olunmuş qətnamə və qərardadlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin kommersiya kollegiyasına 1 kassasiya şikayəti verilmiş, həmin kassasiya şikayətinə baxılaraq qətnamə dəyişdirilmədən saxlanılmışdır.

Beləliklə, 2023-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kommersiya kollegiyasının sabitlik göstəricisi 100% təşkil etmişdir.

***İNZİBATİ KOLLEGİYADAN***

**Məhkəmə fəaliyyətinə dair 2023-cü ilin birinci yarısı üzrə statistik məlumatların təhlili**

2023-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsinin icraatında ümumilikdə 705 inzibati mübahisələrə dair iş olmuş, onlardan 78 iş 2022-ci ildən cari ilə qalıq qalmış, 627 iş isə 2023-cü ilin birinci yarısında daxil olmuşdur.

İnzibati mübahisələrə dair işlərdən 296 işə mahiyyəti üzrə baxılmaqla 95 iş üzrə iddia tələbi təmin edilmiş, 9 iş üzrə iddia tələbi rədd edilmiş, 192 işin icraatına xitam verilmişdir. 39 iş üzrə iddia mümkünsüz hesab edilmiş, 370 iş isə 2023-cü ilin ikinci yarısına qalıq qalmışdır.

2022-ci ilin birinci yarısı ilə müqayisədə 2023-cü ilin birinci yarısında İnzibati Məhkəmənin icraatına daxil olan işlərin sayı 4 dəfə artmışdır. (2022-ci ilin birinci yarısında 167 iş daxil olmuşdur).

Məhkəmə təcrübəsinin təhlili göstərir ki, İnzibati Məhkəməyə 2023-cü ilin birinci yarısında daxil olan işlərin böyük əksəriyyətini öhdəliyin icrası haqqında (587 iş - 83,26%) və mübahisələndirmə haqqında (77 iş - 10,92%) iddia tələbinə dair işlər təşkil etmişdir.

Naxçıvan MR İnzibati Məhkəməsində baxılan işlər üzrə qəbul olunmuş qərar və qərardadlardan Naxçıvan MR Ali Məhkəməsinin inzibati kollegiyasına 2023-cü ilin birinci yarısında 30 apellyasiya şikayəti verilmiş, onlardan 24 şikayətə baxılaraq 14 iş üzrə 7 qərar və 7 qərardad dəyişdirilmədən saxlanılmış, 4 iş üzrə 1 qərar və 3 qərardad ləğv edilmiş, 2 iş üzrə apellyasiya icraatına xitam verilmiş, 4 iş üzrə apellyasiya mümkün sayılmamış, 6 iş isə 2023-cü ilin ikinci yarısına qalıq qalmışdır.

Müqayisə üçün qeyd edək ki, inzibati mübahisələrə dair işlər üzrə çıxarılan qərarlardan verilmiş apellyasiya şikayətləri üzrə 2022-ci ilin birinci yarısında inzibati kollegiyada 16 apellyasiya şikayətinə baxılmışdır.

2023-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati kollegiyasında baxılan işlər üzrə qəbul olunmuş qərar və qərardadlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati kollegiyasına 4 kassasiya şikayəti verilmiş, həmin kassasiya şikayətlərinə baxılaraq 1 qərar dəyişdirilmədən saxlanılmış, 2 qərar ləğv edilmiş, 1 iş üzrə kassasiya mümkün sayılmamışdır.

Beləliklə, 2023-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati kollegiyasının sabitlik göstəricisi 91,67% təşkil etmişdir.

***CİNAYƏT KOLLEGİYASINDAN***

## Məhkəmə fəaliyyətinə dair 2023-cü ilin birinci yarısı üzrə statistik məlumatların təhlili

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin ərazi yurisdiksiyasına aid olan muxtar respublika məhkəmələri tərəfindən 2023-cü ilin birinci yarısında 91 nəfərin barəsində 80 cinayət işinə mahiyyəti üzrə baxılmışdır. Müqayisə üçün qeyd edək ki, 2022-ci ilin birinci yarısında həmin məhkəmələr tərəfindən 38 nəfərin barəsində 35 cinayət işinə baxılmışdır.

Birinci instansiya məhkəmələri tərəfindən 2023-cü ilin birinci yarısında baxılmış 79 cinayət işi üzrə 90 nəfərin barəsində ittiham hökmü çıxarılmışdır.

*İttiham hökmünün çıxarılması ilə nəticələnən işləri* obyektə görə qruplaşdırdıqda 2022 və 2023-cü illərin birinci yarısına dair göstəricilər aşağıdakı kimi olmuşdur:

| **Cinayətlərin növü** | **2022-ci ilin birinci yarısı üzrə göstəricilər (şəxslərin və işlərin sayı)** | **2023-cü ilin birinci yarısı üzrə göstəricilər (şəxslərin və işlərin sayı)** |
|---|---|---|
| Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı olan cinayətlər | 1 / 1 | 5 / 4 |
| Həyat və sağlamlıq əleyhinə olan cinayətlər | 7 / 7 | 3 / 3 |
| İdarəetmə qaydası əleyhinə olan cinayətlər | - | 2 / 2 |
| Mülkiyyət əleyhinə olan cinayətlər | 9 / 8 | 32 / 22 |
| İqtisadi fəaliyyət sahəsində olan cinayətlər | 2 / 2 | 20 / 20 |
| Ədalət mühakiməsi əleyhinə olan cinayətlər | 2 / 2 | 1 / 1 |
| Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlər | 2 / 2 | 6 / 6 |
| Hərbi xidmət əleyhinə olan cinayətlər | 15 / 13 | 14 / 14 |
| İnsan və vətəndaşın konstitusiya hüququ və azadlıqları əleyhinə olan cinayətlər | - | 1 / 1 |

| | | |
|---|---|---|
| İctimai təhlükəsizlik əleyhinə olan cinayətlər | - | 5 / 5 |
| İctimai mənəviyyat əleyhinə olan cinayətlər | - | 1 / 1 |

Cədvəldən göründüyü kimi 2022-ci ilin birinci yarısından fərqli olaraq 2023-cü ilin birinci yarısında, hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə, hərbi xidmət əleyhinə, mülkiyyət əleyhinə, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı və iqtisadi fəaliyyət sahəsində olan cinayətlər artmış, həyat və sağlamlıq əleyhinə və ədalət mühakiməsi əleyhinə olan cinayətlər azalmışdır. 2022-ci ilin birinci yarısından fərqli olaraq 2023-cü ilin birinci yarısında insan və vətəndaşın konstitusiya hüququ və azadlıqları əleyhinə, idarəetmə qaydası əleyhinə, ictimai təhlükəsizlik əleyhinə və ictimai mənəviyyat əleyhinə olan cinayətlərə dair işlər daxil olmuşdur.

2022 və 2023-cü illərin birinci yarısında məhkumlara təyin olunan cəzalar aşağıdakı kimi olmuşdur:

| **Təyin olunan əsas cəzaların növləri** | **2022-ci ilin birinci yarısı üzrə məhkumların sayı** | **2023-cü ilin birinci yarısı üzrə məhkumların sayı** |
|---|---|---|
| Cərimə | 2 nəfər | 19 nəfər |
| Hərbi xidmət üzrə məhdudlaşdırma | 1 nəfər | 7 nəfər |
| Azadlığın məhdudlaşdırılması | 1 nəfər | 18 nəfər |
| İntizam xarakterli hərbi hissədə saxlama | - | 2 nəfər |
| Azadlıqdan məhrum etməyə şərti məhkum etmə | 8 nəfər | 4 nəfər |
| Müəyyən müddətə azadlıqdan məhrum etmə | 26 nəfər | 40 nəfər |

Cədvəldən göründüyü kimi müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilənlər 2022-ci ilin birinci yarısında məhkum edilmiş şəxslərin 68,42%-ni, 2023-cü ilin birinci yarısında isə məhkum olunanların 44,44%-ni təşkil etmiş, yəni 2022-ci ilin birinci yarısı ilə müqayisədə 2023-cü ilin birinci yarısında cəzaların ümumi kütləsində azadlıqdan məhrum etmə cəzasının həcmi 23,98% azalmış, azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzaların həcmi isə əksinə 23,98% artmışdır (ümumilikdə götürüldükdə).

2022 və 2023-cü illərin birinci yarısında baxılan cinayət işlərinə dair göstəricilər ayrı-ayrılıqda muxtar respublikanın birinci instansiya məhkəmələri üzrə aşağıdakı kimi olmuşdur:

| **Məhkəmənin adı** | **2022-ci ilin birinci yarısı üzrə (cinayət işinin və məhkumun sayı)** | **2023-cü ilin birinci yarısı üzrə (cinayət işinin və məhkumun sayı)** |
|---|---|---|
| Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi | 7 / 7 | 8 / 9 |
| Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi | 18 / 21 | 17 / 21 |
| Naxçıvan Şəhər Məhkəməsi | 2 / 2 | 11 / 12 |
| Culfa Rayon Məhkəməsi | - | 12 / 12 |
| Şərur Rayon Məhkəməsi | 2 / 2 | 7 / 8 |
| Babək Rayon Məhkəməsi | 4 / 4 | 4 / 8 |
| Kəngərli Rayon Məhkəməsi | 2 / 2 | 10 / 10 |
| Ordubad Rayon Məhkəməsi | - | 2 / 2 |
| Sədərək Rayon Məhkəməsi | - | 6 / 6 |
| Şahbuz Rayon Məhkəməsi | - | 3 / 3 |

Cədvəldən göründüyü kimi 2022-ci ilin birinci yarısından fərqli olaraq 2023-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsində, Naxçıvan şəhər, Şərur və Kəngərli rayon məhkəmələrində baxılmış cinayət işlərinin sayı artmış, Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsində baxılmış cinayət işlərinin sayı azalmış, Babək Rayon Məhkəməsinin icraatına daxil olan cinayət işləri üzrə göstəricilər dəyişməmişdir. 2022-ci ilin birinci yarısından fərqli olaraq 2023-cü ilin birinci yarısında Şahbuz, Sədərək, Culfa və Ordubad rayon məhkəmələrinin icraatına cinayət işləri daxil olmuşdur.

2023-cü ilin birinci yarısında birinci instansiya məhkəmələrində baxılmış cinayət işləri üzrə çıxarılan hökmlərdən verilmiş apellyasiya şikayətlərinə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasında baxılaraq 7 hökm dəyişdirilmədən saxlanılmış, 4 hökm dəyişdirilmiş, 1 hökm isə ləğv edilmişdir.

Dəyişdirilən və ləğv edilən hökmlər muxtar respublikanın birinci instansiya məhkəmələrinin 2023-cü ilin birinci yarısında çıxardıqları bütün

hökmlərin 6,33%-ni təşkil etdiyi üçün məhkəmələr üzrə hökmlərin sabitlik göstəricisi 93,67% olmuşdur.

Müqayisə üçün qeyd edək ki, 2022-ci ilin birinci yarısında birinci instansiya məhkəmələri tərəfindən çıxarılmış hökmlərin sabitlik göstəricisi 88,57% təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikasının birinci instansiya məhkəmələri tərəfindən xüsusi icraat qaydasında 2023-cü ilin birinci yarısında 202 işə (materiala) baxılmışdır. 2022-ci ilin birinci yarısı ilə müqayisədə bu göstərici 3 dəfə artmışdır (həmin dövrdə 73 işə baxılmışdır).

2023-cü ilin birinci yarısında xüsusi icraat qaydasında həll edilən işlərdən 40 iş (19,80%) telefon danışıqlarına qulaq asma, 98 iş (48,51%) həbs qətimkan tədbirinin seçilməsi, 33 iş (16,34%) cəza çəkməkdən şərti olaraq vaxtından əvvəl azad etmə, 4 iş (1,98%) texniki rabitə kanallarından və digər texniki vasitələrdən məlumatların çıxarılması, 5 iş (2,48%) binaya, o cümlədən yaşayış yerlərinə, hasarlanmış tikinti obyektlərinə, qurğu və ya torpaq sahələrinə daxil olma və onlara baxış keçirilməsi, 1 iş (0,50%) ev dustaqlığı, 1 iş (0,50%) şəxsin ekspertizadan keçirilməsi və ya tibb müəssisəsinə yerləşdirilməsi üçün onun tibb müəssisəsinə çatdırılması, 4 iş (1,98%) maliyyə əməliyyatları, 2 iş (0,99%) cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərindən və qərarlarından verilən şikayət, 1 iş (0,50%) məhkumluğun vaxtından əvvəl götürülməsi, 5 iş (2,48%) hökmün və məhkəmənin digər yekun qərarının icrasına dair başqa məsələlərin həll edilməsi və 8 iş (3,96%) digər məsələlər barədə olmuşdur.

Muxtar respublikanın birinci instansiya məhkəmələri üzrə xüsusi icraat qaydasında baxılan işlərlə əlaqədar 2022 və 2023-cü illərin birinci yarımilinin göstəriciləri aşağıdakı cədvəldə təsvir edildiyi kimi olmuşdur:

| Məhkəmənin adı | 2022-ci ilin birinci yarımili üzrə (işlərin və şəxslərin sayı) | 2023-cü ilin birinci yarımili üzrə (işlərin və şəxslərin sayı) |
|---|---|---|
| Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi | 4 / 4 | 5 / 5 |
| Naxçıvan Şəhər Məhkəməsi | 41 / 41 | 101 / 101 |
| Şərur Rayon Məhkəməsi | 2 / 2 | 24 / 24 |
| Babək Rayon Məhkəməsi | 5 / 5 | 12 / 12 |
| Culfa Rayon Məhkəməsi | 8 / 8 | 5 / 5 |
| Ordubad Rayon Məhkəməsi | 1 / 1 | 6 / 6 |
| Kəngərli Rayon Məhkəməsi | 11 / 11 | 33 / 33 |
| Şahbuz Rayon Məhkəməsi | 1 / 1 | 16 / 16 |

Naxçıvan Muxtar Respublikasının birinci instansiya məhkəmələrində 2023-cü ilin birinci yarısında 520 nəfərin barəsində 518 inzibati xəta haqqında işə baxılmışdır. Bunlardan 2 nəfərin barəsində 2 iş səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından məhkəməyə verilən şikayət olmuşdur.

2022-ci ilin birinci yarısı ilə müqayisədə 2023-cü ilin birinci yarısında baxılan inzibati xəta haqqında işlərin və inzibati xəta törətmiş şəxslərin sayı 3 dəfə artmışdır (2022-ci ilin birinci yarısında 157 nəfərin barəsində 155 inzibati xəta haqqında işə baxılmışdır).

2023-cü ilin birinci yarısında barəsində inzibati tənbeh tətbiq olunan şəxslərdən 208 nəfərə (40%) inzibati həbs, 167 nəfərə (32,12%) inzibati cərimə, 24 nəfərə (4,62%) inzibati xəta törətməkdə alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin müsadirəsi, 5 nəfərə (0,96%) ictimai işlər növündə inzibati tənbeh tədbirləri tətbiq olunmuş, 13 nəfərə (2,50%) inzibati xəta törətmiş şəxsin ona verilmiş xüsusi hüququn məhdudlaşdırılması, 101 nəfərin (19,42%) barəsində 101 inzibati xəta haqqında işin icraatına isə xitam verilmişdir.

Səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından məhkəməyə verilən şikayət üzrə 2 qərar dəyişdirilmədən saxlanılmışdır.

İnzibati tənbeh tədbirinin tətbiqinə dair qərarın çıxarılması ilə nəticələnən inzibati xətaları növünə görə qruplaşdırdıqda 2022 və 2023-cü illərin birinci yarımilinə dair göstəricilər aşağıdakı cədvəldə təsvir olunduğu kimi olmuşdur:

| **İnzibati xətanın növləri** | **2022-ci ilin birinci yarımili üzrə (şəxslərin və işlərin sayı)** | **2023-cü ilin birinci yarımili üzrə (şəxslərin və işlərin sayı)** |
|---|---|---|
| Sağlamlıq əleyhinə olan inzibati xətalar | 9 nəfər / 9 iş | 29 nəfər / 29 iş |
| Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar inzibati xətalar | 14 nəfər / 14 iş | 38 nəfər / 38 iş |
| Mülkiyyət əleyhinə olan inzibati xətalar | 16 nəfər / 15 iş | 24 nəfər / 24 iş |
| Yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətalar | 2 nəfər / 2 iş | 17 nəfər / 17 iş |
| Ticarət qaydaları əleyhinə olan inzibati xətalar | - | 4 nəfər / 4 iş |
| Gömrük qaydaları əleyhinə olan inzibati xətalar | 12 nəfər / 12 iş | 31 nəfər / 31 iş |

| | | |
|---|---|---|
| İctimai qayda, ictimai təhlükəsizlik və ictimai mənəviyyat əleyhinə olan inzibati xətalar | 18 nəfər / 18 iş | 87 nəfər / 85 iş |
| İdarəçilik qaydaları əleyhinə olan inzibati xətalar | 49 nəfər / 48 iş | 193 nəfər /193 iş |
| Hərbi xidmət əleyhinə olan inzibati xətalar | 17 nəfər / 17 iş | 24 nəfər / 24 iş |
| Yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətalarla bağlı səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından verilən şikayət | 1 nəfər / 1 iş | - |
| Ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydaları əleyhinə olan inzibati xətalarla bağlı səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından verilən şikayət | - | 1 nəfər / 1 iş |
| İqtisadi fəaliyyət qaydaları əleyhinə olan inzibati xətalarla bağlı səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından verilən şikayət | - | 1 nəfər / 1 iş |
| Digər inzibati xətalar | - | 71 nəfər / 71 iş |

Göründüyü kimi 2022-ci ilin birinci yarısı ilə müqayisədə 2023-cü ilin birinci yarısında muxtar respublika məhkəmələri tərəfindən baxılan sağlamlıq əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 3 dəfə, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 3 dəfə, mülkiyyət əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 50%, yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 8 dəfə, gömrük qaydaları əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 3 dəfə, ictimai qayda, ictimai təhlükəsizlik və ictimai mənəviyyat əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 5 dəfə, idarəçilik qaydaları əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 4 dəfə, hərbi xidmət əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 41,18% artmışdır. Ötən yarımildən fərqli olaraq 2023-cü ilin birinci yarısında muxtar respublika məhkəmələrinin icraatına yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətalarla bağlı səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından

verilən şikayət daxil olmamış, ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydaları əleyhinə olan inzibati xətalarla bağlı səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından verilən şikayət, iqtisadi fəaliyyət qaydaları əleyhinə olan inzibati xətalarla bağlı səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından verilən şikayət və digər inzibati xətalar haqqında işlər daxil olmuşdur.

Baxılmış inzibati xətalara dair işlər üzrə muxtar respublika məhkəmələrinin 2022 və 2023-cü illərin birinci yarımilinə dair göstəriciləri aşağıdakı cədvəldə təsvir olunduğu kimi olmuşdur:

| **Məhkəmənin adı** | **2022-ci ilin birinci yarımili üzrə (iş və şəxslərin sayı)** | **2023-cü ilin birinci yarımili üzrə (iş və şəxslərin sayı)** |
|---|---|---|
| Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi | 24 / 24 | 29 / 29 |
| Naxçıvan Şəhər Məhkəməsi | 44 / 44 | 182 / 182 |
| Şərur Rayon Məhkəməsi | 33 / 33 | 121 / 121 |
| Babək Rayon Məhkəməsi | 20 / 20 | 64 / 64 |
| Culfa Rayon Məhkəməsi | 13 / 13 | 44 / 44 |
| Ordubad Rayon Məhkəməsi | 4 / 5 | 34 / 34 |
| Kəngərli Rayon Məhkəməsi | 9 / 9 | 20 / 20 |
| Sədərək Rayon Məhkəməsi | 7 / 8 | 18 / 20 |
| Şahbuz Rayon Məhkəməsi | 1 / 1 | 6 / 6 |

2023-cü ilin birinci yarısında muxtar respublikanın birinci instansiya məhkəmələri tərəfindən baxılmış inzibati xətalara dair işlər üzrə çıxarılmış qərarlardan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasına 32 apellyasiya şikayəti verilmişdir.

Naxçıvan Şəhər Məhkəməsinin 4, Babək Rayon Məhkəməsinin 1, Culfa Rayon Məhkəməsinin 1, Şərur Rayon Məhkəməsinin 2 qərarından və Culfa Rayon Məhkəməsinin 1 qərardadından verilmiş apellyasiya şikayətlərinə baxılaraq qərardad və qərarlar dəyişdirilmədən saxlanılmış, Naxçıvan Şəhər Məhkəməsinin 1 qərarından verilmiş apellyasiya şikayətinə baxılaraq qərar dəyişdirilmiş, Naxçıvan Şəhər Məhkəməsinin 20 və Babək Rayon Məhkəməsinin 2 qərarından verilmiş apellyasiya şikayətlərinə baxılaraq qərarlar ləğv edilmişdir.

Beləliklə, muxtar respublikanın birinci instansiya məhkəmələri tərəfindən 2023-cü ilin birinci yarısında inzibati xətalar haqqında işlər üzrə çıxarılan

qərarlardan 4,44% ləğv edildiyindən və dəyişdirildiyindən qərarların sabitlik göstəricisi 95,56% təşkil etmişdir.

Müqayisə üçün qeyd edək ki, 2022-ci ilin birinci yarısında birinci instansiya məhkəmələri tərəfindən çıxarılmış qərarların sabitlik göstəricisi 94,19% təşkil etmişdir.

2023-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasında baxılan işlər üzrə çıxarılan qərarlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasına 7 kassasiya şikayəti verilmiş, onlardan 5 kassasiya şikayətinə baxılaraq qərarlar dəyişdirilmədən saxlanılmış, 2 iş üzrə çıxarılmış qərarlardan verilmiş kassasiya şikayətləri isə hazırda Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasının icraatında baxılmaqdadır.

Beləliklə, 2023-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasında qəbul edilən qərarların sabitlik göstəricisi 100% təşkil etmişdir.

≈≈≈≈≈≈≈≈≈

≈≈≈≈≈≈

≈≈



# İNSAN HÜQUQLARI VƏ MƏHKƏMƏ TƏCRÜBƏSİ

***İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının icmalı***

Bülletenin hər buraxılışında insan hüquq və azadlıqlarına dair məsələlər üzrə Avropa Məhkəməsinin hüquqi mövqeyini əks etdirən qərarların icmalı dərc olunur. Bu sayımızda da oxucuların tanış olması məqsədilə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin "İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında" Avropa Konvensiyasının müvafiq maddələrinin pozuntusunun təsdiq edildiyi bir neçə qərarının icmalını təqdim edirik:

***1. Avropa Məhkəməsinin Elsholts (Elsholtz) Almaniyaya qarşı [BP] –*** *(ərizə № 25735/94)* ***13 iyul 2000-ci il tarixli qərarından***

**Maddə 8**
**8-ci maddənin 1-ci bəndi**
**Ailə həyatına hörmət hüququ**

Atanın nikahdan kənar doğulmuş uşağı ilə görüşməsinə icazə verməkdən imtina edilməsi – qərarın qəbulu prosesində yetərincə iştirak etməsinə imkan yaradılmaması: *pozuntu baş verib.*

**Maddə 6**
**Mülki proses**
**6-cı maddənin 1-ci bəndi**
**Ədalətli məhkəmə araşdırması hüququ**

Uşaqla görüş məsələsinə dair ekspert rəyinin alınmaması və apellyasiya şikayəti üzrə məhkəmə iclasının keçirilməməsi: *pozuntu baş verib.*

**Maddə 14**
**Ayrı-seçkilik**

Bioloji atalara və boşanmış atalara münasibətdə yol verildiyi iddia edilən fərqli rəftar: *pozuntu baş verməyib.*

*Faktlar* – Ərizəçi Eqbert Elsholts 1947-ci ildə doğulmuş Almaniya vətəndaşıdır, Hamburqda (Almaniya) yaşayır. O, 13 dekabr 1986-cı ildə nikahdan kənar doğulmuş uşaq C.-nin atasıdır. 1985-ci ilin noyabrından etibarən ərizəçi uşağın anası və onun böyük oğlu ilə birlikdə yaşayırdı. 1988-ci ilin iyununda ana iki uşağı ilə birlikdə mənzili tərk etdi. 1991-ci ilin iyulunadək ərizəçi tez-tez oğlu ilə görüşməkdə davam edirdi. Bir neçə dəfə o,

bayram günlərini bu iki uşaqla və onların anası ilə birlikdə keçirdi. Sonradan daha bu cür başçəkmələr olmadı. 1991-ci ilin dekabrında Erkrat Gənclər İdarəsinin (*Jugendamt*) əməkdaşı C.-yə onun evində suallar verərkən C. bildirdi ki, daha atası ilə təmasda olmaq istəmir. 1992-ci ilin dekabrında Mettmann Rayon Məhkəməsi (*Amtsgericht*) ərizəçinin ona uşaqla görüşmək hüququ verilməsi barədə vəsatətini (*Umgangsregelung*) rədd etdi. Rayon Məhkəməsi hesab etdi ki, ərizəçinin situasiyası atanın nikahdan kənar doğulmuş uşağı ilə şəxsi ünsiyyət hüququna aid olan Mülki Məcəllənin (*Bürgerliches Gesetzbuch*) 1711-ci maddəsinin 2-ci bəndində nəzərdə tutulmuş şərtlərə cavab vermir. O qeyd etdi ki, ərizəçinin uşağın anası ilə münasibəti o qədər gərgindir ki, uşaqla görüş hüquqlarının təmin edilməsi nəzərdə tutula bilməz. Əgər uşaq anasının istəyi əleyhinə ərizəçi ilə birlikdə olardısa, bu, uşağın hər iki valideyninə bağlılığı arasında ziddiyyət yaradar, uşaq bu ziddiyyətin öhdəsindən gələ bilməz və bu hal onun rifahına mənfi təsir göstərə bilərdi. Məhkəmə əlavə etdi ki, münasibətlərdəki gərginlikdə hansı valideynin təqsirkar olması əhəmiyyət kəsb etmir. Uşaqla iki uzunmüddətli müsahibədən sonra Rayon Məhkəməsi belə qənaətə gəldi ki, uşaq anasının istəyi əleyhinə atası ilə təmaslarını davam etdirərsə, bu onun inkişafını təhlükə altına ala bilər. Bundan başqa, Rayon Məhkəməsi işin faktlarını Mülki Məcəllənin 1711-ci maddəsinin məqsədləri üçün dəqiq və qəti şəkildə müəyyənləşdirilmiş hesab etdi. Buna görə də o, ekspert rəyinin alınmasına lüzum görmədi. 21 yanvar 1994-cü ildə Vuppertal Regional Məhkəməsi (*Landgericht*) iş üzrə dinləmə keçirmədən ərizəçinin apellyasiya şikayətini rədd etdi. Barəsində şikayət verilmiş qərara uyğun olaraq, Regional Məhkəmə hesab etdi ki, valideynlər arasındakı gərginlik, 1992-ci ilin noyabrında və 1993-cü ilin dekabrında uşağın iştirakı ilə keçirilmiş dinləmələrdə təsdiq edildiyi kimi, uşağa mənfi təsir göstərə bilərdi və buna görə də onun atası ilə təmasları uşağın üstün maraqlarına xidmət etməyəcəkdi, xüsusən də ona görə ki, bu təmaslar təxminən iki il yarım idi ki, kəsilmişdi. Ümumən ailə həyatının dağılmasında kimin təqsirkar olması əhəmiyyət kəsb etmirdi. Önəmli olan bu idi ki, indiki vəziyyətdə atası ilə təmasları uşağa mənfi təsir göstərə bilərdi. Regional Məhkəmənin fikrincə, bu qənaət açıq-aşkar idi, məhz buna görə o, ekspert-psixoloqun rəyini almağa lüzum görmədi. Yekun olaraq Regional Məhkəmə qeyd etdi ki, valideynləri və uşağı yenidən dinləməyə ehtiyac yoxdur, çünki bu cür dinləmə nəticəsində ərizəçinin lehinə hər hansı qərarın qəbul edilə biləcəyini göstərən heç bir əlamət yoxdur. 1994-cü ilin aprelində Federal Konstitusiya Məhkəməsinin (*Bundesverfassungsgericht*) üç hakimdən ibarət kollegiyası ərizəçinin

konstitusiya şikayətinə (*Verfassungsbeschwerde*) baxmaqdan imtina etdi. Ərizəçi Avropa Məhkəməsinə şikayət etdi ki, nikahdan kənar doğulmuş oğlu ilə görüşməsi barədə vəsatətlərinin Almaniya məhkəmələrinin qərarları ilə rədd edilməsi 8-ci maddənin pozuntusunu təşkil edib, o, 8-ci maddə ilə əlaqəli şəkildə götürülmüş 14-cü maddəyə zidd olan ayrı-seçkilik xarakterli rəftarın qurbanıdır və onun 6 maddənin 1-ci bəndi ilə təmin edilən ədalətli məhkəmə araşdırması hüququ pozulub.

***Hüquqi məsələlər***

Maddə 8 – Məhkəmə xatırlatdı ki, bu maddədə nəzərdə tutulmuş "ailə" anlayışı nikaha əsaslanan münasibətlərlə məhdudlaşmır və tərəflərin nikahdan kənar birgə yaşayışına əsaslanan digər faktiki "ailə" əlaqələrini də əhatə edə bilər. Bu cür əlaqədən doğulan uşaq doğulduğu andan və bu doğum faktı ilə əlaqədar olaraq hüquqi baxımdan həmin "ailənin" tərkib hissəsi sayılır. Beləliklə, uşaq ilə valideynləri arasında ailə həyatına bərabər sayılan əlaqələr mövcud olub. Məhkəmə daha sonra xatırlatdı ki, valideyn ilə uşağın birlikdə olmaqdan yararlanmaları, hətta valideynlər arasında münasibətlər kəsilmiş olsa belə, ailə həyatının fundamental elementini təşkil edir və onların birlikdə olmaqdan yararlanmasına əngəl törədən ölkədaxili tədbirlər 8-ci maddə ilə qorunan hüquqa müdaxilə təşkil edir. Məhkəmə hesab etdi ki, ərizəçinin oğlu ilə görüşmək xahişini rədd edən qərarlar ərizəçinin 8-ci maddənin 1-ci bəndi ilə təmin edilən ailə həyatına hörmət hüququndan yararlanmasına müdaxilə təşkil edib. Bu cür müdaxilə "qanunda nəzərdə tutulmayıbsa", həmin maddənin 2-ci bəndində müəyyən edilmiş qanuni məqsədə və ya məqsədlərə yönəlməyibsə və "demokratik cəmiyyətdə zəruri" hesab edilə bilməzsə, 8-ci maddənin pozuntusunu təşkil etmiş olur. Məhkəmənin rəyinə görə, barəsində ərizəçinin şikayət etdiyi məhkəmə qərarlarının milli qanunvericilikdə hüquqi əsası vardı, yəni qərarlar Mülki Məcəllənin həmin vaxt qüvvədə olan 1711-ci maddəsinin 2-ci bəndinə əsaslanmışdı və açıq-aydın "sağlamlığın, yaxud mənəviyyatın" və uşağın "hüquq və azadlıqlarının" qorunmasına yönəlmişdi. Müvafiq olaraq, həmin qərarlar qanuna uyğun idi və 8-ci maddənin 2-ci bəndində nəzərdə tutulan qanuni məqsədləri daşıyırdı. Etiraz edilən tədbirin "cəmiyyətdə zəruri" olub-olmadığını müəyyənləşdirərkən Məhkəmə bu məsələni nəzərdən keçirdi ki, işin xüsusi halları və qəbul edilmiş qərarların mühümlüyü nəzərə alınaraq, ərizəçi bütövlükdə götürülmüş halda qərarların qəbulu prosesinə maraqlarının zəruri müdafiəsinin təmin edilməsi üçün yetərli sayılacaq dərəcədə cəlb olunmuşdumu? Müstəqil psixoloqun rəyini almaqdan imtina edilməsi və bununla yanaşı Regional Məhkəmədə dinləmənin keçirilməməsi,

Məhkəmənin rəyinə görə, qərarların qəbulu prosesinə ərizəçinin yetərincə cəlb olunmadığını üzə çıxarır. Buna görə də Məhkəmə bu qənaətə gəldi ki, milli hakimiyyət orqanları malik olduqları qiymətləndirmə sərbəstliyinin hüdudlarını aşıblar və beləliklə ərizəçinin 8-ci maddədə nəzərdə tutulmuş hüquqları pozulub.

***Nəticə*****:** pozuntu baş verib (dörd səsə qarşı on üç səslə).

8-ci maddə ilə birlikdə götürülmüş 14-cü maddə – Məhkəmə Almaniyanın keçmiş qanunvericilik normalarının, yəni Mülki Məcəllənin 1711-ci maddəsinin 2-ci bəndinin müddəalarının nikahdan kənar doğulmuş uşaqların ataları ilə boşanmış atalar arasında haqsız fərq qoyub-qoymadığını və bu fərqin 14-cü maddədə nəzərdə tutulmuş ayrı-seçkilik xarakteri daşıyıb-daşımadığını nəzərdən keçirməyə lüzum görmədi, çünki bu maddənin hazırkı işə tətbiqi boşanmış cütlüyün işindəki yanaşmadan fərqli yanaşmaya gətirib çıxarmayacaqdı. Məhkəmə qeyd etdi ki, Almaniya məhkəmələrinin qərarları uşağın anasının istəyi əleyhinə ərizəçi ilə təmasda olacağı təqdirdə açıq-aydın onun inkişafına qarşı yaranacaq təhlükəyə əsaslanmışdı. Belə ki, uşağın rifahına qarşı risklərin nəzərə alınması olduqca önəmli idi. Müvafiq olaraq, hazırkı işin faktları əsasında demək olmaz ki, boşanmış ataya qarşı rəftar bundan daha əlverişli ola bilərdi. Beləliklə, 8-ci maddə ilə birlikdə götürülmüş 14-cü maddənin pozuntusu baş verməyib.

***Nəticə*****:** pozuntu baş verməyib (yekdilliklə).

6-cı maddənin 1-ci bəndi – Məhkəmə 8-ci maddə üzrə gəldiyi nəticələri nəzərə alaraq hesab etdi ki, hazırkı işdə ekspert-psixoloqun rəyi olmadığına və Regional Məhkəmənin atanı dinləmək üçün məhkəmə iclası keçirmədiyinə görə bütövlükdə məhkəmə prosesi 6-cı maddənin 1-ci bəndində nəzərdə tutulmuş ədalətli və açıq məhkəmə araşdırması tələblərinə cavab verməyib. Beləliklə, həmin bəndin pozuntusu baş verib.

***Nəticə*****:** pozuntu baş verib (dörd səsə qarşı on üç səslə).

Maddə 41 – Məhkəmə bunu iddia etməyi qeyri-mümkün hesab etdi ki, Konvensiya pozulmasaydı, müvafiq qərarlar fərqli olardı. Bununla belə, Məhkəmənin fikrincə, istisna etmək olmaz ki, ərizəçi qərarların qəbulu prosesinə daha çox cəlb edilsəydi, onda müəyyən qədər məmnunluq yaranar və bu, onun uşaqla gələcək münasibətlərini dəyişə bilərdi. Bundan əlavə, şübhəsiz ki, ərizəçi narahatlıq və təşviş keçirməsi səbəbindən mənəvi ziyana məruz qalıb. Buna görə də Məhkəmə ərizəçinin müəyyən mənəvi ziyana məruz qaldığı və Konvensiyasının pozulduğunun müəyyən edilməsinin həmin ziyanı yetərincə kompensasiya etmədiyi qənaətinə gəldi və ərizəçiyə

35.000 alman markası (DEM) təyin etdi. Bundan başqa, Məhkəmə ərizəçiyə məhkəmə xərclərinə və digər məsrəflərə görə 12.584,26 DEM təyin etdi.

≈≈≈

***2. Avropa Məhkəməsinin "İmmobiliare Saffi" (Immobiliare Saffi) İtaliyaya qarşı [BP]** (ərizə № 22774/93)* ***28 iyul 1999-cu il tarixli qərarından***

**1 saylı Protokolun 1-ci maddəsi**
**1 saylı Protokolun 1-ci maddəsinin birinci bəndi**
**Mülkiyyətdən maneəsiz istifadə hüququ**

Evdən çıxarılma barədə qərarın icrası üçün polisin köməyinin növbəlilik qaydasında təmin edilməsi: *pozuntu baş verib.*

**Maddə 6**
**Mülki proses**
**6-cı maddənin 1-ci bəndi**
**Məhkəməyə müraciət hüququ**

Evdən çıxarılma barədə qərarın icrası üçün polisin köməyinin növbəlilik qaydasında təmin edilməsi barədə prefektin qərarlarına məhkəmə tərəfindən yenidən baxılması imkanının mövcud olmaması: *pozuntu baş verib.*

**Maddə 35**
**35-ci maddənin 1-ci bəndi**
**Daxili hüquqi müdafiə vasitələrinin tükəndirilməsi**
**Səmərəli hüquqi müdafiə vasitəsi**

Konstitusiya Məhkəməsinə müraciət edilməsi: *Hökumətin ilkin etirazı rədd edildi*

Evdən çıxarılma barədə qərarın icrası üçün polisin köməyinin növbəlilik qaydasında təmin edilməsi barədə prefektin qərarlarından inzibati məhkəmələrə şikayət verilməsi: *Hökumətin ilkin etirazı rədd edildi.*

***Faktlar*:** Ərizə İtaliyanın tikinti şirkəti olan "İmmobiliare Safi" tərəfindən verilib. 1988-ci ildə digər bir şirkətlə birləşdikdən sonra "İmmobiliare Safi" Livornoda kirayəyə verilmiş mənzilin sahibi oldu. Baxmayaraq ki, kirayə müqaviləsinin müddəti 31 dekabr 1983-cü ildə başa çatmışdı və ərizəçi şirkətin mülkiyyətə sahiblik etməsi barədə Livorno məhkəməsi hakiminin qərarı vardı, kirayəçi mənzili tərk etməkdən imtina etdi. Çoxsaylı cəhdlərə baxmayaraq, məhkəmə icraçıları qərarı icra edə bilmədilər, belə ki, evdən məcburi çıxarılmanın növbəlilik qaydasında həyata keçirilməsinə və ya təxirə salınmasına dair qanunvericilik normalarına əsasən ərizəçi şirkət mənzilə sahiblik etməsi barədə qərarın məcburi icrası üçün polisin yardımından

istifadə etmək hüququna malik deyildi. O, mənzil üzərində sahibliyi yalnız 1996-cı ilin aprelində kirayəçinin vəfatından sonra əldə edə bildi.

Ərizəçi şirkət şikayət etdi ki, onun Konvensiyanın 1 saylı Protokolunun 1-ci maddəsi ilə təmin edilən öz mülkiyyətindən maneəsiz istifadə hüququ pozulub, belə ki, o, mənzil üzərində sahiblik əldə edə bilməyib; o həmçinin 6-cı maddənin 1-ci bəndinin pozuntularından şikayət etdi, belə ki, o, polisin yardımının təmin edilməsi ilə bağlı məhkəməyə müraciət etmək hüququndan məhrum edilmiş və məcburi icra prosedurları ağlabatan olmayan dərəcədə uzun sürmüşdü.

***Hüquqi məsələlər*:** Hökumətin ilkin etirazları: Hökumət iddia etdi ki, ərizəçi şirkət daxili hüquqi müdafiə vasitələrini tükəndirməyib, belə ki, o, polisin yardımının təmin edilməsindən imtina ilə əlaqədar inzibati məhkəmələrə şikayət etməyib və həmçinin müvafiq qanunvericilik normalarının konstitusiyaya uyğunluğu məsələsini qaldırmayıb. Etirazın birinci aspektinə gəlincə, Məhkəmə 1 yanvar 1990-cı ilə qədərki dövrlə bağlı qeyd etdi ki, mənzilə sahiblik barədə qərarların icrası qanun əsasında dayandırılmışdı və "İmmobiliare Saffi" bu dayandırmanın baş verməməsi üçün zəruri olan şərtlərə cavab vermirdi, inzibati məhkəmələrə şikayətin isə heç bir uğur perspektivi yox idi. 1 yanvar 1990-cı ildən sonrakı dövrə gəlincə, Məhkəmə qeyd etdi ki, mənzilə sahiblik barədə qərarların icrası üçün polisə yardımının təmin edilməsi barədə müraciətlərə prefekt tərəfindən müəyyənləşdirilən meyarlara uyğun olaraq növbəlilik qaydasında baxılırdı. İnzibati məhkəmələr yalnız prefektin növbəlilik meyarlarına uyğun olmayan qərarlarını ləğv etmək səlahiyyətinə malik idilər. Məhkəmədəki icraatda "İmmobiliare Saffi"nin şikayəti prefektin qərarlarının qanunsuzluğu barəsində deyildi, növbə sıralamasında prioritetliyin müəyyənləşdirilməsi meyarlarının tətbiqinin onun mülkiyyət hüququna qeyri-mütənasib təsiri barəsində idi. Müvafiq olaraq, inzibati məhkəmələrə şikayət edilməsi səmərəli hüquqi müdafiə vasitəsi sayıla bilməzdi. Etirazın ikinci aspektinə (qanunvericilik normalarının konstitusiyaya uyğunluğu məsələsinə) gəlincə, Məhkəmə qeyd etdi ki, İtaliyanın hüquq sistemində qanunun konstitusiyaya uyğunluğunun yoxlanılması üçün fərdin birbaşa Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ yoxdur. Müvafiq olaraq, bu cür şikayət imkanı Konvensiyanın 35-ci maddəsi əsasında tükəndirilməsi tələb olunan hüquqi müdafiə vasitəsi sayıla bilməzdi. Buna görə də etiraz rədd edilməlidir.

Konvensiyanın 1 saylı Protokolunun 1-ci maddəsi

a) *Həmin maddənin bu işə tətbiq edilməli olan norması*

Məhkəmə qərara aldı ki, qanunvericilik tədbirlərinin tətbiqi kirayəçinin mənzildə qalmasına imkan yaradırdı və bu baxımdan şübhəsiz ki, mülkiyyətdən istifadəyə nəzarət tədbiri idi, beləliklə, 1-ci maddənin ikinci bəndinin müddəaları bu işə tətbiq edilə bilər.

b) *Müdaxilənin ikinci bəndin şərtlərinə uyğunluğu*

i) *Müdaxilənin məqsədi*: Məhkəmə müəyyən etdi ki, etiraz edilən qanunvericilik ümumi maraqlara xidmət etməklə qanuni məqsəd daşıyıb, belə ki, eyni vaxtda çoxlu sayda kirayəçilərin evlərdən çıxarılması, şübhəsiz ki, əhəmiyyətli dərəcədə sosial gərginliyə gətirib çıxara və ictimai asayişi poza bilərdi.

ii) *Müdaxilənin mütənasibliyi*: Məhkəmə bir daha bildirdi ki, hər hansı müdaxilə, xüsusilə də 1 saylı Protokolun 1-ci maddəsinin ikinci bəndi əsasında araşdırılmalı olan müdaxilə həyata keçirilərkən cəmiyyətin ümumi maraqlarının tələbləri ilə fərdin əsas hüquqlarının müdafiəsinin tələbləri arasında "ədalətli balans" gözlənilməlidir. Müasir cəmiyyətlərin rifahında və iqtisadi siyasətində mərkəzi rol oynayan mənzil təminatı kimi sahələrdə nəyin cəmiyyətin ümumi maraqlarına uyğun olduğu barədə qanunverici orqanın rəyinə Məhkəmə hörmətlə yanaşır, bu şərtlə ki, həmin rəy açıq-aydın ağlabatan əsasa söykənmiş olsun. Məhkəmə qeyd etdi ki, xroniki mənzil çatışmazlığı məsələsini həll etmək üçün İtaliya Hökuməti bir sıra fövqəladə tədbirlər qəbul etmişdi ki, onların da məqsədi kirayə haqlarında artımları nəzarətdə saxlamaq və mövcud kirayə müqavilələrinin etibarlılıq müddətinin uzadılmasına nail olmaq idi. Kirayə müqavilələrinin qanunla müəyyən edilmiş son uzadılma müddəti 1982 və 1983-cü illərdə başa çatdıqda İtaliya dövləti mülkiyyətə sahiblik barədə çıxarılan, amma təcili olmayan qərarların icrasının təxirə salınması üçün fövqəladə müddəaların tətbiqini zəruri hesab etdi. Həmin qanunvericilik tədbirləri qarşıya qoyulmuş qanuni məqsədə nail olmaq üçün əsaslı olaraq məqsədəuyğun tədbirlər sayıla bilərdi. Mənzildən çıxarılma barədə qərarların icrasının təxirə salındığı son müddət başa çatdıqdan sonra isə İtaliya dövləti mülkiyyətə sahibliyin təxirə salınması barədə normaların daha şamil olunmadığı qərarlara münasibətdə bu variantı məqsədəuyğun hesab etdi ki, bu cür qərarların icrası prefektura komitəsi ilə məsləhətləşməklə prefekt tərəfindən müəyyənləşdirilən prioritetlik qaydasında həyata keçirilsin. Digər tərəfdən, prioritet sayılmayan hallarda, məsələn, Məhkəmənin icraatında olan bu işdəkinə bənzər hallarda mənzildən çıxarılma qərarları 1 yanvar 1990-cı ildən başlayaraq maksimum dörd il ərzində icra edilməli idi. Məhkəmə hesab etdi ki, konkret olaraq 1-ci maddənin ikinci bəndinin dövlətlərə verdiyi müəyyən qiymətləndirmə

sərbəstliyini nəzərə alsaq, prinsipcə mənzil sahiblərinin mülkiyyət hüququnun bərpasına yönələn məhkəmə qərarlarının məcburi icrasının təxirə salınması və ya növbəlilik qaydasında həyata keçirilməsi sistemi özü-özlüyündə tənqid edilməli sistem deyildi. Bununla belə, Məhkəmə qeyd etdi ki, İtaliyanın bu sistemi müəyyən dərəcədə çeviklikdən məhrum idi: belə ki, bir tərəfdən, mülkiyyətçinin ailəsini mənzildə məskunlaşdırmaq üçün və ya digər şəxsi ehtiyacları üçün dərhal mənzilini geri almaq istədiyi hallara hər zaman prioritet verilərək kirayə müqaviləsinə xitam verilməsi nəzərdə tutulur, digər tərəfdən isə təcili olmayan hallara dair qərarların icrası prioritet təşkil edən müraciətlərin olub-olmamasından asılı vəziyyətdə olurdu. Belə vəziyyət ona gətirib çıxarırdı ki, daim çoxsaylı prioritet hallar mövcud olduğuna görə təcili olmayan qərarlar 1990-cı ilin yanvarından sonra praktiki olaraq icra edilmirdi. Beləliklə, prefekt tərəfindən prioritetlik qaydasında müəyyən edilən polisin yardımının təmin edilməsi, demək olar ki, tamamilə prioritet təşkil edən müraciətlərin miqdarından və prefektin sərəncamındakı polis əməkdaşlarının sayından asılı idi. Buna görə də təxminən on bir il ərzində "İmmobiliare Saffi" mənzilini nə vaxt geri ala biləcəyi məsələsində qeyri-müəyyən vəziyyətdə qalmışdı. O, nə məcburi icra prosedurlarını araşdıran hakimə, nə də inzibati məhkəməyə müraciət edə bilərdi. Mənzildən çıxarılmanın gecikdirilməsi nəticəsində onun üzləşə biləcəyi hər hansı konkret çətinlikləri nəzərə almağa Hökuməti məcbur etmək üçün heç bir vasitə yox idi, həmçinin uzunmüddətli gözləmə ilə əlaqədar olaraq İtaliya məhkəmələri vasitəsilə kompensasiyaya nail olmaq perspektivi də yox idi və bu gözləmə müddətində o, mənzili bazar dəyərinə uyğun qiymətə nə sata, nə də kirayəyə verə bilərdi. İşin materiallarında belə düşünməyə əsas verən heç nə yoxdur ki, ərizəçi şirkətə məxsus tikilidə məskunlaşmış kirayəçi xüsusi müdafiə ilə təmin edilməli olan şəxs idi. Yuxarıda qeyd edilənləri nəzərə alaraq Məhkəmə Komissiya ilə razılaşır ki, mənzilin mülkiyyətçinin sahibliyinə verilməsi barədə qərarların icrası üçün növbəlilik qaydasını nəzərdə tutan sistemin mövcudluğu və üstəlik bu cür qərarların icrasının qanunla təxirə salınması səbəbindən altı il ərzində gözləməsi ərizəçi şirkətin üzərinə həddən artıq yük qoymuş və beləliklə mülkiyyət hüququnun müdafiəsinin tələbləri ilə cəmiyyətin ümumi maraqlarının müdafiəsinin tələbləri arasında gözlənilməli olan balans pozulmuşdu. Müvafiq olaraq, Konvensiyanın 1 saylı Protokolunun 1-ci maddəsinin pozuntusu baş verib.

***Nəticə*:** pozuntu baş verib (yekdilliklə).

Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi: Məhkəmə qeyd etdi ki, ərizəni təqdim edərkən ərizəçi şirkət mənzilin onun sahibliyinə verilməsi üzrə

icraatın uzun sürməsi ilə bağlı şikayətində 6-cı maddəyə istinad edib. Lakin Məhkəmə də Komissiya kimi hesab edir ki, iş ilk növbədə daha ümumi hüquq olan məhkəməyə müraciət hüququ əsasında araşdırılmalıdır.

a) *6-cı maddə bu işə tətbiq edilə bilərmi*: Məhkəmə qeyd etdi ki, ərizəçi şirkət kirayə müqaviləsinə xitam verildiyini təsdiq edən və kirayəçidən tikilini boşaltmasını tələb edən qərarın çıxarılması üçün Livorno məhkəməsində iş qaldırmışdı. Kirayəçi müqavilə müddətinin bitdiyini mübahisələndirmədiyinə görə həll edilməli yeganə məsələ mənzilin mülkiyyətçinin sahibliyinə nə vaxt qaytarılacağı məsələsi idi. Kirayəçinin mənzili könüllü surətdə tərk etməkdən imtina etməsi səbəbindən qaytarılma tarixi daim dəyişdirilirdi ki, bu da faktiki olaraq kirayə müddətinin uzadılması və ərizəçi şirkətin mülkiyyət hüququnun əhəmiyyətli dərəcədə məhdudlaşdırılması demək idi və bunu 6-cı maddənin məqsədləri üçün "mübahisə" (mübahisə predmeti) hesab etmək olardı. İstənilən halda, Məhkəmə bir daha bildirdi ki, iştirakçı dövlətin daxili hüquq sistemi icrası məcburi olan yekun məhkəmə qərarının bir tərəfin zərərinə olaraq icra edilməmiş qalmasına imkan yaratsaydı, məhkəməyə müraciət hüququ xəyali hüquq olardı. İstənilən məhkəmənin qəbul etdiyi qərar 6-cı maddənin məqsədləri üçün "məhkəmə araşdırmasının" tərkib hissəsi sayılmalıdır, buna görə də 6-cı maddə bu işə tətbiq edilə bilər.

b) *6-cı maddəyə riayət edilib-edilməməsi*: Məhkəmə qəbul etdi ki, məhkəmə qərarının icrasının bu qədər uzun müddətə dayandırılmasının ictimai asayiş problemlərinin qənaətbəxş şəkildə həlli üçün zəruri hesab edilməsinə yalnız müstəsna hallarda haqq qazandırıla bilər. Lakin Məhkəmənin qarşısındakı bu iş yalnız ictimai asayişin pozula biləcəyi ilə bağlı ciddi təhlükə səbəbindən prefektin polisin yardımını təmin etməkdən imtina etməsi ilə əlaqədar deyil. Kirayəçinin tikililəri hansı tarixdə tərk etməli olduğu barədə hakimin qərarına qanun əsasında yenidən baxılmışdı. Qanunverici orqan ictimai asayişin mühafizəsinə görə cavabdehlik daşıyan prefektlərə mülkiyyət üzərində sahibliklə bağlı bu cür qərarların icrasına sistematik olaraq müdaxilə etmək səlahiyyətini (bəlkə də vəzifəsini) həvalə etmiş və eyni zamanda bu səlahiyyətin hüdudlarını müəyyən etmişdi. Kirayəçinin tikililəri tərk etməli olduğu tarixin təxirə salınması Livorno məhkəməsi hakiminin eyni amillər əsasında qəbul etdiyi qərarı etibarsız etmişdi. Bundan əlavə, Məhkəmə qeyd etdi ki, mənzil üzərində sahibliyin bərpa edilməsi barədə məhkəmə qərarının icrasının sonradan dayandırılmasının və beləliklə kirayə müqaviləsinin faktiki olaraq uzadılmasının məqsədəuyğun olub-olmadığına dair verilən qərarlara

məhkəmələr tərəfindən faktiki olaraq yenidən baxıla bilməzdi, çünki qərar üzərində məhkəmə nəzarətinin hüdudları həmin qərarın mənzildən çıxarılmaların prioritetlik qaydasını tənzimləyən meyarlara uyğun olub-olmadığının yoxlanması ilə məhdudlaşırdı. Qanunvericilik aktı vasitəsilə müdaxilə məhkəmə qərarının icrasının qarşısını almamalı, onu etibarsız etməməli və xüsusən onun mahiyyətinə xələl gətirməməli idi. Hazırkı işdə mənzilin mülkiyyətçinin sahibliyinə qaytarılması barədə qərarın nə vaxt icra edilməli olduğunun müəyyənləşdirilməsinə görə cavabdeh orqan qismində təyin edilmiş prefektin qərarları üzərində faktiki olaraq məhkəmə nəzarətinin olmadığını nəzərə alsaq, həmin təyinat anından etibarən ərizəçi şirkət Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndində nəzərdə tutulmuş hüququndan, yəni kirayəçi ilə mübahisəsinin məhkəmə tərəfindən həll edilməsi hüququndan məhrum edilmişdi. Bu vəziyyət qanunun aliliyi prinsipinə ziddir. Müvafiq olaraq Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinin pozuntusu baş verib.

***Nəticə*:** pozuntu baş verib (yekdilliklə).

Prosesin uzun sürməsi ilə bağlı şikayətə gəlincə, Məhkəmə hesab etdi ki, yuxarıdakı şikayətin araşdırılması bu məsələni də əhatə edib.

Konvensiyanın 41-ci maddəsi: Ərizəçi şirkət aşağıdakı məbləğləri tələb etdi: a) məcburi icra prosedurları zamanı məhkəmə icraçılarının və vəkillərin zəhmət haqqının ödənişi üçün çəkilmiş xərclərə görə 6.274.408 italyan lirəsi (İTL); b) itirilmiş kirayə haqlarına görə 37.200.000 İTL; və c) mülkiyyətini satmaq imkanından məhrum olduğuna görə 564.179.000 İTL. O həmçinin mənəvi ziyana görə 20.000.000 İTL tələb etdi. Məhkəmə "a" bəndi üzrə yalnız 2.832.150 İTL məbləğini təyin etdi, bu, faktiki və zəruri olaraq çəkildiyi sübuta yetirilmiş məhkəmə xərclərinin və digər məsrəflərin ağlabatan miqdarda məbləği idi. Tələblərin "b" bəndinə gəlincə, Məhkəmə "İmmobiliare Saffi"yə mənzil üzərində sahibliyini bərpa etdiyi anadək ödənilməli olan məbləği təyin etdi (25.608.000 İTL). Məhkəmə "c" bəndindəki tələbi rədd etdi, çünki ərizəçinin şirkətin mülkiyyəti satmağa cəhd etdiyini, amma sata bilmədiyini təsdiqləyən sübut yox idi. Mənəvi ziyana gəlincə, Məhkəmə kommersiya şirkətinin ona yaradılmış narahatlıqlar səbəbindən mənəvi ziyana məruz qaldığını iddia etməsinin mümkünlüyü məsələsini araşdırmağa ehtiyac görmədi, belə ki, o, işin faktlarını nəzərə alaraq artıq bu bənd üzrə kompensasiya təyin etməməyi qərara almışdı. Məhkəmə Komissiyadakı icraata çəkilmiş xərclərə görə ərizəçi şirkətə 5.000.000 İTL təyin etdi.

***3. Avropa Məhkəməsinin Enea İtaliyaya qarşı (Enea v. Italy [GC]),*** *(ərizə № 74912//01)* ***17 sentyabr 2009-cu il tarixli qərarından***

**Maddə 6**

*Mülki proses*

**6-cı maddənin 1-ci bəndi**

*Məhkəməyə müraciət hüququ*

*Ədalətli məhkəmə araşdırması hüququ*

Həbsxananın güclü nəzarət blokunda saxlanılan məhbusun mülki xarakterli hüquqlarının müdafiəsi ilə bağlı məhkəməyə müraciət etmək hüququ: *pozuntu baş verib.*

***Faktlar*** – Ərizəçi bir sıra cinayətlərə, o cümlədən mafiya tipli cinayətkar təşkilatda iştiraka görə 30 il müddətinə azadlıqdan məhrum edilmişdi. 1994-cü ilin avqustunda ədliyyə naziri ərizəçinin təhlükəli şəxs olduğunu nəzərə alaraq, ictimai qaydanın və təhlükəsizliyin qorunması mülahizələri əsasında onun bir il müddətinə Həbsxanaların İdarə Olunması haqqında Qanunun 41-ci maddəsinin 2-ci bəndində nəzərdə tutulmuş ciddi həbsxana rejiminə keçirilməsi barədə əmr verdi. Bu əmrlə ərizəçinin görüşlərinə, fəaliyyətlərinə müxtəlif məhdudiyyətlər tətbiq edildi və yazışmaları nəzarətə götürüldü. Ciddi rejimin tətbiqi 2005-ci ilin sonunadək 19 əmrlə uzadıldı, bu əmrlərin hər biri məhdud müddətə qüvvədə idi. Ərizəçi cəzaların icrası məsələlərinə baxmaq səlahiyyəti olan məhkəməyə bir neçə şikayət verdi və ona tətbiq edilmiş bəzi məhdudiyyətlər götürüldü. Şikayətlərdən biri qəbul olunmayan elan edildi və belə əsas gətirildi ki, müvafiq əmrin müddəti bitib və ərizəçi daha həmin şikayətə baxılmasında maraqlı deyil. Sonda məhkəmə ciddi rejimə xitam verilməsi barədə qərar çıxardı və 2005-ci ilin martında ərizəçi gücləndirilmiş nəzarət blokuna yerləşdirildi, burada xüsusi təhlükəli cinayətkarlar digər məhbuslardan ayrı saxlanılırdılar. Ərizəçinin gücləndirilmiş nəzarət blokuna yerləşdirilməsi barədə qərardan şikayət verilə bilməzdi.

Ərizəçinin səhhəti ilə bağlı bir sıra problemləri vardı və o, əlil arabasından istifadə edirdi. 2000-ci ilin iyunundan 2005-ci ilin fevralınadək o, cəzasını həbsxananın xüsusi rejimli məhbuslar üçün ayrılmış xəstəxana bölməsində çəkdi. 2008-ci ilin oktyabrında cəzaların icrası məsələlərinə baxmaq səlahiyyəti olan məhkəmə tibbi səbəblərə görə ərizəçinin cəzasını həbsxanada çəkməsinə son qoyulması barədə qərar çıxardı. Həmin vaxtdan o, ev dustaqlığındadır.

***Hüquqi məsələlər*** – Maddə 3: Ciddi həbsxana rejiminə müvafiq olaraq tətbiq edilən məhdudiyyətlər cəmiyyət üçün təhlükə yaradan ərizəçinin

mənsub olduğu cinayətkar təşkilatla əlaqə saxlamasına mane olmaq üçün zəruri idi. Lakin cəzaların icrası məsələlərinə baxmaq səlahiyyəti olan məhkəmələr bir sıra belə məhdudiyyətləri ləğv etmiş və ya yüngülləşdirmişdilər. Bundan başqa dövlət hakimiyyəti orqanları ərizəçinin səhhətini ciddi nəzarətdə saxlamaqla ona lazımi tibbi yardımı təmin etməklə və zərurət olduqda onu xəstəxanaya yerləşdirməklə onun fiziki sağlamlığını qorumaq vəzifələrini yerinə yetirmişdilər. Müvafiq olaraq onun məruz qaldığı rəftar həbsxanada saxlanılmaqdan irəli gələn qaçılmaz məhrumiyyətin məqbul həddini keçməmişdi.

***Nəticə*:** pozuntu baş verməyib (iki səsə qarşı on yeddi səslə).

6-cı maddənin 1-ci bəndi: a) Ciddi həbsxana rejimi qüvvədə olduğu dövrdə məhkəməyə müraciət hüququna tətbiq edilən məhdudiyyətlər – Ciddi həbsxana rejiminə keçirilən məhkumlar nazirin əmrini aldıqdan sonra 10 gün müddətində cəzaların icrası məsələlərinə baxmaq səlahiyyəti olan məhkəməyə həmin əmrdən şikayət edə bilərlər, şikayətin verilməsi əmrin qüvvəsini dayandırmır. Öz növbəsində məhkəmə də 10 gün müddətində qərar çıxarmalıdır, bu müddətin 10 gün təşkil etməsi onunla əlaqədardır ki, ciddi rejim məhbusların hüquqlarına ciddi təsir göstərir və barəsində şikayət verilən əmr yalnız məhdud müddətə qüvvədə olur. Ərizəçinin şikayətlərindən birinin verilməsindən dörd aydan da artıq vaxt keçdikdən sonra məhkəmə həmin şikayəti rədd edib və belə əsas gətirib ki, barəsində şikayət verilən əmr artıq qüvvəsini itirib. Beləliklə, şikayətin mahiyyəti üzrə qərar çıxarılmadığına görə müvafiq əmrə məhkəmə tərəfindən yenidən baxılması da mənasını itirmiş olub.

***Nəticə*:** pozuntu baş verib (yekdilliklə).

b) Həbsxananın güclü nəzarət blokunda saxlanılan məhbusun məhkəməyə müraciət etmək hüququnun məhdudlaşdırılması

i) Şikayətin qəbulunun mümkünlüyü məsələsi: 6-cı maddənin 1-ci bəndinin cinayət-hüquqi aspekti bu işə tətbiq edilə bilməz, çünki penitensiar sistem çərçivəsində məhkəmə icraatı prinsipcə "cinayət ittihamının" müəyyən edilməsi məsələsinə aid deyil. Digər tərəfdən, güclü nəzarət blokuna köçürülməyə və onunla əlaqədar məhdudiyyətlərə baxmaq səlahiyyətinə malik olan məhkəməyə müraciət məsələsinə 6-cı maddənin 1-ci bəndinin mülki hüquqi aspekti tətbiq edilə bilər. Ərizəçinin məruz qaldığı məhdudiyyətlərin çoxu məhbusların Avropa Şurası tərəfindən tanınan hüquqları ilə əlaqədardır, həmin hüquqlar Nazirlər Komitəsinin tövsiyəsində təsbit olunmuş Avropa penitensiar qaydalarında öz əksini tapıb. Bu tövsiyə iştirakçı dövlətlər üçün məcburi qüvvəyə malik olmasa da, onların böyük

əksəriyyəti məhbusların tövsiyədə sadalanan hüquqların çoxuna malik olduqlarını qəbul edir və bu hüquqların pozulmasına qarşı şikayət verilməsi üçün hüquqi müdafiə vasitələrini təmin edirlər. Müvafiq olaraq bu işdə "hüquq" barəsində "mübahisənin" mövcud olduğunu əsaslı olaraq söyləmək olar. Bundan başqa, ərizəçinin qeyd etdiyi bəzi məhdudiyyətlər, məsələn, ailəsi ilə əlaqələrinin məhdudlaşdırılması və mülkiyyət hüquqlarına müdaxilə edilməsi, şübhəsiz ki, şəxsi hüquqlar sahəsinə aiddir və mülki hüquqi xarakterli məhdudiyyətlərdir. Çətin həbsxana şəraitində təhlükəsizliyin təmin edilməsində dövlətlərin geniş qiymətləndirmə sərbəstliyinin qorunub saxlanılması mühüm əhəmiyyət daşıyır. Bununla belə, yuxarıdakı mülki hüquqlara təsir göstərən istənilən məhdudiyyətlər onların xarakteri və mümkün nəticələri nəzərə alınmaqla məhkəmə qaydasında yoxlanılmalıdır. Bu yolla bir tərəfdən həbsxana kontekstində dövlətin qarşılaşdığı problemlər, digər tərəfdən isə məhbusların hüquqlarının müdafiəsi arasında ədalətli balansa riayət edilməsinə nail olmaq olar. Müvafiq olaraq, bu şikayət mahiyyətinə görə (*ratione materiae*) Konvensiya müddəalarına uyğundur, çünki Konvensiyanın 6-cı maddəsinin mülki hüquqi aspektinə aiddir.

***Nəticə*:** şikayət qəbul ediləndir (bir səsə qarşı on altı səslə).

ii) Şikayətin mahiyyəti: Baxmayaraq ki, məhbus həqiqətən güclü nəzarət rejimi blokunda saxlanılması barədə qərarın mahiyyətindən şikayət verə bilməzdi, mülki hüquqlara qoyulan istənilən məhdudiyyətdən (məsələn, məhbusun ailəsi ilə görüşlərinə və ya yazışmalarına aid məhdudiyyətlər) cəzaların icrası məsələlərinə baxmaq səlahiyyəti olan məhkəmələrə şikayət vermək olardı. Hazırkı işdə ərizəçinin bu bloka köçürülməsi hər hansı belə məhdudiyyətə səbəb olmadığına görə, hətta bu cür hüquqi müdafiə vasitəsinin olmamasına məhkəməyə müraciət hüququnun rədd edilməsi kimi baxmaq olmaz.

***Nəticə*:** pozuntu baş verməyib (yekdilliklə).

**Maddə 8:** a) 1994-cü ilin avqustundan 2004-cü ilin iyulunadək olan dövr – Bu dövrdə ərizəçinin yazışmalarının toxunulmazlığı hüququna dövlət orqanı tərəfindən müdaxilə baş vermişdi. 1994-cü ilin avqustundan 2004-cü ilin iyulunadək ərizəçinin yazışmalarına nəzarət edilməsi qanuna uyğun deyildi, çünki bu işdə tətbiq edilmiş qanunvericilikdə nə bu tədbirin müddəti, nə də onun tətbiqinə haqq qazandıran əsaslar tənzimlənmirdi, həmçinin səlahiyyətli orqanlar tərəfindən tətbiq edilən diskresion səlahiyyətlərin hüdudları və tətbiq edilmə üsulları göstərilmirdi. Məhkəmə bütün məhbuslar üçün ən azı demokratik cəmiyyətdə qanunun aliliyi prinsipinə uyğun olaraq vətəndaşların malik olduğu minimal müdafiənin təmin edilməsinə yönələn

özünün mövcud presedent hüququndan bu işdə kənarlaşmaq üçün heç bir əsas görmür.

***Nəticə*:** pozuntu baş verib (yekdilliklə).

b) 2004-cü ilin iyulundan sonrakı dövr – 2004-cü ilin iyulundan ərizəçinin cəzasının icrasının dayandırılması barədə qərarın çıxarıldığı tarixədək olan dövrə gəlincə, Məhkəmə sadəcə qeyd etdi ki, işin materialları arasında ərizəçinin iddialarını təsdiq edən heç bir sənəd yoxdur.

***Nəticə*:** pozuntu baş verməyib (yekdilliklə).

**Maddə 41:** Pozuntunun müəyyən edilməsi faktının özü mənəvi ziyana görə yetərli kompensasiya təşkil edir.

≈ ≈ ≈

**4. *Avropa Məhkəməsinin Andreyeva Latviyaya qarşı [Böyük Palata] (Andrejeva v. Latvia [GC])* (ərizə № 55707/00) *18 fevral 2009-cu il tarixli qərarından***

**Maddə 14**

*Ayrı-seçkilik*

Ərizəçinin yaşa görə pensiyası hesablanarkən keçmiş Sovet İttifaqında uzun illər ərzində işləməsinin Latviya vətəndaşı olmaması səbəbindən nəzərə alınmaması: *pozuntu baş verib.*

*Faktlar* – Ərizəçi ilk dəfə Latviya ərazisinə 1954-cü ildə 12 yaşında ikən gəlmişdi, həmin vaxt Latviya Sovet İttifaqının tərkibində idi. Həmin vaxtdan bəri o, bu ərazidə daimi yaşayırdı. Əvvəllər keçmiş SSRİ vətəndaşı olmuş ərizəçi hazırda Latviyada daimi yaşayan qeyri-vətəndaş statusuna malikdir. 1966-cı ildə o, Olayne kimya kompleksinin emal zavodunda işləməyə başladı, bu müəssisə vaxtı ilə SSRİ Kimya Sənayesi Nazirliyinin tabeliyində olmuş dövlət müəssisəsi idi. Kompleksi SSRİ ərazisində yerləşirdi və sonradan həmin ərazi Latviya ərazisi oldu. 1981-ci ilədək ərizəçi həmin dövlət müəssisəsi ilə əmək münasibətlərində idi və müəssisənin baş idarəsi Kiyevdə yerləşirdi. Sonralar onu müəssisənin başqa bölməsinə keçirdilər, bu bölmənin baş idarəsi isə Moskvada yerləşirdi. Ərizəçinin əmək haqqı əvvəlcə Kiyevdən, sonra isə Moskvadan poçt köçürmələri vasitəsilə ödənilsə də, bu hal onun əmək şərtlərinə təsir göstərmədi, çünki o, eyni emal zavodunda işləməkdə davam edirdi. 1990-cı ilin noyabrında Latviyanın müstəqilliyi elan edildikdən sonra ərizəçi birbaşa zavodun müdiriyyətinin tabeliyinə keçdi. 1997-ci ildə pensiyaya çıxarkən ərizəçi yerli sosial sığorta orqanından onun pensiya məbləğinin müəyyənləşdirilməsini xahiş etdi. Ona məlumat verdilər ki, "Dövlət pensiyaları haqqında" Qanunun keçid müddəalarının 1-ci bəndinə

uyğun olaraq, əcnəbi vətəndaşlara və ya vətəndaşlığı olmayan şəxslərə pensiyalar təyin edilərkən yalnız 01 yanvar 1991-ci ilədək Latviya ərazisində yaşamış və işləmiş şəxslərin əmək stajı nəzərə alınır. Ərizəçi 01 yanvar 1973-cü ildən 21 noyabr 1990-cı ilədək Kiyev və Moskvada yerləşən təşkilatlarda işlədiyinə görə sosial sığorta orqanı onun pensiya məbləğini yalnız bu təşkilatlarda işlədiyi dövrdən əvvəlki və sonrakı dövrlər üçün müəyyənləşdirdi. Nəticədə ona 20 lat məbləğində aylıq pensiya təyin edildi (təxminən 35 avro). Ərizəçi bu qərardan şikayət edərək inzibati və məhkəmə icraatına başladı. Yekunda prokuror tərəfindən Ali Məhkəmənin Senatına hüquqi məsələlərlə bağlı təqdim edilmiş kassasiya protesti 06 oktyabr 1999-cu ildə açıq məhkəmə iclasında rəd edildi. Senat rayon məhkəməsinin və regional məhkəmənin gəldiyi bu nəticəni təsdiq etdi ki, ərizəçinin Ukrayna və Rusiya təşkilatları ilə əmək münasibətlərində olduğu dövr pensiyanın hesablanmasında nəzərə alına bilməz. Bundan başqa, o, qeyd etdi ki, həmin işəgötürənlər Latviyada vergi ödəyicisi olmadıqlarına görə onları Latviyanın məcburi sosial sığorta sisteminə aid etmək üçün əsas yoxdur. Ərizəçi işinə yenidən baxılması üçün vəsatət verdi, çünki 06 oktyabr 1999-cu il tarixli məhkəmə iclası planlaşdırılan vaxtdan tez başladığına görə o, həmin iclasda iştirak edə bilməmişdi. Bu vəsatət də rədd edildi. 2000-ci ilin fevralında ərizəçiyə məlumat verdilər ki, Latviya ilə Ukrayna arasında bağlanmış sazişə əsasən 01 noyabr 1999-cu ildən onun pensiyasının yenidən hesablanması həyata keçiriləcək və onun Ukraynada yerləşən işəgötürənlə əmək münasibətləri onun əmək stajına hesablanacaq.

*Hüquqi məsələlər* – 1 saylı Protokolun 1-ci maddəsi ilə birgə götürülməklə 14-cü maddəyə riayət edilib-edilməməsi məsələsi: 1 saylı Protokolun 1-ci maddəsinin bu işə tətbiqinin mümkünlüyü məsələsinə gəlincə, hökumət həmrəylik prinsipi əsasında ümumi büdcə vəsaitləri hesabına dövlət tərəfindən ödənilən sovet pensiyaları sistemi ilə 1991-ci ildən tədricən tətbiq edilməyə başlamış sistem arasındakı fərqə xüsusi əhəmiyyət verdi, sonuncu sistem hər bir sığorta olunan şəxsin sığorta ödəmələri hesabına formalaşır. Lakin Məhkəmə qeyd etdi ki, dövlət pensiya sistemini yaratdıqda həmin sistemdən irəli gələn fərdi hüquqlar və maraqlar, bu sistemin maliyyələşdirilməsinə haqq ödənilib-ödənilməməsindən asılı olmayaraq, 1 saylı Protokolun 1-ci maddəsinin tətbiq dairəsinə düşür. Bundan başqa, dövlət öz ərazisi xaricindəki əmək fəaliyyəti dövrünə görə fərdlərə pensiya ödəmək barədə öz mülahizəsi əsasında qərar çıxarırsa və bununla da öz milli qanunvericiliyində kifayət qədər aydın hüquqi baza yaradırsa, belə ödəmələri almaq hüququ da 1 saylı Protokolun 1-ci maddəsinin tətbiq dairəsinə düşür.

Ərizəçinin işində "Dövlət pensiyaları haqqında" Latviya Qanununun keçid müddəalarında 1991-ci ilədək keçmiş SSRİ ərazisindəki əmək fəaliyyətinin ümumi müddəti ərzində hər hansı sığorta haqqının ödənilməsindən asılı olmayaraq yaşa görə pensiya hüququ nəzərdə tutulmuşdu, amma bu hüquq yalnız Latviya vətəndaşları üçün idi. Buna görə də ərizəçinin bu dövrdəki əmək fəaliyyətinin nəzərə alınmamasının yeganə səbəbi bu idi ki, o, Latviya vətəndaşı deyildi. Təkcə bu fakt Məhkəmənin belə nəticəyə gəlməsi üçün kifayətdir ki, ərizəçinin maddi kompensasiya tələbi də 1 saylı Protokolun 1-ci maddəsinin tətbiq dairəsinə düşür.

İşin mahiyyətinə gəlincə, Məhkəmə xatırlatdı ki, ərizəçi onunla fərqli rəftar edildiyini sübuta yetirdiyinə görə Hökumət bu fərqin əsaslı olduğunu sübut etməlidir. Ərizəçinin işində fərqli rəftar ən azı Konvensiyanın ümumi məqsədlərinə uyğun olan bir qanuni məqsəd daşıyırdı, yəni ölkənin iqtisadi sisteminin müdafiəsinə yönəlmişdi. Məhkəmə həmçinin bu məqsədin və ona nail olmaq üçün istifadə edilmiş vasitələrin mütənasibliyi məsələsini araşdırmalıdır. Milli hakimiyyət orqanlarının ərizəçinin "Latviya ərazisi xaricindəki" əmək fəaliyyətini əmək stajına daxil etməkdən imtina etmələri yalnız ərizəçinin vətəndaşlığının olmamasına əsaslanırdı, belə ki, heç bir şübhə yox idi ki, ərizəçi ilə eyni vəziyyətdə olan, eyni dövrdə eyni müəssisədə işləmiş Latviya vətəndaşı yaşa görə pensiyanın mübahisəli hissəsini almaq hüququna malik idi.

Bundan başqa, tərəflər razılaşdılar ki, ərizəçi naturalizasiya yolu ilə Latviya vətəndaşlığı almış şəxs olsaydı, əmək fəaliyyətinin bütün dövrlərinə görə pensiya məbləğlərini avtomatik olaraq alacaqdı. Məhkəmə qeyd etdi ki, yalnız vətəndaşlıq əlamətinə əsaslanan fərqli rəftarın Konvensiyaya uyğun hesab edilməsi üçün olduqca əsaslı səbəblər göstərilməlidir, amma o, ərizəçinin işində bu səbəbləri görmür. Birincisi, ərizəçinin statusunun qanunvericilikdə nəzərdə tutulan, əmək fəaliyyətinin bütün dövrlərinə görə pensiya almaq hüququ verən digər şərtlərə cavab vermədiyi sübut olunmayıb və ya iddia edilməyib. Buna görə də onun situasiyası eyni və ya analoji əmək bioqrafiyasına malik olan, lakin 1991-ci ildən sonra Latviya vətəndaşı kimi tanınan şəxslərin situasiyası ilə obyektiv olaraq eyni idi. İkincisi, sovet dövründə keçmiş SSRİ vətəndaşları ilə pensiya hüquqları baxımından fərqli rəftar edildiyinə dair hər hansı sübut yoxdur. Üçüncüsü, ərizəçi başqa dövlətin vətəndaşı deyildi və Latviyada "daimi yaşayan qeyri-vətəndaş" statusuna malik idi, bu ölkə ilə onun stabil hüquqi əlaqələri vardı və bu ölkə onun sosial təminatına görə məsuliyyəti obyektiv olaraq öz üzərinə götürə bilərdi. Belə olan halda hökumətin irəli sürdüyü arqumentlər Məhkəməni buna inandırmaq

üçün yetərli deyil ki, ərizəçinin işində barəsində etiraz edilən fərqli rəftarın 14-cü maddənin tələblərinə uyğun olduğu qənaətinə gəlmək üçün "ağlabatan mütənasiblik əlaqəsi" mövcud idi. Əmək fəaliyyətinin müəyyən dövrünün ümumi staja daxil edilməsi məsələsinin ilk növbədə dövlətlər arasında sosial təminat haqqında ikitərəfli sazişlərlə tənzimlənməli olduğu barədə hökumətin rəyinə baxmayaraq, Məhkəmə xatırlatdı ki, Konvensiyanı ratifikasiya etməklə Latviya "yurisdiksiyasında olan hər kəsin" Konvensiya ilə təmin edilən hüquq və azadlıqlarını təmin etməyi öhdəsinə götürüb. Müvafiq olaraq, Latviya ilə Ukrayna və Latviya ilə Rusiya arasında dövlətlərarası sazişin olmaması Latviya dövlətini Konvensiyanın 14-cü maddəsi üzrə daşıdığı məsuliyyətdən azad edə bilməz. Məhkəmə həmçinin hökumətin bu arqumentini qəbul edə bilməz ki, pensiyasını tam məbləğdə alması üçün ərizəçinin naturalizasiya yolu ilə Latviya vətəndaşlığı alması kifayət idi. 14-cü maddə ilə ayrı-seçkiliyə qoyulan qadağanın yalnız o halda mənası ola bilər ki, ərizəçinin fərdi situasiyası olduğu kimi qəbul edilsin.

***Nəticə*:** pozuntu baş verib (bir səsə qarşı on altı səslə).

Maddə 6 – Məhkəmə həmçinin qeyd etdi ki, bu işdə hüquqi məsələlərlə əlaqədar kassasiya protesti ərizəçi və ya onun vəkili tərəfindən deyil, Riqa regional məhkəməsi yanında fəaliyyət göstərən prokuror tərəfindən verilmişdi. Hökumət iddia etdi ki, prokurorun ərizəçinin lehinə çıxış etməsi Senatı ərizəçinin iclasda şəxsən iştirak etməsini təmin etmək vəzifəsindən azad etmişdi. Bu arqument Məhkəməni inandırmadı, xüsusən ona görə ki, Latviya qanunvericiliyi prokurorun tərəflərdən birini təmsil etməsinin və ya məhkəmə iclasında onu əvəz etməsinin mümkünlüyü barədə nəticə çıxarmağa imkan vermir. Ərizəçi öz tələbi əsasında başlanmış inzibati prosesdə tərəf idi. Müvafiq olaraq, işin əsas iştirakçısı kimi o, çəkişmə prinsipindən irəli gələn bütün hüquqlara malik olmalı idi. Kassasiya protestinin prokurorluq tərəfindən verilməsi faktı ərizəçinin öz işinə baxılmasında iştirak etmək hüququnu heç bir halda məhdudlaşdırmır, lakin o, bu hüququnu həyata keçirmək istəsə də buna imkan yaradılmadı.

***Nəticə*:** pozuntu baş verib (yekdilliklə).

Maddə 41 – Ərizəçiyə dəymiş bütün ziyana görə 5.000 avro kompensasiya təyin edildi.

*Mənbə: Avropa Məhkəməsinin Hudoc məlumat bazasının rəsmi internet səhifəsinin (http://hudoc.echr.coe.int/) materialları əsasında hazırlanmışdır.*



# NƏZƏRİYYƏ VƏ HÜQUQTƏTBİQETMƏ PROBLEMLƏRİ

***Səxavət Bəylərli***
*Naxçıvan Muxtar Respublikası*
*Ali Məhkəməsinin hakimi*

## Mənzildən istifadə hüququnun həyata keçirilməsinin bəzi xüsusiyyətləri haqqında

Yaşayış yeri, mənzil, isti ocaq hər bir insanın həyatda malik olmaq istədiyi ən zəruri maddi dəyərlərdəndir. Beşikdən məzaradək dünyanın hər bir sakini öz mövcudluğunu təmin etmək üçün ömrü boyu zəruri qida ilə yanaşı yaşayış yeri də əldə etmək üçün çalışır.

İnsanların hər birinin yaşayış yeri ilə təmin edilməsi məsələsi nəinki onların özlərinin, həm də onların mənsub olduğu dövlətin əsas qayğılarından biri sayılır. Azərbaycan Respublikasının Konstitusiyasının 43-cü maddəsinin II hissəsinə görə dövlətimiz yaşayış binalarının və evlərin tikintisinə rəvac verir, insanların mənzil hüququnu gerçəkləşdirmək üçün xüsusi tədbirlər görür. Başqa sözlə, dövlət hər bir vətəndaşın zəruri ölçüdə yaşayış sahəsinə malik olmasında maraqlıdır.

*1. Mənzildən istifadə hüququnun anlayışı, bunun vətəndaşların öz hüquq və mənafelərini həyata keçirməsindəki əhəmiyyəti*

İstifadə hüququ mülkiyyət hüququnun bir elementi olub əmlakdan (əşyadan) onun faydalı təbii xassələrini hasil etməyin, habelə ondan fayda götürməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır.

Mənzildən, yəni yaşayış sahəsindən istifadə etmək hüququ Konstitusiyanın 43-cü maddəsi ilə müəyyən olunmuş mənzil hüququnun bir elementi kimi çıxış edir və eyni zamanda həm Mənzil Məcəlləsi, həm də Mülki Məcəllə ilə tənzimlənir.

Mənzil hüququ hər bir şəxsin malik olduğu yaşayış sahəsindən daimi istifadə etmək, müxtəlif mənzil fondlarına aid olan binalarda yaşayış şəraitinin yaxşılaşdırılmasını tələb etmək və məskunlaşdıqları yerlərdə sağlam yaşayış mühiti ilə təmin olunmaq hüquqlarını özündə ehtiva edir.

Mənzil dedikdə, insanların daimi və ya müvəqqəti yaşayış üçün təyin olunmuş və ya yaşayış üçün uyğunlaşdırılmış hər cür yaşayış sahəsi nəzərdə

tutulur. Mənzil sahəsinə yaşayış otaqları, ümumi istifadə yerləri (dəhliz, tualet, hamam, eyvan, zirzəmi, mətbəx), təsərrüfat təyinatlı tikililər, bağ evləri və s. aiddir.

Yeni Mülki Məcəllə yaşayış evlərini, mənzilləri və otaqları tam vahid halda əhatə etmək üçün yaşayış binası kimi ümumiləşdirilmiş anlayışdan istifadə edir. Yaşayış binasının tərkib hissələri dedikdə isə ondakı ayrı-ayrı mənzillər və otaqlar başa düşülür.

Aydındır ki, yaşayış sahəsinin əsas təyinatı insanların həmin sahədə yaşamaqla ondan istifadə etmələridir. Məhz bu səlahiyyət əsasında insanlar mənzildən istifadə etməklə öz maddi və mənəvi tələbatlarını ödəyirlər.

Mülkiyyət hüququ və mülkiyyətçi olmayan şəxslərin mənzildən istifadə hüququ vahid əşya hüququnun müxtəlif kateqoriyaları sayılır. Hər hansı mənzilin mülkiyyətçisi və həmin mənzilin mülkiyyətçisi olmayan istifadəçi mənzilin eyni zamanda onların hər ikisinə məxsusluğundan danışa bilərlər. Həqiqət də belədir. Çünki məxsusluq mülkiyyət hüququ ilə istifadə hüququnun əsas birləşdirici elementidir. Lakin bu məxsusluğun dərəcəsi onların hər ikisində eyni deyil.

İstifadəçidən fərqli olaraq mülkiyyətçi əmlak üzərində sahiblik, istifadə və sərəncam hüquqlarına tam həcmdə malikdir. İstifadə hüququnun subyektinin isə mənzildən istifadəsinin həcmi qanunla və mülkiyyətçinin iradəsi ilə məhdudlaşır. Bu səbəbdən də mənzildən istifadəçilər qanunvericilikdə “özgənin daşınmaz əşyasından məhdud istifadə hüququ olan şəxslər” adlanırlar.

01 oktyabr 2009-cu il tarixdə qüvvəyə minmiş yeni Mənzil Məcəlləsinin 15-ci maddəsinə görə yaşayış sahəsindən istifadə həmin yaşayış sahəsində yaşayan şəxslərin, qonşuların hüquqlarına və qanuni mənafelərinə, yanğın təhlükəsizliyi tələblərinə, sanitariya-gigiyena, ekoloji tələblərə və qanunvericiliyin digər tələblərinə riayət edilməklə həyata keçirilməlidir.

*2. Mənzildən istifadə hüququ qanunvericiliklə necə tənzimlənir, xüsusilə də 2000-ci ildən əvvəlki qanunvericilikdən fərqli hansı qaydalar nəzərdə tutulur?*

Məlumdur ki, 01 oktyabr 2009-cu il tarixə qədər 8 iyul 1982-ci il tarixdə qəbul olunmuş Mənzil Məcəlləsi qüvvədə olmuşdur. Həmin Mənzil Məcəlləsi ilə həm dövlət mənzil fondunda olan, yəni xüsusi mülkiyyətdə olmayan evlərlə bağlı, həm də dövlət mülkiyyətində hesab olunmayan evlərlə bağlı normalar nizama salınırdı. Həmin Məcəllənin qüvvədə olduğu müddətdə onun 60-cı maddəsi ilə bağlı çox sayda problemlər ortaya çıxmışdı. Belə ki, qeyd olunan maddənin məzmununa görə bəzi istisnalarla, ev sakini 6

aydan artıq müddətdə mənzildə yaşamırdısa, artıq mənzildən istifadə hüququ itirilirdi. Məsələn, azadlıqdan məhrum etmə cəzasına məhkum olunan şəxslər 6 aydan artıq müddətdə özündən asılı olmayan səbəbə görə mənzildən yaşayış yeri kimi istifadə etmirdilərsə, bu halda onlar mənzillə bağlı əmlak hüquqlarını itirirdilər.

Nəhayət, 12 mart 1999-cu il tarixdə Konstitusiya Məhkəməsi bununla bağlı qərar qəbul edərək izah etdi ki, Mənzil Məcəlləsinin 60-cı maddəsində nəzərdə tutulan müddəalar cinayət təqibi qaydasında cəza kimi nəzərdə tutulmur. Yəni əgər azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş şəxs mənzillə bağlı hüququndan da məhrum edilərsə, onda belə çıxır ki, bu cinayət əməlinə görə ayrıca bir cəzadır. Qeyd olunan qərarla müəyyən edildi ki, şəxsin müəyyən müddətə daimi qeydiyyatda olduğu yerdə yaşamamağı, ancaq o hallarda mənzilə olan hüququn itməsinə səbəb ola bilər ki, Mənzil Məcəlləsinin 87-ci maddəsində nəzərdə tutulmuş əsaslar olsun, yəni şəxs daimi yaşamaq üçün başqa ünvana və yaxud digər yaşayış məntəqəsinə köçüb getmiş olsun.

2000-ci ilin sentyabr ayının 1-nə qədər dövlət mənzil fonduna aid yaşayış evlərində yaşayış sahəsinə malik olmaq hüququ ancaq köhnə Mənzil Məcəlləsinin 53-54-cü maddələrində nəzərdə tutulan şəxslər üçün tanınırdı. İcarədarın, yəni dövlət mənzil fondu evlərindən icarə müqaviləsi əsasında yaşayış sahəsi verilmiş şəxsin ailə üzvləri onun arvadı (əri), onların uşaqları və valideynləri hesab olunurdu. İcarədar ilə birlikdə yaşayıb onunla ümumi təsərrüfatı aparan digər şəxslər də icarədarın ailə üzvləri hesab edilə bilərdi. Belə hesab olunurdu ki, icarədar ilə bu vəziyyətdə yaşayan şəxslərin artıq həmin mənzilə hüquqları yaranır. Həmçinin dövlət mülkiyyətində olmayan şəxsi evlər barəsindəki köhnə Mənzil Məcəlləsinin 123-cü maddəsi bu məsələni oxşar şəkildə tənzimləyirdi. Həmin maddəyə görə yaşayış evi mülkiyyətçisinin özünə məxsus olan evə köçürdüyü ailə üzvləri onların köçməsi zamanı başqa qeyd-şərt göstərilməmişsə, evdə yaşayış sahəsindən onunla bərabər istifadə etmək ixtiyarına malik idilər. Həmin şəxslərin yaşayış sahəsindən istifadə hüququ yaşayış evinin mülkiyyətçisi ilə ailə münasibətlərinə xitam verildiyi halda da saxlanılırdı.

Azərbaycan Respublikasının 01 sentyabr 2000-ci il tarixdən qüvvəyə minən Mülki Məcəlləsi isə mənzildən istifadə hüququ ilə bağlı yeni, fərqli qaydalar müəyyən etdi.

Belə ki, həmin Məcəllənin 228.1 və 228.2-ci maddələri ilə müəyyən edildi ki, mülkiyyətçi ilə birlikdə yaşayan ailə üzvləri və digər şəxslər yaşayış binasının tərkib hissəsindən istifadə etmək, yəni orada yaşamaq hüququna bu

şərtlə malikdirlər ki, həmin hüququn əmələ gəlməsi, həyata keçirilməsi şərtləri və xitamı barədə istifadəçi ilə mülkiyyətçi arasında notariat qaydasında təsdiqlənən razılaşma əldə olunsun və həmin hüquq daşınmaz əmlakın dövlət reyestrində qeydə alınsın. Deməli, əgər belə bir razılaşma yoxdursa, bu hüquq yaranmır.

Lakin yeni qaydaların qəbul edilməsi müəyyən məqamlarda mülkiyyət hüququ ilə mənzil hüququ arasında yaranan kolliziyaya (toqquşmaya) son qoymadı.

Anlaşılmazlıq bundan ibarət idi ki, mənzildən istifadə hüququ ilə bağlı münasibətlərə Mənzil Məcəlləsininmi, yoxsa yeni Mülki Məcəlləninmi normaları tətbiq olunmalıdır.

Başqa bir təzad bu idi ki, mülkiyyətçinin bütün ailə üzvlərinin və digər şəxslərin mənzildən istifadə hüququnun yaranması üçün bu barədə onlarla mülkiyyətçi arasında notarial qaydada təsdiqlənmiş yazılı razılaşmanın olması yeganə və məcburi şərt kimi nəzərdə tutulurdu. Bu hüququn tanınması üçün "digər şəxslərdən" belə razılığın tələb edilməsi başa düşülən idisə, mülkiyyətçinin yaxın qohumlarından belə razılığın tələb edilməsi anlaşılan deyildi. Belə görünürdü ki, mənzilin mülkiyyətçisi olan valideynin evində doğulub boya-başa çatmış övlad həmin evdən istifadə hüququ əldə etmək üçün öz atası (anası) ilə bu barədə notariat qaydasında təsdiq olunmuş yazılı razılaşma əldə etməlidir. Bu tələb isə nə Azərbaycan xalqının milli mentalitetinə, nə müsəlman ailəsinin cəmiyyətdə formalaşmış statusuna, nə də adətlərimizə uyğun olmadığından bütövlükdə 228-ci maddə işləməyən bir normaya çevrilmişdi və bu səbəbdən də məhkəmələr həmin qaydaların tətbiqinə üstünlük vermirdilər.

Sadalanan anlaşılmazlıqlar Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin 27 iyul 2001-ci il tarixli qərarı və Mülki Məcəlləyə 21 oktyabr 2005-ci il tarixdə 228.5-ci maddənin əlavə edilməsi ilə aradan qaldırıldı.

Konstitusiya Məhkəməsi tərəfindən izah olundu ki, 2000-ci il sentyabrın 1-dən sonra yaşayış evindən (mənzildən) istifadə edilməsi ilə əlaqədar yaranan hüquq münasibətləri ilə bağlı mübahisələr Mülki Məcəllənin 228.1 və 228.2-ci maddələrinin qaydalarına uyğun, bu tarixədək yaranmış hüquq münasibətləri ilə bağlı mübahisələr isə Mənzil Məcəlləsinin 123-cü maddəsinin qaydalarına uyğun həll edilməlidir. Bütün hüquq sistemlərində bu belə tənzimlənir ki, mübahisəli hüquq münasibətinin yarandığı vaxt qüvvədə olan maddi hüquq normaları tətbiq olunur.

Mülki Məcəllənin 228.5-ci maddəsi ilə isə müəyyən olundu ki, yaşayış binasının tərkib hissəsinin mülkiyyətçisinin onunla birgə yaşayan ailə üzvləri

(əri, arvadı, valideynləri, uşaqları) yaşayış sahəsindən onunla bərabər istifadə etmək hüququna malikdirlər. Yaşayış binasının tərkib hissəsinin mülkiyyətçisinin ailə üzvləri öz yetkinlik yaşına çatmayan uşaqlarını həmin yaşayış binasına köçürmək ixtiyarına malikdirlər. Digər ailə üzvlərinin (ərin, arvadın, yəni kürəkənin, gəlinin) köçürülməsinə yalnız mülkiyyətçinin razılığı ilə yol verilir.

*3. Mənzildən istifadə hüququnun subyekti kimi yeni yaşayış sahəsinə köçən gəlinin hüquqi vəziyyəti qanunvericiliklə necə tənzimlənir?*

Hazırda məhkəmələrin ən çox qarşılaşdığı hal ailə qurduqdan sonra valideyn evindən ərin yaşadığı evə köçüb gedən gəlinlərlə bağlı haldır. Burada gəlinin getdiyi evin (mənzilin) kimin mülkiyyətində olmasından asılı olaraq onun hüquqi vəziyyəti 2 qaydada ola bilər.

Birinci halda hesab edək ki, gəlin ərinin valideynlərinin və ya digər yaxın qohumlarının mülkiyyətində olan mənzilə köçüb onlarla birlikdə həmin mənzildə yaşamışdır. Müəyyən bir müddət ərzində ər evində yaşadıqdan sonra müxtəlif səbəblərdən mübahisə yarandıqda və bu mübahisə nikahın pozulmasına gətirib çıxaranda, artıq gəlinin bu mənzildə qalıb-qalmaması məsələsi qarşıya çıxır. Bu cür mübahisənin məhkəmə qaydasında həlli üçün məhkəməyə müraciət olunanda yuxarıda qeyd etdiyimiz mənzildən istifadə ilə bağlı müqavilənin mövcudluğu tələb olunur. Həmin müqavilə varsa, onda əlbəttə ki, mənzildən istifadə hüququn da var, belə bir müqavilə yoxdursa, onda istifadə hüququn da yoxdur. Məsələn, qadın nikaha daxil olduqdan bir müddət sonra mübahisə yaranır və onun gəlin köçdüyü yaşayış sahəsindən çıxarılması ilə bağlı bir məsələ əmələ gəlir. Bu halda vəziyyəti nəzərdən keçirək. Evdən çıxarılma məsələsi ilə qarşılaşan bu qadın artıq əvvəlki ata evində yaşamır, yəni daimi yaşamaq üçün ərinin valideynlərinin evinə köçübdür. Belə olan halda Mülki Məcəllənin 228.1 və 228.2-ci maddələrində nəzərdə tutulan qaydada müqavilə bağlanmayıbsa, onun köçdüyü evdə istifadə hüququ əmələ gəlmir. Həmçinin, digər tərəf, yəni ata evi tərəfi də, məsələ qaldıra bilər ki, onun köçüb getdiyi ata evində də istifadə hüququ yoxdur. Deməli, bu gəlin həm ər evində, həm də ata evində yaşama hüququndan məhrum olur. Göstərdiyimiz misalda gəlin ərinin valideynlərinin evində onsuz da belə bir hüquq əldə etməyib, ata evindəki olan hüququ da itirilibdir. Ona görə də təcrübədə belə çətinliklərin yaranmasının əsas səbəbi tərəflər arasında bu məsələyə dair müqavilənin olmamasıdır.

Hazırda tərəflər arasında bu məsələyə dair müqavilənin bağlanması problemdir. Çünki, bu məsələ başlayanda demək olar ki, əksəriyyət vurğuladı ki, məsələnin bu cür tənzimlənməsi bizim mentalitetimizə uyğun deyil. Belə

ki, tərəflər nikaha daxil olanda qadın mülkiyyətçi olan qayınata və ya qayınanaya, müraciət etməlidir ki, notariusda müqavilə bağlansın. Yəni belə çıxır ki, belə bir müqavilə bağlamaq təklifi əvvəlcədən bu ailənin etibarlılığına, davamlı olacağına inamın olmaması mənasına gəlir. Lakin əgər qanun qüvvədədirsə deməli icra olunmalıdır, başqa yolu yoxdur.

İkinci halda, hesab edək, gəlin ərinin öz mülkiyyətində olan mənzilə köçüb, müəyyən bir müddət ərzində onunla birgə həmin mənzildə yaşayıbdır. Hər hansı bir səbəbdən, məsələn, dünyagörüşləri və ya həyata baxışları fərqli olduğundan onların arasında bağlanmış nikah pozulduqda, yenə də həmin gəlinin bu mənzildə qalıb-qalmaması məsələsi mübahisə olunur. Bu cür mübahisənin məhkəmə qaydasında həlli üçün məhkəməyə müraciət olunanda artıq yuxarıda qeyd etdiyimiz mənzildən istifadə ilə bağlı müqavilənin mövcudluğu tələb olunmur. Məsələyə bu cür yanaşma Konstitusiya Məhkəməsi Plenumunun "S.Süleymanovanın şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki işlər üzrə məhkəmə kollegiyasının 01 oktyabr 2009-cu il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" 02 aprel 2010-cu il tarixli qərarındakı hüquqi mövqeyindən və izahından sonra formalaşmışdır. Belə ki, Konstitusiya Məhkəməsi həmin qərarında müəyyən etdi ki, mülkiyyətçi ilə birgə yaşayan ailə üzvlərinin yaşayış binasının tərkib hissəsindən onunla bərabər istifadə hüququ mülkiyyətçi ilə bağlanan müqavilə ilə deyil, yalnız onunla etibarlı ailə əlaqələri əsasında yaranır.

Bir məsələ də qeyd edilməlidir ki, yeni Mənzil Məcəlləsinin 30.4-cü maddəsinə görə əgər yaşayış sahəsinin mülkiyyətçisi ilə keçmiş ailə üzvü arasında başqa razılaşma yoxdursa, yaşayış sahəsinin mülkiyyətçisi ilə ailə münasibətlərinə xitam verildikdə, keçmiş ailə üzvünün həmin yaşayış sahəsindən istifadə hüququ saxlanmır. Yaşayış sahəsinin mülkiyyətçisinin keçmiş ailə üzvünün yaşayış sahəsini əldə etməyə və ya yaşayış sahəsindən istifadə hüquqlarını həyata keçirməyə əsasları olmadıqda, yaşayış sahəsinin mülkiyyətçisinin keçmiş ailə üzvünün maddi vəziyyəti və diqqətəlayiq digər hallar özünü yaşayış sahəsi ilə təmin etməyə imkan vermədikdə, keçmiş ailə üzvünün göstərilən mülkiyyətçiyə məxsus olan yaşayış sahəsindən müəyyən müddətə istifadə hüququ məhkəmənin qərarı əsasında saxlanıla bilər. Bu müddət başa çatdıqda, keçmiş ailə üzvünün yaşayış sahəsindən istifadə hüququna xitam verilir.

*4. Mülkiyyətçi digər şəxsin (bu təcrübədə daha çox gəlinlərlə bağlı olur) mənzildən istifadəsinə notarial qaydada təsdiqlənən razılıq verirsə, sonradan*

*bunun daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmasının əhəmiyyəti nədən ibarətdir?*

Əvvəla qeyd edilməlidir ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 139.1-ci maddəsinə görə mülkiyyət hüququ və daşınmaz əmlaka digər hüquqlar, bu hüquqların məhdudlaşdırılması, əmələ gəlməsi, başqasına keçməsi və xitamı daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmalıdır.

İkincisi, həmin Məcəllənin 228.1-ci maddəsində imperativ formada göstərilmişdir ki, yaşayış binasının tərkib hissəsi mülkiyyətçinin ailə üzvləri və digər şəxslər yaşayış binasından istifadə hüququna bu şərtlə malikdirlər ki, həmin hüquq daşınmaz əmlakın dövlət reyestrində qeydə alınsın. Bu qaydada qeydə alınmayan istifadə hüququnun heç bir hüquqi qüvvəsi yoxdur.

Yaşayış binasının tərkib hissəsindən istifadə hüququ göstərilən qaydada qeydə alınan şəxs, mülkiyyətçi də daxil olmaqla istənilən şəxsdən həmin yaşayış binasına olan hüququnun pozulmasını aradan qaldırmağı tələb edə bilər.

Mülki Məcəllənin 148.2-ci maddəsində də deyilir ki, daşınmaz əmlakın dövlət reyestrindəki qeydə əsaslanaraq mülkiyyət hüququ və ya daşınmaz əmlaka başqa hüquqlar əldə etmiş hər bir şəxsin bu hüquqları müdafiə edilməlidir.

Başqa sözlə desək, mənzildən istifadə hüququnun daşınmaz əmlakın dövlət reyestrində qeydə alınması gələcəkdə həmin mənzil barəsində hər hansı əqdin bağlandığı zaman istifadə hüququndan bəhrələnən şəxsin hüquqlarını pozulmaqdan qorumağa xidmət edir və onu mühafizə altına alır.

Yeri gəlmişkən qeyd olunmalıdır ki, hazırda qəsəbə və kənd yaşayış məntəqələrində olan evlərin, demək olar ki, əksər hissəsi daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmamışdır. Bu da həmin evlərlə bağlı mübahisələrə məhkəmələrdə baxılarkən çətinliklər törədir. İnzibati ərazi dairələri üzrə nümayəndəliklərdə aparılan təsərrüfatbaşına kitablarda həmin evlərin qeydə alınması isə müvafiq reyestrdə qeydə alınmanı əvəz etmir. Deməli, həmin evlərə vətəndaşların mülkiyyət hüququ "*de-jure*" yaranmır. Hazırda həmin evlərin daşınmaz əmlakın dövlət reyestrində qeydə alınması həyata keçirilərsə, büdcəyə də xeyli miqdarda vəsait daxil olmuş olar.

*5. Kompensasiya (təzminat) ödənilməklə istifadə hüququna xitam verilməsi zamanı kompensasiya məbləği*

"Kompensasiya" latın sözü olub "ödəmə" deməkdir. Mülki hüquqda kompensasiya qarşılıqlı tələblərin ödənilməsi yolu ilə öhdəliklərin dayandırılması üsullarından biridir.

Əvvəlcədən qeyd olunmalıdır ki, kompensasiya verilməklə mənzildən istifadə hüququna xitam verilməsi aşağıdakı 3 halda mümkündür:

a) yaşayış evindən (mənzildən) istifadə edilməsi ilə əlaqədar münasibətlər 2000-ci il sentyabrın 1-dən əvvəl yarandıqda;

b) qeyd olunan tarixdən sonra indiyədək olan dövr üçün yaşayış evindən (mənzildən) istifadə edilməsi ilə əlaqədar Mülki Məcəllənin 228.1 və 228.2-ci maddələrində nəzərdə tutulmuş qaydada mülkiyyətçi ilə istifadəçi arasında müqavilə bağlandıqda;

c) mülkiyyətçi ilə birgə yaşayan ailə üzvlərinin yaşayış binasının tərkib hissəsindən onunla bərabər istifadə hüququ mülkiyyətçi ilə bağlanan müqavilə ilə deyil, yalnız onunla etibarlı ailə əlaqələri əsasında yarandıqda (Mülki Məcəllənin 228.5-ci maddəsi).

Mülki Məcəllənin 228.2-ci maddəsinə görə yaşayış binasının tərkib hissəsindən istifadə hüququna xitam verilməsi haqqında razılaşma olmadıqda, bu hüquqa mülkiyyətçinin məhkəmə qaydasında tələbinə əsasən bazar qiyməti ilə müvafiq kompensasiya verməsi yolu ilə xitam verilə bilər.

Bu normada kompensasiyanın verilməsindən bəhs edilsə də, kompensasiyanın hansı üsulla hesablanması və hansı məbləğdə verilməsi barədə nə göstərilən maddə, nə də Mülki Məcəllənin digər maddələri qaydalar müəyyən etmir.

Yalnız Konstitusiya Məhkəməsi Plenumunun "R.Ağalarovun şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki işlər üzrə məhkəmə kollegiyasının 31 mart 2006-cı il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" 26 sentyabr 2007-ci il tarixli qərarında belə bir izah verilmişdir ki, kompensasiya institutu istifadəçiyə mənzilin bölünməsi və onun dəyərindən müəyyən payın ödənilməsini tələb etmək hüququnu verməsə də, o, yaşayış sahəsindən istifadə etmək hüququnun adi xitamını deyil, onun elə bir əvəzləşdirilməsini nəzərdə tutur ki, mülkiyyətçinin hesabına istifadəçiyə davamlı surətdə və müəyyən müddət daxilində başqa yerdə əvvəlki mənzildə ona xas olmuş şəraitlə müqayisədə oxşar yaşamaq imkanı versin.

Kompensasiyanın məbləği ilə bağlı qanun müəyyən edir ki, mülkiyyətçinin tələbi ilə yaşayış sahəsindən istifadə hüququ olan şəxsə kompensasiya verilməklə onun hüquqlarına xitam verilir. Bununla bağlı təcrübədə nəyə rast gəlirik? Məsələn, mülkiyyətçi iddia ərizəsi ilə müraciət edib, xahiş edir ki, istifadə hüququ sahibinin bu hüququna xitam verilsin, ancaq kompensasiyanın məbləği barədə heç nə göstərmir. Məhkəmə də işi

icraata götürüb özü müəyyən edir ki, istifadəçiyə 5000 ya 10000 manat kompensasiya verilsin. Bu cür təcrübə tamamilə səhv təcrübədir, çünki burada yeganə məsələ mülkiyyətçinin tələbidir. Aydınlaşdırmaq lazımdır ki, mülkiyyətçi nəyi tələb edir və nəyi təklif edir? Bu yoxdursa, məhkəmə nəyi müzakirə edir, yəni məhkəmənin səlahiyyəti yoxdur ki, özü məbləğ müəyyən etsin. Məhkəmə yalnız verilmiş tələbə hüquqi münasibətini bildirməlidir. Məsələn, tələb və ya təklif edilir ki, 5000 manat kompensasiya verilsin, məhkəmə baxmalıdır ki, bu kompensasiya həmin hüquqa xitam verilməsi üçün kifayətdir, yoxsa kifayət deyil. Əgər kifayət deyilsə, deməli, bu tələb rədd olunmalıdır.

Bəzən elə olur ki, mülkiyyətçi ərizə verib tələb edir ki, 5000 manat kompensasiya verirəm, birinci instansiya məhkəməsi də bununla razılaşıb bu cür qərar qəbul edir. Apellyasiya şikayəti verildikdən sonra apellyasiya instansiyası məhkəməsi qərar qəbul edir ki, 5000 manat azdır, 7000 manat verilməlidir. Bu halda apellyasiya instansiyası məhkəməsi mülkiyyətçinin tələbindən kənara çıxaraq qanunsuz qərar qəbul edir. Bu isə mülkiyyətçinin hüququnun pozulması ilə nəticələnir.

Hazırda kompensasiya verilməklə istifadə hüququna xitam verilməsi bu vəziyyətdədir. Problem də ondan ibarətdir ki, bu gün qeyd olunan müqavilələr bağlanmır və artıq Mülki Məcəllənin qüvvəyə minməsindən 23 ildən artıq bir müddət keçməsinə baxmayaraq, bu cür müqavilələr çox azdır. Belə bir vəziyyətdə də ailə münasibətləri pozulanda mənzilə olan hüquq yaranmadığına görə istər 2 uşaq olsun, istər 5 uşaq olsun, mülkiyyətçinin tələbi ilə onlar heç bir kompensasiya ödənilmədən mənzildən çıxarılırlar.

*6.Yaşayış sahəsi mülkiyyətçisinin əmlakı özgəninkiləşdirdiyi zaman bunun istifadə hüququna və ya istifadə hüququnun mülkiyyətçinin sərəncam verməsinə təsiri*

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 228.4-cü maddəsində müəyyən olunur ki, yaşayış evinə və ya mənzilə mülkiyyət hüququnun keçməsi yaşayış binasının tərkib hissəsindən istifadə hüququna xitam verilməsi üçün əsas deyildir. Məsələn, deyək ki, yaşayış sahəsinin mülkiyyətçisi dəyişir, mənzili ya alqı-satqı yolu ilə kiməsə satır və ya kiməsə bağışlayır. Yaşayış sahəsinin yeni mülkiyyətçisi dərhal tələb irəli sürür ki, yaşayış sahəsi ilə bağlı əvvəllər əmələ gəlmiş olan istifadə hüququna xitam verilsin. Halbuki qeyd olunan maddədən bu nəticə hasil olur ki, özgəninkiləşdirmə halları istifadə hüquqlarına xitam verilməsi üçün əsas deyil. Nəyə görə? Çünki mənzili alqı-satqı yolu ilə əldə edən şəxs, artıq aldığı

andan bilir ki, bu mənzil kimin hüquqları ilə yüklüdür və o yüklü vəziyyətdə razılaşıb onu qəbul edibdir.

Mülkiyyətçinin dəyişməsi o halda istifadə hüququnun xitam olunmasına səbəb ola bilər ki, yaşayış sahəsi ilə bağlı istifadə hüququna malik olan şəxslər, özgəninkiləşdirməyə dair müqavilə bağlanmamışdan əvvəl öhdəlik götürürlər ki, bəli, bu alqı-satqı başa çatan kimi qeydiyyatdan çıxacaq və mənzili tərk edəcək. Belə bir öhdəlik olsa, onda artıq hər kəs, o cümlədən alan da bilir ki, evi bu hüquqlarsız, yəni yüksüz əldə edibdir, daha doğrusu, onların evdən çıxmasını tələb edə bilər. Ancaq özgəninkiləşdirmə ilə bağlı istifadə hüququ sahiblərinin razılığı olmayıbsa, alan da bunları bilə-bilə evi bu vəziyyətdə əldə edibsə, onda belə olan vəziyyətdə özgəninkiləşdirmə halı istifadə hüquqlarına xitam verilməsi üçün əsas təşkil edə bilməz. Belə də ola bilər ki, yeni mülkiyyətçi kompensasiya ödəmək yolu ilə bu hüquqa və ya hüquqlara xitam verə bilər. Başqa qaydada mümkün deyil.

Mülkiyyətçinin öz mülkiyyətini, yəni evini alqı-satqı və s. müqavilələr bağlamaq yolu ilə özgəninkiləşdirmək səlahiyyəti var və onun bu hüququnu heç kəs məhdudlaşdıra bilməz. Düzdür, "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"ın 49-cu bəndində göstərilir ki, yaşayış evinin, mənzilin ... özgəninkiləşdirilməsi və ya girov qoyulması haqqında əqdlər təsdiq edilərkən notarius özgəninkiləşdirilən yaşayış evində, mənzildə ... kimlərin yaşayış yeri üzrə qeydiyyatda olması barədə arayış tələb edir və daimi qeydiyyatda olan yetkinlik yaşına çatmış bütün ailə üzvlərinin razılığını alır, yəni bu hallarda bütün ailə üzvlərinin razılığı olmazsa, müqavilə bağlana bilməz və əvvəllər belə bir təcrübədən çox geniş bir şəkildə istifadə edilirdi. Ancaq ailə üzvlərinin razılığı olmadan mülkiyyətçi öz mülkiyyətində olan evi barəsində sərəncam verə bilməyəcəksə onda mülkiyyət hüququndan söhbət gedə bilərm?! Tutaq ki, mülkiyyətçi olan şəxsin bir qohumu gəlib xahiş etmişdir ki, məni evinə qeydiyyata sal, burada işləyim, mülkiyyətçi də həmin qohumunu yaşayış yeri üzrə qeydiyyata aldırıbdır. Bu minvalla mülkiyyətçinin həmin qohumu vaxtı ilə onun ailə üzvü hesab olunub və bu gün də evin satılmasına razı olmadığını, evin satılmasına faktiki olaraq yazılı razılıq vermədiyini bildirir. Onda belə çıxır ki, bu adam razılıq vermədiyinə görə, mülkiyyətçi də çarəsiz bir şəkildə evi ilə bağlı heç bir sərəncam verə bilməyəcək. Bunun qəbuledilməz olduğu gün kimi aydındır. Bununla bağlı Konstitusiya Məhkəməsi izah edibdir ki, mülkiyyət hüququndan istifadə etmək və ən əsası da onunla bağlı sərəncam vermək ailə üzvlərinin razılığından asılı deyildir, mülkiyyətçinin hüquqlarını bu qaydada

məhdudlaşdırmaq qanunsuzdur və hüquqa ziddir. Ona görə də belə məsələlərlə bağlı bir mənalı şəkildə qəbul edilir ki, digər şəxslərin istifadə hüquqları ilə yüklü olan evlər barəsində sərəncam verilməsi ilə bağlı müqavilələr bağlananda həmin şəxslərin razılığı tələb olunmur. Yoxsa müqaviləni sırf istifadə hüququna malik olan şəxsin razılığının alınmaması əsas gətirilərək ləğv etmək olmaz.

Beləliklə, ümid edirik ki, yuxarıda göstərilən və araşdırılan məsələlər qanunvericiliyin tətbiqində yaranan və təcrübədə rast gəlinən müəyyən çətinlikləri həll etməyə kömək edəcəkdir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Azərbayan Respublikasının Mənzil Məcəlləsi. Bakı, Hüquq Yayın Evi, 2022

2. Azərbaycan Respublikası Mülki Məcəlləsi. Bakı, Hüquq Yayın Evi, 2022

3. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "S.Süleymanovanın şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki işlər üzrə məhkəmə kollegiyasının 01 oktyabr 2009-cu il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" 02 aprel 2010-cu il tarixli qərarı

4. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "R.Ağalarovun şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki işlər üzrə məhkəmə kollegiyasının 31 mart 2006-cı il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" 26 sentyabr 2007-ci il tarixli qərarı

**Gülay Qurbanova**
*Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Aparat rəhbəri*

## "Ədalət mühakiməsinin büllur tərəzisi" mükafatı uğrunda 2023-cü ildə keçirilmiş beynəlxalq müsabiqə haqqında

Bülletenin əvvəlki buraxılışlarında[1] Avropa Mülki Ədalət Mühakiməsi Günü və bu münasibətlə keçirilən "Ədalət mühakiməsinin Büllur tərəzisi" mükafatı haqqında yazılar çap olunmuş və qeyd etmişik ki, Avropa Mülki Ədalət Mühakiməsi Günü Avropa Şurası Nazirlər Komitəsinin və Avropa Komissiyasının (Avropa Birliyi) birgə layihəsi kimi 05 iyun 2003-cü ildə, "Ədalət Mühakiməsinin Büllur Tərəzisi" mükafatı isə 2005-ci ildə Avropa Mülki Ədalət Mühakiməsi Gününə həsr olunmuş tədbirlər çərçivəsində təsis edilmişdir. Əvvəlcə, "Büllur tərəzi" uğrunda müsabiqənin hər il keçirilməsi nəzərdə tutulsa da, 2007-ci ildən müsabiqənin iki ildə bir dəfə keçirilməsi qərara alınmışdır.

2010-cu ilədək təşkil olunan 4 müsabiqədən üçü (2005, 2006, 2008-ci illər) mülki mühakimə, 2009-cu ildə təşkil olunan müsabiqə isə cinayət mühakiməsi sahəsini əhatə etmişdir. İlk dəfə olaraq 2010-cu ildə keçirilən müsabiqədə həm mülki, həm də cinayət mühakiməsi ilə bağlı layihələr qiymətləndirilmişdir.

"Ədalət mühakiməsinin Büllur tərəzisi" müsabiqəsinin keçirilməsində əsas məqsəd Avropa Mülki Ədalət Mühakiməsi Gününə diqqəti daha da artırmaq, ədalət mühakiməsinin həyata keçirilməsi sahəsində Avropa ölkələrinin məhkəmələrində tətbiq olunan və digər ölkələr üçün də maraq kəsb edən yeni layihələri müəyyən edib mükafatlandırmaq və bu yolla daha səmərəli və keyfiyyətli mütərəqqi təcrübəni özündə ehtiva edən layihəni müəyyən etməklə onun tətbiqinin Avropa Şurası ölkələrinə yayılmasına nail olmaq, habelə müxtəlif ölkələrin məhkəmə hakimiyyəti orqanları arasında əlaqələrin inkişafına, təcrübə mübadiləsinin genişlənməsinə kömək göstərməkdir.

---

[1] Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Bülleteni. 2007-ci il, № 1, səh. 116-126; 2009-cu il, № 1, səh. 87-97; 2009-cu il, № 2, səh. 97-104.

Qeyd edək ki, mükafat uğrunda müsabiqədə iştirak etmək üçün təqdim olunan layihələr müəyyən kriteriyalara cavab verməlidir. Belə ki, layihə məhkəmə fəaliyyəti ilə bağlı olmalı, ədalət mühakiməsinin funksiyalarının daha səmərəli və keyfiyyətli şəkildə həyata keçirilməsinə yönəlməli, sınaqdan çıxmış, müsbət nəticələr vermiş olmalı, başqa ölkələrdə və yurisdiksiyalarda tətbiqi, o cümlədən müxtəlif hüquq sistemlərinə uyğunlaşa bilməlidir.

İndiyə qədər "Ədalət Mühakiməsinin Büllur Tərəzisi" uğrunda müsabiqə on iki dəfə keçirilmişdir. İlk müsabiqədə 22 Avropa ölkəsindən 15 layihə iştirak etmiş, onlardan 3 ən yaxşısı seçilmişdir. Bunlar Avstriya Ədliyyə Nazirliyinin, Sloveniyanın Ali Məhkəməsinin və Finlandiyanın Rovaniyemmi şəhərinin Apellyasiya Məhkəməsinin təqdim etdikləri layihələr olmuşdur. İlk dəfə keçirilən müsabiqədə Finlandiyanın layihəsi qalib gəlmiş və 2005-ci ilin oktyabr ayının 25-də Edinburq şəhərində keçirilən Avropa Mülki Ədalət Mühakiməsi Gününə həsr olunmuş mərasimdə "Ədalət Mühakiməsinin Büllur Tərəzisi" mükafatı təntənəli surətdə qalibə təqdim olunmuşdur.

Qeyd edək ki, müsabiqə Avropa Şurasının (bundan sonra "təşkilatçılar") Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) tərəfindən təşkil olunur. Münsiflər heyəti (Jüri) təşkilatçıların təyin etdiyi 6 üzvdən və 1 Prezidentdən ibarətdir.

2023-cü il üçün müəyyən edilmiş "Mükafatın verilməsi qaydaları"na görə müsabiqəyə qatılmaq üçün müəyyən edilmiş tələblərə cavab verən müraciətlər təşkilatçılar tərəfindən Münsiflər heyəti (Jüri) üzvlərinə təqdim edilir. Hər bir Jüri üzvü təşkilatçılara elektron şəkildə və Jürinin iclasından əvvəl daha öncə seçdiyi 10 layihədən ibarət siyahı təqdim edir. Təşkilatçılar Jürinin təqdim etdiyi siyahılar əsasında qısa siyahıya alınmış 10 layihənin siyahısını tərtib edir. Bu siyahı müvafiq layihələrə əlavə baxılması üçün Jüri üzvlərinə göndərilir. Jüri üzvləri, eləcə də CEPEJ Katibliyi bu siyahının tərkibi ilə bağlı sirri saxlamalıdır. Münsiflər heyəti (Jüri) gizli səsvermə yolu ilə 4 layihəni seçmək üçün toplaşır. Bu seçim üçün Münsiflər heyətinin (Jürinin) hər bir üzvü 4 layihəni seçir və onları 1-ci (ən yaxşı layihə) üstünlük sırasına görə 4-cü yerə qədər sıralayır. CEPEJ Katibliyi hər bir Münsiflər heyəti (Jüri) üzvü tərəfindən qiymətləndirilən hər bir layihəyə 4 xal verir. 1-ci yeri tutan layihəyə 4 xal, 2-ci yeri tutan layihəyə 3 xal, 3-cü yeri tutan layihəyə 2 xal, 4-cü yeri tutan layihəyə 1 xal. Ballar hesablandıqdan sonra, balların bərabər olduğu halda, eyni sayda xal toplayan iki layihə arasında seçim etmək üçün ikinci sadə səsvermə keçirilə bilər. Ən çox xal toplayan layihəyə "Ədalət Mühakiməsinin Büllur Tərəzisi" mükafatı verilir. Digər üç

layihə Münsiflər heyətindən (Jüridən) "xüsusi qeyd" alır. Münsiflər heyətinin (Jürinin) qərarlarından şikayət verilmir.

"Ədalət Mühakiməsinin Büllur Tərəzisi" mükafatı Avropa Şurası tərəfindən qalibə verilir. Təltifetmə mərasimi mükafatı ən son qazanmış ölkədə keçirilir. Təklif olunan layihələri təqdim edən hər bir qurum və ya təşkilatdan iki nümayəndə mükafatlandırma mərasiminə dəvət olunur. "Ədalət Mühakiməsinin Büllur Tərəzisi" müsabiqəsi çərçivəsində hər dörd layihə təltif olunur, onlardan birinə mükafat, digər üçünə isə "Xüsusi Diqqətəlayiq Layihə" mükafatı təqdim olunur.

2023-cü ildə "Ədalət Mühakiməsinin Büllur Tərəzisi" mükafatının 12-ci müsabiqəsinin mükafatlandırma mərasimi 4 oktyabr 2023-cü ildə Parisdə keçirilmişdir. Mükafatın sonuncu buraxılışının (2021) qalibi Fransanın Ədliyyə Nazirliyi tədbirə ev sahibliyi etmişdir.

Bu il üçün müsabiqəyə 17 Avropa ölkəsindən 48 layihə təqdim olunmuşdur. Uşaqlara həsr olunmuş "Uşaqlar Məhkəmə Oyununda" adlı Kipr layihəsi "Ədalət Mühakiməsinin Büllur Tərəzisi" mükafatını qazanmışdır. Mükafat "Kipr Məhkəmə Təlim Məktəbi" və "Uşaqlar üçün Ümid" CRC siyasət mərkəzinə təqdim edilmişdir. "Uşaqlar Məhkəmə Oyununda" layihəsi uşaqların psixoloji və emosional cəhətdən məhkəmədə şahid qismində ifadə verməsi üçün hazırlanması məqsədilə təşkil olunmuş 4 fərqli oyundan ibarətdir. Münsiflər heyətinin seçimini izah etmək üçün keçirilən mərasimdə ədliyyə sahəsinin tanınmış simalarının daxil olduğu münsiflər heyətinin üzvləri də iştirak etmişlər.

Bundan başqa 2 layihə - Avropa Zərərçəkmişlərə Dəstək Təşkilatının "Xüsusi Təlim Keçmiş İtlər" layihəsi və Belçikanın Mons Apellyasiya Məhkəməsinin "Ekoloji və şəhərsalma məsələləri üzrə ixtisaslaşmış mülki və cinayət palatası" layihələri mütərəqqi xüsusiyyətlərinə görə fərqləndirici yerə layiq görülmüşlər.

Sonda qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 2 iyun tarixli 2073 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün strategiyası"nın 4.3.22-ci yarımbəndinin, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli 2306 nömrəli Sərəncamı ilə təsdiq edilmiş Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planının icrası üçün Tədbirlər Planının 5.3.15-ci yarımbəndinin icrası məqsədilə "Məhkəmə Uşaq Otaqlarının təşkilinə dair Qaydalar" hazırlanmış və tətbiq edilməsi məhkəmələrə tövsiyə edilmişdir.

“Məhkəmə Uşaq Otaqları”nın təşkilinin əsas məqsədi hüquq pozuntusuna yol verən, zorakılığa məruz qalan, cinayətin zərərçəkəni və şahidi olan uşaqlarla məhkəmə proseslərinin aparılması zamanı beynəlxalq standartlara uyğun olaraq uşaqların hüquqlarının müdafiə olunmasına yardım göstərməkdən ibarətdir. “Məhkəmə Uşaq Otaqları”nda uşaqları emosional-psixoloji, fiziki vəziyyətinə, şəxsiyyətinə zərər verməyəcək şəraitlə təmin etməklə, onların özlərini təhlükəsiz və rahat hiss etmələrinə və eləcə də məhkəməyə düzgün, səmimi və ətraflı ifadə verə bilmələrinə imkan yaratmaqla dindirmək başlıca məqsəddir.

“Uşaqlar Məhkəmə Oyununda” layihəsi də uşaqların psixoloji və emosional cəhətdən məhkəmədə şahid qismində ifadə verməsi üçün qabaqcadan hazırlanması məqsədi daşıdığından “Məhkəmə Uşaq Otaqları” təşkil edildikdə uşaqların dindirilməsi zamanı həmin layihədən istifadə etməyin mümkünlüyü də araşdırıla bilər.

*Materialın hazırlanmasında Avropa Şurasının Ədalət Mühakiməsinin Səmərəliliyi Uğrunda Komissiyasının rəsmi internet səhifələrindəki (www.coe.int/CEPEJ) məlumatlardan istifadə olunmuşdur.*



# AZAD TRİBUNA

***Murad Cəfərli***
*Naxçıvan Dövlət Universitetinin hüquqşünaslıq ixtisasının III kurs tələbəsi*

## Elektron səsvermə elektron demokratiyanın mühüm institutu kimi

Elektron demokratiyanın tətbiqləri getdikcə daha çox ehtiyac duyulan, daha vacib olur. Elektron demokratiyanın yaranması ilə əlaqədar elektron hökumət, elektron ərizə, elektron səsvermə və s. kimi tətbiqlər istifadə olunmağa başlanmışdır. Texnologiyanın inkişafı bu tətbiqlərin getdikcə artmasına və daha çox istifadə edilməsinə zəmin yaradır. Elektron səsvermə e-demokratiyaya olan diqqəti artırır. Elektron səsvermənin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir, elektron səsvermə qlobal miqyası, qanunvericilik, texnologiya, əməliyyat və rahatlıq baxımından seçicilər üçün vacib məsələdir. Həmçinin vətəndaşların rahatlığını artıracaq bu tətbiqlərin istifadəsində vətəndaşlar da maraqlıdır. Ənənəvi səsvermə sistemlərində olan problemlər, elektron səsvermənin çevikliyi, daha əlçatan olması və s. kimi amillər vətəndaşların elektron səsverməni daha məqbul hesab etməsinə səbəb olur.

**Elektron səsvermənin anlayışı və tarixi.**

Elektron səsverməyə aid konkret anlayış yoxdur. Müxtəlif müəlliflər elektron səsverməyə müxtəlif formada anlayış verir. Coşkun Telciler-ə görə elektron səsvermə xalqın etdiyi səsvermənin elektron cihazlarla toplanması və qiymətləndirilməsi prosesidir. Seçkilər demokratik dövlətlər üçün vacibdir. Siyasi partiyalar, namizədlər, parlament və s. səsvermə yoxdursa, onların heç bir mənası yoxdur. Ona görə də seçkilər etibarlı, dəqiq, sürətli, şikayətlərin qarşısını alacaq şəkildə edilməlidir. Birdə xərclər azalarsa, sistem daha faydalı olar[1]. C.Telciler-ə görə elektron səsvermə sistemləri bu tələbləri ödəyən ən etibarlı vasitədir. Abdalla Al-Ameen və Samani Talab-a görə elektron səsvermə sistemi seçki məlumatlarının ilk növbədə rəqəmsal məlumat kimi qeydə alındığı, saxlandığı və emal edildiyi səsvermə sistemidir. Onların fikrincə təhlükəsiz və rahat elektron səsvermə sistemləri yaradılarsa,

[1] *Coşkun Telciler, Elektronik Seçim Sistemi*

onlar insanların rəyini toplamaqda daha tez-tez istifadə olunacaqdır. Thomas M.Buchsbaum isə elektron səsverməyə bu cür anlayış vermişdir: "Elektron səsvermə elektron vasitələrlə səs verməkdən siyasi məsələrlə bağlı ictimaiyyətin internet rəyinin öyrənilməsinədək, həmçinin elektron vasitələrlə səslərin hesablanmasından elektron sistemə yüklənənədək, seçicilərin və namizədlərin qeydiyyatından seçkilərin nəticələrinin dərc edilməsinədək istifadə olunur". Onun fikrincə elektron səsvermə hər hansı rəy sorğusu və ya elektron məsləhətləşmə ilə əlaqədar olmamalıdır, yalnız siyasi səsvermələri və referendumları əhatə etməlidir. T.M.Buchsbaum elektron səsvermənin 2 növünü qeyd etmişdir:

1. Hökumətin və ya seçki orqanının nümayəndələrinin fiziki iştirakı ilə keçirilən (bu seçki məntəqələrində diplomatik nümayəndəliklərdə və s. edilən elektron səsvermədir).
2. Hökumətin və ya seçki orqanının nümayəndələrinin fiziki iştirakı olmadan keçirilən (bu isə fərdi kompüterlər, mobil telefonlar və s. vasitəsilə edilən elektron səsvermədir)

Göründüyü kimi birinci növ daha nəzarətli digəri isə daha fərdiləşmiş formada həyata keçirilir. Təbii ki, ikinci növün miqyası daha genişdir. Bihterin Vural Dinçkol, Alper Işık özlərinin "Katılımcı Demokrasi ve Online Karar Alma Bağlamında E-Oy ve Estonya örneği" adlı məqaləsidə elektron səsvermənin 3 növü olduğunu qeyd etmişlər:

1. Bu müəyyən mərkəzdən verilən səsvermədir. Bu səsvermə zamanı internet yalnız seçki məlumatlarının ötürülməsi zamanı istifadə edilir. Səsvermə kompüterləri bir mərkəzdə yerləşdiyi üçün seçki məmurları onlara tam nəzarət edə bilir. Bu zaman səsverməyə xarici təsirlər olmur. Kompüter virusları və xarici hücumlar mümkün olsa da, qarşısını almaq mümkün olur.
2. Bu növ elektron səsvermələrdə seçicilər kitabxana, məktəb və ya ticarət mərkəzləri kimi ictimai yerlərdə yerləşən xüsusi kompüterlərdən istifadə etməklə səs verə bilər. Lakin bu üsulda seçim prosesinə dövlət orqanları tərəfindən nəzarət edilə bilməz. Ona görə də identifikasiyanı təmin etmək üçün elektron imza və ya smart kart, barmaq izi kimi vasitələrə ehtiyac var.
3. Bu növdə isə elektron səsvermə evdə və ya işdə uzaqdan internet səsvermə deməkdir. Şübhəsiz ki, internet səsverməsi özü ilə bir çox risklər gətirir. Burada identifikasiya və yoxlama məsələləri ilə yanaşı, səsvermənin məxfiliyi və seçki təhlükəsizliyi ilə bağlı problemlər yarana bilər.

Qeyd olunan üç növdən ikisi müəyyən bir mərkəzdə səsverməni nəzərdə tutur, biri isə uzaqdan səsvermədir. Digər bir bölgüyə görə elektron səsvermənin 2 tipi vardır:

1. Uzaqdan onlayn və ya internet səsverməsi: Bu tip səsvermələr internet vasitəsilə həyata keçirilir.
2. EVM səsverməsi: Bu tip elektron səsvermələr elektron səsvermə maşınları vasitəsilə həyata keçirilir.

Elektron səsvermənin növlərində asılı olmayaraq ona təsir edən müəyyən amillər vardır. Nadja Braun Binder, Aleksandr Prosser və Robert Krimmerə görə elektron səsvermənin tətbiqinə 4 amil təsir edir: Siyasət, Hüquq, Texnologiya, Cəmiyyət. Siyasətin təsiri dedikdə ölkədəki mövcud siyasi sistem (respublika, monarxiya və s.) seçkilərin hansı üsullarla və hansı tezlikdə keçirilməsi (prezident seçkiləri Rusiyada 4 ildən, Türkmənistanda 5 ildən, Azərbaycanda 7 ildən bir keçirilir), həmçinin seçkilərlə bağlı digər məlumatlar (seçki hüququ olanların sayı, seçki dairələrinin sayı və s.) başa düşülməlidir. Elektron səsvermənin qanunvericilikdəki yeri, elektron səsvermə ilə bağlı hüquqi prinsiplərin mövcudluğu kimi amillər hüququn təsirini göstərir. Üçüncü Texnologiyadır, çünki ölkədə elektron imza, elektron şəxsiyyət vəsiqəsi və s.-nin tətbiqi elektron səsvermənin tətbiqi üçün vacibdir. Nəhayət sonda kompüterlərin, fərdi telefonların, internetin, internetdən edilən əməliyyatların cəmiyyətə təsir miqyasını bilmək lazımdır. Bu müxtəlif dövlətlərdə fərqlənə bilir. Məsələn, “Datareportal”ın 2022-ci ilin əvvəlində verdiyi məlumatlara görə Monqolustanda internetdən istifadə edənlər ümumi əhalinin 64.4%-ni təşkil etdiyi halda, Birləşmiş Krallıqda bu 98% təşkil edir.

**Dünya dövlətlərinin təcrübəsi.**

Dünyada elektron səsvermədən istifadə edən, sınaq mərhələsində olan dövlətlərin sayı getdikcə artır. Dünyada elektron seçimi həyata keçirən ölkələr sırasında ABŞ, Avstriya, Belçika, Braziliya, Kanada, Estoniya, Fransa, Almaniya, Hindistan, İrlandiya, İtaliya, İsveçrə, Hollandiya, Norveç, Perunu misal göstərmək olar.

Avropada elektron səsvermə ilə bağlı bir neçə nümunə vardır. Bunlardan İrlandiya, İtaliya, Norveç və Böyük Britaniya elektron səsverməni sınaqdan keçirsələr də, istifadəni davam etdirməyib. Hollandiya (2008) və Almaniyada (2009) elektron səsvermə maşınlarının istifadəsi dayandırılmışdır. Fransa, Belçika, İsveçrə, Estoniya kimi dövlətlər isə hazırda istifadə etməkdədir. Cənubi Amerika və Asiyada elektron səsverməyə yanaşma bir qədər fərqlidir. Avropadan fərqli olaraq bu regionlarda elektron

səsvermə geniş istifadə edilir. Hətta bu istifadənin daha da genişləndirilməsi üçün işlər görülür. Braziliya və Hindistanda elektron səsvermə maşınlarından daha qlobal şəkildə istifadə edirlər (Braziliya elektron səsverməni bütün ölkə ərazisində tətbiq edən ilk ölkədir). Digər bir elektron səsvermənin geniş istifadə edildiyi region Şimali Amerikadır. Burada iki hal nəzərə çarpır: ABŞ və Kanada. ABŞ 1975-ci ildən elektron səsvermə maşınlarını ilk istifadə edən dövlətdir. Ölkə ərazisində müxtəlif səsvermə avadanlıqlarından istifadəyə baxmayaraq geniş şəkildə istifadə edilir. Kanada isə internet səsverməsindən istifadə edən dövlətlər sırasındadır.

Elektron səsvermədən istifadə edən dövlətlərin bəzilərinin təcrübəsi:

**1.ABŞ.**

ABŞ-da seçkilərin keçirilməsi ilk dəfə kağız bülletenlərlə keçirilmişdir. Lakin səslərin sayılması çox uzun müddət tələb etdiyi üçün bu prosesi sürətləndirəcək bir yol axtarıldı və 1890-cı illərdən başlayaraq müəyyən addımlar atıldı (ilk olaraq bir şirkət tərəfindən təklif irəli sürüldü). Artıq 1900-cu illərdə elektron maşınlarla səs verilməyə başladı. 2004-cü ildə müəyyən olunmuşdur ki, ABŞ-ın 675 əyalətində bütün səslərin 30% elektron səsvermə sistemlərindən istifadə edilərək verilmişdir. Hazırda ABŞ-da müxtəlif texnologiyalardan istifadə edilərək səsvermə keçirilir. Buraya optik skan sistemləri, DRE səsvermə maşınları aid edilə bilər. Hətta bəzi ştatlarda internet vasitəsilə səsvermədən də istifadə edilir. ABŞ-da internet səsverməsindən istifadənin əsas məqsədlərindən biri xaricdəki ABŞ vətəndaşlarının seçkilərdə iştirakını təmin etmək olmuşdur. Bu məqsədlə DCBOE[2] (The District of Columbia´s Board of Elections and Ethics) xaricdəki 1000-dən çox ABŞ vətəndaşının səsverməsi üçün internet səsvermə xidmətini yaratdı. Lakin bu xidmət DCBOE rəsmiləri tərəfindən təhlükəsizlik problemləri və sistemin zəiflikləri nəzərə alınaraq istifadəsi dayandırıldı. Bundan bir müddət sonra sistem yenidən geri qaytarıldı və istifadəyə verildi. Fəaliyyəti bir qədər məhdudlaşdırıldı və bu xidmət ancaq bülletenlərin paylanması prosesini həyata keçirə bilirdi. DCBOE tərəfindən hazırlanan bu sistemin mənbə kodu internetdən əldə edilə bilirdi. Mənbə kodunu nəzərdən keçirmək istəyən hər kəs onu internet vasitəsilə əldə edə bilər və sistemin şifrələnməsini təsvir edən sxemləri həmçinin sistemin modelini görə bilərdi. Həmçinin sistem sistemin yoxlanması üçün test imkanını da təklif edirdi. Bu test hər hansı səlahiyyətli şəxsin və ya təşkilatın müraciəti ilə keçirilə bilərdi. Hər bir şəxs veb-brauzeri olan fərdi komputerindən istifadə edərək səs verə

[2] *DCBOE seçkilərin idarə edilməsi, seçki bülletenlərinə giriş və seçicilərin qeydiyyatı üçün məsul olan hökumətin müstəqil agentliyidir.*

bilər. Səsvermədə iştirak etmək üçün ilk olaraq qeydiyyatdan keçmək lazımdır. Bundan sonra xaricdəki hər bir vətəndaş seçkidə iştirak edə bilər. Təsdiq cavabı poçt vasitəsilə göndərilir. Bu sistem üçün lazım olan texnoloji baza TrustTheVote[3] və OSDV (Open Source Digital Voting) Fondu[4] tərəfindən təmin edilir. Sistem əsas 3 hissədən ibarətdir: İlk hissədə veb server HTTPS protokolu vasitəsilə davamlı olaraq istifadəçilərin sorğularını qəbul edir.

Sonra sorğu Ruby on Rails[5] Framework vasitəsilə yazılır və Apache[6] veb serverində yerləşdirilən proqram serverinə göndərilir. Seçki məlumatları isə MySQL verilənlər bazası sistemində saxlanılır. ABŞ-da istifadə edilən elektron səsvermə texnologiyaları əlilliyi olan insanlar üçün rahat səsverməni təmin edirdi, həmçinin digər vətəndaşlar üçün. Lakin bu sistem W3C[7]-nin WCAG[8] standartlarına uyğun deyildi. Bunun yerinə ABŞ-ın özünün istifadə etdiyi standartlara uyğunlaşdırıldı.

Sistemin SWOT[9] təhlili isə aşağıdakı kimidir:

Sistemin əsas gücü xaricdə yaşayan vətəndaşlar üçün əlçatan olması və onların rahat səsverməsini təmin etməsidir. Əsas zəifliyi təhlükəsizliklə bağlıdır. Əsas təhlükə isə səsvermə bülletenlərinin anonimliyi ilə bağlıdır. Elektron səsvermə vasitələrinin artan istifadəsinə baxmayaraq, səsvermə

---

[3] *TrustTheVote Layihəsi OSET İnstitutu tərəfindən hazırlanan səsvermə texnologiyasının tədqiqatı və inkişafı üçün qeyri-kommersiya təşəbbüsüdür.*

[4] *OSDV(Open Source Digital Voting) Fondu ABŞ-ın qeyri-kommersiya təşkilatıdır.*

[5] *Ruby on Rails veb tətbiqlər yaratmaq üçün çərçivədir (framework).*

[6] *Apache HTTP Server Linux, Unix, Windows, Mac, Solaris kimi əməliyyat sistemləri üçün nəzərdə tutulmuş veb serverdir.*

[7] *World Wide Web Consortiumya(W3C) 1994-cü ilin oktyabrında Şəbəkənin icadçısı Tim Berners-Li tərəfindən MIT və CERN nəzdində qurulmuş beynəlxalq Dünya səviyyəsində Şəbəkə (WWW) standartlarını müəyyən edən təşkilatdır.*

[8] *WCAG(The Web Content Accessibility Guidelines) W3C(World Wide Web Consortium) tərəfindən müəyyən edilmiş və həyata keçirilməsi müəyyən meyar və qaydalardan asılı olan veb standartlarıdır.*

[9] *SWOT(Strengths, Weaknesses, Opportunities, Threats) təhlili hər hansı şəxsə və ya təşkilata biznes rəqabəti və ya layihənin planlaşdırılması ilə bağlı Güclü(Strengths) , Zəif(Weaknesses) tərəfləri, İmkanları(Opportunities) və Təhdidləri(Threats) müəyyən etməyə kömək edən strateji planlaşdırma və strateji idarəetmə texnikasıdır.*

sistemi ilə bağlı uğursuzluqlar və mübahisələri hələ də mövcuddur. Elektron səsvermə ABŞ-da digər yüksək texnologiyalı ölkələrlə müqayisədə daha uzun müddətdir istifadə edilir, lakin elektron səsvermə vasitələri səhvsiz və daha etibarlı olanadək inkişaf etdirilməlidir[10].

**2.Braziliya.**

Braziliya dünyadakı inkişaf etmiş elektron səsvermə sisteminə malik ölkə olmaqla bərabər, həm də elektron səsverməni ilk dəfə bütün ölkə ərazisində tətbiq etmiş ölkədir. Braziliya əhalisinin təxminən 80% seçkilərdə iştirak edir. Braziliyada 2000-ci ildən günümüzədək tam şəkildə elektron səsvermədən istifadə edilir. 1932-ci ildə elektron səsvermə maşınları ilə əlaqədar müddəalar Braziliyanın seçki məcəlləsinə daxil edilmişdir. Bu elektron səsvermə sistemlərinin istifadəsi ilə əlaqədar ilk addım idi. Bu addımdan sonra müəyyən lahiyələr təqdim edilsə də, heç biri qəbul edilmədi. 1994-cü ildə kompüterləşdirilmiş sistemdən istifadə edilərək ümumi seçkilərin ilk cədvəlləri təşkil edildi. Braziliyada elektron səsvermə ilk dəfə 1996-cı ildə sınaqdan keçirilmişdir (Santa-Katarinadakı seçkilərdə). 1998-ci ildə ümummilli seçkilərdə elektron səsvermədən istifadə edilmişdir. Bu müddətdən başlayaraq elektron səsvermə sistemi daha təkmilləşdirilmişdir. Bütün bu təkmilləşdirmələr Braziliya Ali Seçki Məhkəməsi tərəfindən maliyyələşdirilirmişdir. İlkin elektron səsvermə lahiyəsi ATC (Aerospace Technical Center) və NISR (National Institute for Space Research) tərəfindən hazırlanmışdır və ilk səsvermə maşını CEV( Collector of Electronic Votes) idi.

2002-ci ildə seçkilərdə 360000 elektron səsvermə cihazı elektron seçkilərdə istifadə edilmişdir. Və səsvermənin müddətin nəzərə çarpacaq dərəcədə azaltmışdır. 1989-cu ildə bu müddət 9 gün idisə, 2002-də 12 saat olmuşdur. 2011-ci ildə biometrik[11] elektron səsvermə maşınları yaradıldı və 2012-ci ildə keçirilən seçkilərdə istifadə edildi. Braziliyada istifadə edilən səsvermə maşını DRE (Direct Recoding Electronic) adlanır. Bu səsvermə maşınları Brazilian Electoral Justice tərəfindən hazırlanır və Linux əməliyyat sisteminə malikdir. Səsvermə maşınının fəaliyyətini təmin etmək üçün 28 proqramdan istifadə edilir. Bunlardan bir neçəsi aşağıdakılardır:

---

[10] *ABŞ-da elektron səsvermə haqqında əlavə məlumat üçün bax: Paul S. Herrnson, Richard G. Niemi, Michael J. Hanmer, Benjamin B. Bederson, Frederick G. Conrad, and Michael W. Traugott, THE CURRENT STATE OF ELECTRONIC VOTING IN THE UNITED STATES(January 2008)*

[11] *İnsanın bioloji xüsusiyyətlərinə(barmaq izləri, sifət, səs və s.) əsaslanaraq insanın kimliyini müəyyən edə bilər.*

1. SCUE (Sistema de Carga de Urna Eletrônica): Əməliyyat sistemini və proqram təminatını seçki məntəqələrində quraşdırır.
2. ATUE (Sistema de Autoteste da Urna Eletrônica: Səsvermə maşınının düzgün işlədiyini yoxlamaq üçün səsvermə maşınının özünün sınaq sistemidir.
3. VOTA: Seçki məntəqəsində səsləri toplayır və hesablayır.

Həmçinin SEC (Superior Electoral Court) sistemin təhlükəsizliyini təmin edəcək proqramlar və "drivers"[12]-lər dəsti olan ISS (Installation and Security System)-dən istifadə edir. ISS seçkinin bütün dövrəsinə (seçici və namizədlərin qeydiyyatı, nəticələrini qəbulu, ötürülməsi, yayılması və s.) nəzarəti həyata keçirir. SEC tərəfindən səslərin əldə edilməsi, sayılması, ötürülməsi və alınmasının etibarlılığını, şəffaflığını və təhlükəsizliyini gücləndirmək məqsədi ilə PST (Public safety tests)-dən istifadə edir. PST 2009-cu ildən başlayaraq buraxılır və sırası elə 2012, 2016, 2017, 2019-cu illərdə buraxılmışdır. Braziliyada yarandığı gündən inkişaf edən elektron səsvermə 2002, 2004 və ən son 2006-cı ildə keçirilən seçkilərdə istifadə edilən yeganə səsvermə üsulu olmuşdur. Sözsüz bu uğurun səbəbi bu sistemi inkişaf etdirmək və təkmilləşdirmək üçün səylər olmuşdur. Pedro A.D. Rezendenin qeyd etdiyi kimi,"dövrümüzün ən mühüm demokratiyası indi elektron sistemlərdə seçicilərin yoxlanılmasını təmin edən hüquqi tədbirlərin rahatlığını və mümkün təsirlərini müzakirə edir" və "Braziliya, həqiqətən, zamanını qabaqlayır" (Gloria Lin and Nicole Espinoza 2007)[13].

**3. Estoniya**.

Estoniya elektron idarəetmə sahəsində inkişaf etmiş qabaqcıl ölkələrdən biridir. Demək olar ki, ölkədə hər kəs internetdən istifadə edir və özünün şəxsi kompüteri vardır. Estoniyada elektron səsvermənin vasitələrindən biri olan internet səsverməsindən istifadə edilir. 1999-cu ildə Estoniyada səsvermə məlumatlarını ötürmək üçün internetdən istifadə edildi. 2001-ci ildə artıq elektron səsvermənin istifadə edilə biləcəyi haqqında fikirlər yaranmağa başladı. Nəhayət, 2002-ci ildə başalayaraq Estoniyada elektron səsvermənin keçirilməsi ilə bağlı ilkin addımlar atılmışdır. İlk addım elektron səsvermə ilə bağlı qanunvericilik bazasının yaradılması oldu. Sistemin yaradılması ilə bağlı layihə 2003-cü ildə başladı və 2005-ci ildə bitdi. Estoniya hökumətinin

---

[12] *Bir cihazın digər aparat cihazı ilə qarşılıqlı əlaqədə olmasına imkan verən proqram təminatının xüsusi formasıdır. Məsələn, fərdi kompüterlə printer arasında əlaqəni təmin edir.*

[13] *Braziliyada elektron səsvermə haqqında əlavə məlumat üçün bax: Superior Electoral Court, https://international.tse.jus.br/en*

elektron səsvermənin tətbiqində əsas məqsədi həm ölkə daxilində, həm də xaricdə yaşayan estoniya vətəndaşlarının seçici fəallığını artırmaq olmuşdur. Məhz bu da uğurlu olmuşdur və elektron səsvermədə 2005-ci ildə yerli seçkilərdə seçicilərin fəallığı 1.9%, 2013-cü ildə isə 21.2% olmuşdur. "Estoniyada səsvermə sisteminin ümumi təsviri"ndə aşağıdakı elementlər göstərilmişdir:

1. İdentifikasiya edilmiş insanlara sistem vasitəsilə səs verməyə imkan verən proqram;
2. Elektron səsvermə saytının prototipi;
3. Aparat arxitekturasının tərifi və sistemin işləməsi üçün tələblər;
4. Səslərin ötürülməsi, qeydə alınması və hesablanması üçün proqram təminatı;
5. Nəzarət tətbiqi;
6. Ümumi səsvermə sisteminin informasiya sistemi ilə əlaqələndirilməsi üçün interfeys;
7. Test planı və sistemin qəbulu testinin nəticələri[14].

Bu hazırlıqların nəticəsində Estoniyada istənilən seçkilərdə elektron səsvermədən istifadə imkanı yarandı. Estoniyada "Cybernetica Ltd"[15] şirkəti Elektron səsvermə sisteminin hazırlanması ilə məşğul olur. Estoniyada elektron səsvermə sistemi Estoniya Milli Seçki Komitəsinə məxsusdur. Hər bir vətəndaşın elektron şəxsiyyət vəsiqəsi vardır. Bu audentifikasiya vasitəsi kimi istifadə edilir. Hazırlanmış sistemdə səs vermək üçün aşağıdakılara ehtiyac duyulur:

1. Estoniya şəxsiyyət vəsiqəsi;
2. Etibarlı sertifikatları və PIN kodları olan smart kart oxuyucusu;
3. Müvafiq proqram təminatı, internet bağlantısı və Windows, MacOS və ya Linux əməliyyat sistemi olan kompüter[16].

---

[14] *Res. Asst. Nil Çokluk Cömert, Lect. Merve Özdemir, Demokrasi ve Siyasal Katılımda Yeni Bir Boyut: Elektronik Demokrasi ve Elektronik Seçimler(14 Mayıs 2020)*

[15] *Cybernetica Ltd. İKT sahəsində proqram həllərini araşdıran, inkişaf etdirən və istehsal edən Estoniya şirkətidir.*

[16] *Res. Asst. Nil Çokluk Cömert, Lect. Merve Özdemir, Demokrasi ve Siyasal Katılımda Yeni Bir Boyut: Elektronik Demokrasi ve Elektronik Seçimler(14 Mayıs 2020)*

Ehtiyac duyulan hər bir vasitə hazır olduqdan sonra səsvermə aşağıdakı qaydada həyata keçirilir:

1. Şəxsiyyət vəsiqəsini elektron səsvermə kartı oxuyucu cihazına təqdim etməklə səsvermənin internet səhifəsini açmaq;
2. PİN 1(identifikasiya kodu) təqdim etməklə seçicinin şəxsiyyətini yoxlamaq;
3. Əhali reyestrinin məlumat bazasında axtarış aparmaqla seçicinin səsvermə hüququna malik olmasını yoxlamaq;
4. Seçki dairəsi üzrə namizədlərin siyahısını seçiciyə təqdim etmək;
5. Namizəd(lər)i seçmək və şifrəli səs vermək;
6. PIN 2-dən istifadə edərək şifrələnmiş səsləri rəqəmsal imzalamaq;
7. Rəqəmsal imzalar silindikdən sonra anonim səslərin sayılması[17]

Estoniyadakı elektron səsvermə sistemi elektron şəxsiyyət vəsiqəsindən istifadə edərək rəqəmsal identifikasiya və imzaya imkan verən kriptoqrafik protokol çərçivəsində işləyir (Roman Sokolov, S M Samsul Arefin 2016). Elektron səsvermə sisteminin mənbə kodunu oxumaq üçün bunu istəyən subyektlər (vətəndaşlar və ya müşahidəçilər) NDA-nı (A Non- Disclosure Agreement) imzalamalıdır. Bu mənbə kodu 2013-cü ildə GitHub[18]-a yüklənmişdir. Sistemi yoxlamaq üçün səsvermədən əvvəl "seçki" keçirilir. Buna İT mütəxəssisləri və NEC-in (Nippon Electric Corporation)[19] kibermüdafiə qrupu başçılıq edir. Yoxlamanın nəticəsinin bir hissəsi müşahidəçilərlə paylaşılsa da, bəzi məlumatlar məxfi saxlanılır. Elektron səsvermənin bəzi qüsurları da mövcuddur. Bunlardan birincisi səs verildikdən sonra rəqəmsal imza silinir bu seçicinin anonimliyi üçün vacibdir, lakin səsvermə zamanı saxtakarlıq olarsa, səsin saxta və ya həqiq olmasını sübut etmək mümkün olmayacaq. Bu da seçki auditinin keçirilə bilməyəcəyi mənasına gəlir. İkinci problem isə həm identifikasiya, həm də rəqəmsal imzanın şəxsiyyət vəsiqəsi və PİN koda əsaslandığı üçün bir şəxs digər şəxsin adından asanlıqla səs verə bilər. Bu qüsurlara baxmayaraq bu sistemin tətbiqində Estoniya uğurlu olmuşdur və elektron səsvermədən istifadə edən seçicilərin sayı günü-gündən artır.

---

[17] *Saman Shojae Chaeikar, Mazdak Zamani, Christian Sunday Chukwuekezie, Mojtaba Alizadeh, Electronic Voting Systems for European Union Countries.*

[18] *8 fevral 2008-ci ildə Tom Preston-Verner, Chris Wanstrath, P. J. Hyett, Scott Chacon tərəfindən qurulan proqramın inkişafı üçün nəzarət sistemi olan Git-dən istifadə edərək proqramın inkişafına və versiyaya nəzarət edən ABŞ şirkətidir*

[19] *1899-cu ildə Tokioda yaradılan kompüter texnikası və telekommunikasiya avadanlığı satan Yapon şirkətidir*

**Elektron səsvermə vasitələri və avadanlıqları.**

Dünyada müxtəlif elektron səsvermə vasitələrindən və avadanlıqlarından istifadə olunur. Onlardan bir neçəsi aşağıdakılardır:

**1.DRE(Direct Recording System).**

DRE səsvermə maşınları elektron səsvermə zamanı ən çox istifadə edilən avadanlıqlardandır. Bu səsvermə sistemləri hazırda ABŞ və Braziliya kimi elektron səsvermədən geniş şəkildə istifadə edən dövlətlərdə tətbiq edilir. Braziliyada bu maşınlar Premier Election Solutions[20] tərəfindən istifadə edilirdi (bundan əvvəl Diebold[21] Seçki sitemləri tərəfindən). DRE səsvermə maşını seçicinin səsini düymələr və ya sensorlu ekran vasitəsilə qeyd edir, səs etibarsızdırsa xəbərdar edir, seçki məlumatlarını yaddaşda saxlayır. Bu saxlanılan məlumatlar cədvəl şəklində tərtib edilir və çap şəklində saxlanılır. Əksər hallarda məlumatlar çap şəklində saxlanılmasa da, Avstraliya, Venezuela, Braziliya kimi ölkələr və ABŞ-ın bəzi ştatlarında kağız nüsxə saxlanılır, bu nüsxələr əsasən səsvermədən sonra seçki auditi məqsədi ilə istifadə edilir. 2002-ci il ABŞ-da seçkilər zamanı problemlər yarandı və bu problemlər barədə şikayətlər edildi, bu hadisə Avstraliya və Braziliya kimi ölkələri seçkilərdə kağız nüsxə götürməyə vadar etdi. DRE səsvermə sistemlərinin iki əsas növü vardır:

1. Bu növ DRE-lər “full face”, “tam üz”, “tam ekran” sistemi kimi də tanınır. Bunun səbəbi bütün seçki bülletenini seçiciyə təqdim etməsidir. 2000-ci ilə qədər bu sistemlərdən geniş şəkildə istifadə edilirdi.
2. Bu növ DRE-lər yeni nəsildir və DRE-lərin “ikinci nəsli” adlandırılır. Bu maşınlar daha çox bankomatlara bənzəyir, demək olar ki, bankomatlarla eyni interfeysə malikdir. Bu səsvermə maşını toxunma ekranına malikdir və seçici öz səsini bu şəkildə verir. Bu sistemlərin istifadəsi zamanı seçicilər kredit kartına bənzər bir kartı həmin maşına daxil edirlər və beləliklə seçki bülleteni aktivləşir və seçici səsini verir. Bu səsvermə maşını toxunma ekranına malikdir və seçici öz səsini bu şəkildə verir. Bu sistemlərin istifadəsi zamanı seçicilər kredit kartına bənzər bir kartı həmin maşına daxil edirlər və beləliklə seçki

---

[20] *2002-ci illdə qurulan AccuVote-TSX, AccuVote-OS, AccuView Printer Module kimi səsvermə maşınlar istehsal edən Dieboldun törəmə şirkətidir.*

[21] *Diebold Nixdorf 1859-cu ildə Ohayo ştatının Cincinnati şəhərində Diebold Bahmann Safe Company adı ilə yaradılmış Amerikanın çoxmillətli texnologiya şirkətidir*

bülleteni aktivləşir və seçici səsini verir. Bu növ DRE-lərin üstünlüklərindən biri də seçkinin sonunda seçici öz səsinin düzgünlüyünü yoxlaya bilər. Həmçinin bu səsvermə maşınları birdən artıq səsvermənin qarşısını alır. Bu növ maşınlarda əlilliyi olan insanlarda nəzərə alınmışdır. Məsələn, görmə məhdudiyyəti olanlar üçün "audio köməkçi"dən istifadə mövcuddur, həmçinin əllərini istifadə edə bilməyən insanlar üçün "sip and puff"dan[22] istifadə edilir.

**2.Hindistan EVM Cihazı.**

Hindistan elektron səsvermənin bütün ölkədə tətbiq edildiyi ölkələrdəndir. Seçki Komissiyası 1977-ci ildə ECIL-ə (Electronics Corporation of India Ltd) layihələndirmək və inkişaf etdirmək vəzifəsini verdi. 1979-cu ildə prototip hazırlandı və 1980-ci ildə siyasi partiyaların nümayəndələrinə nümayiş etdirildi. 1989-cu ildə EVM-dən istifadəyə şərait yaratmaq üçün "The Representation of the People Act"-a (Xalqın Nümayəndəliyi Qanununa) dəyişiklik edildi. Onun tətbiqinə 1988-ci ildə nail olundu. EVM iki blokdan: 1.İdarəetmə bölməsi (Control Unit (CU)), 2.Seçki bölməsi (bülleteni) (Balloting Unit (BU), onları birləşdirmək üçün 5 metr uzunluğundakı kabeldən ibarətdir. EVM-lər üzərində mikroçiplər vardır. Bunlar EVM-lərə xarici təsirlərdən qorumaq üçündür və ABŞ-da istehsal edilir. Əgər müdaxilə olunarsa, bu qurğular zədələnəcəkdir. Seçki bölməsində 16 namizəd (partiya) olur. Əgər say çox olarsa başqa bir bölmə əlavə edilir və 32-ə çatdırılır. 32-dən çox olarsa, başqa bir bölmə əlavə edilir və maksimum saya çatdırılır (64). Səs vermək üçün namizədin və ya partiyanın adının qarşısındakı "mavi düyməni" basmaq kifayətdir. Bu düyməni bir neçə dəfə basmaqla bir neçə səs vermək mümkün deyil, bunu etsə belə, səs qeydə alınmayacaqdır. Bir EVM maksimum 3840 səs qeyd etməsi mümkündür. EVM sistemlərinin ilkin istifadəsi üçün böyük investisiya lazımdır, lakin sistem qurulduqdan sonra bu sistemin istifadəsinə və saxlanması xərclənən məbləğ kağız bülletenlərin dəyəri, daşınması, saxlanması, hesablanması, bu seçkiləri idarə edən işçilərin əmək haqqı və digər xərclərdən daha az olacaqdır. Həmçinin bu sistemlər böyük seçici kütləsinə malik Hindistan üçün səsvermənin daha sürətli keçirilməsi deməkdir. Kağız bülletenlərdən istifadə edilən ənənəvi seçkilərdə nəticələr 24-36 saatda elan edilirdisə, EVM-lərdən istifadə edilərək keçirilən seçkilərdə maksimum 2 saat ərzində seçkilərin nəticələri elan edilir. Hindistanda savadlılıq səviyyəsinin aşağı olduğunu

---

[22] *"Sip and puff" əsasən əllərini istifadə edə bilməyən insanlara boru və ya digər vasitələrlə nəfəs almaq(sip) və ya nəfəs vermək(puff) vasitəsilə hava təzyiqi ilə cihaza siqnal göndərməyə göndərməyə imkanı verən köməkçi texnologiyadır.*

nəzərə alsaq, bu sistemlər həm savadsız seçicilər üçün istifadəsi rahatdır, həm də seçicilərin iştirakını artırır. Həmçinin gözdən əlil insanlar nəzərə alınaraq Brayl əlifbasından[23] istifadə edilmişdir. EVM-lərdən istifadə zamanı bəzi problemlər yaranır, bunlardan biri də EVM cihazında baş verəcək xətadır. Bu zaman başqa bir EVM ilə əvəz edilir. Və seçki davam edir. Xəta baş vermiş cihazdakı səslər idarəetmə bölməsində olduğu üçün itmir. Nəticədə bu cihazla səs vermiş seçicilər yenidən səs vermək məcburiyyətində qalmırlar.

Bu sistemlərdə VVPAT(Voter Verifiable Paper Audit Trial)[24]-dan və ya VPR(Verifiable Paper Record)-dan istifadə edilir. VVPAT müstəqil yoxlama sistemidir. Bu sistem seçicilər üçün səslərin düzgün verildiyini yoxlamaq, saxtakarlığın və ya sistemdə nasazlığın aşkar olunması, nəticələrinin düzgünlüyünün yoxlanması kimi imkanlar yaradır.

**3.Hart InterCivic eSlate.**

Hart InterCivic eSlate səsləri birbaşa qeyd edən elektron səsvermə cihazıdır. eSlate əksər hallarda kağız bülletenlərə alternativ olaraq istifadə edilir. eSlate səsvermə cihazı vasitəsilə səs verilən zaman sistemə daxil olunur cihaz üzrində "select" (seç) yazılı seçim çarxı vasitəsilə seçici səs verəcəyi dili seçir. Bundan sonra seçim etmək üçün Giriş kodu daxil edilir. Bundan sonra "Enter" düyməsi ilə seçim ediləcək məsələ ilə bağlı namizəd seçilir. Əgər seçici seçimi səhv edərsə, bu zaman ekranın aşağısında "Press NEXT to advance to next screen"( Növbəti ekrana keçmək üçün NEXT düyməsini basın) yazılmışdır. NEXT düyməsi vasitəsilə seçici yenidən seçim edə bilər. Bu sistemdə VVPAT adlanan cihazdan da istifadə edilir. Bu cihazın əsas funksiyası əgər seçici icazə verilən saydan artıq bülleteni ləğv edərsə, bu zaman seçici VVPAT tərəfindən xəbərdar edilir[25]. Sonda isə "summary page"-də yəni xülasə səhifəsində "A Ballot Summary Screen" (Səsvermə Bülleteninin Xülasəsi Ekranı) öz əksini tapır. Bu səhifə vasitəsilə seçici öz səsinin düzgünlüyünü yoxlamaq imkanı əldə edir. Həmçinin bu proses seçiciyə iki dəfə yoxlamaq imkanı verir. Həmçinin sistem əlil seçicilər üçün də əlçatandır.

---

[23] *Brayl əlifbası Luis Brayl (1809-1852) tərəfindən yaradılan gözdən əlillər üçün dünya miqyasında istifadə olunan əlifbadır.*

[24] *Voter verifiable paper audit trail(VVPAT)-Səslərin düzgün verildiyini yoxlamaq, seçki saxtakarlığının və elektron səsvermə maşınlarındakı xətaların aradan qaldırılması, səsvemənin nəticələrinin yoxlanması üçün istifadə edilən müstəqil yoxlama sistemidir.*

[25] https://youtu.be/_KbMzeQUasA – *eSlate cihazı VVPAT olmadan*
https://youtu.be/lXi1snUfZzk - *eSlate cihazı VVPAT ilə*

Görmə qabiliyyətini itirmiş, idrak qüsurları olan, çeviklik problemləri olanlar üçün DRE sistemlərindəki olduğu kimi "sip and puff"-dan və digər alternativlərdən istifadə edilir. eSlate cihazları bir-biri ilə əlaqəlidir. Və sonda hər biri "The Judge's Booth Controller"-a bağlanır. eSlate cihazının seçki məlumatlarını cədvəlləşdirmir, bu yenə də "The Judge's Booth Controller" tərəfindən həyata keçirilir.

**İnternet səsverməsi.**

Elektron səsvermə zamanı istifadə edilən vasitələrdən biri də internet səsverməsidir. İnternet səsverməsindən ilk dəfə 2000-ci ildə ABŞ-da istifadə edilmişdir. İnternet səsverməsi ənənəvi seçki sistemini dəyişməyin etibarlı vasitəsi hesab edilir. İnternet səsverməsi seçiciyə seçki məntəqəsinə getmədən seçkidə iştirak imkanı yaradır. Seçici internetə bağlı olan fərdi kompüterindən, mobil telefonundan və s. istifadə edərək səs verə bilər. Seçici verdiyi səsin daha etibarlı şəkildə verdiyindən əmin ola bilər. Seçki günü seçici PİN kodu ilə müvafiq internet saytına daxil olur. Seçici elektron bülletenini düzgün doldurduqdan tam əmin olduğu an bülleteni təsdiq edir və bülleten seçki məntəqəsinə çatdırılır. Səslərin dəyişdirilməsinin qarşısını almaq üçün bülletenlər şifrələnir. İnternet səsverməsində əlavə xərclərə, seçki işçisinə və səsvermədə xərclərə səbəb olacaq digər amillər yoxdur. Bunun əsas səbəbi seçicinin səsverməsi üçün yalnız sayta daxil olaraq bülleteni dolduraraq təsdiq etməsinin kifayət etməsidir. Burada xərclər yalnız həmin saytın təhlükəsizliyinin təmin edilməsi ilə və identifikasiya vasitələri (məsələn, smart kartlar) ilə əlaqədar ola bilər. Hətta internet səsverməsinin ən az xərc tələb edən səsvermə vasitəsi olduğu deyilə bilər. Elektron səsvermənin digər vasitəsi olan elektron səsvermə maşınlarında belə onların alınması, saxlanması, az da olsa seçki məntəqələrinə işçilərin seçilməsi kimi xərc tələb edən amillər internet səsverməsində yoxdur.

**Elektron səsvermənin üstünlükləri.**

Aydındır ki, elektron səsvermə seçkinin müasirləşdirilməsi prosesinin əsasını təşkil edir. İlk öncə "Elektron səsvermənin üstünlükləri nələrdir?"; "Elektron səsverməyə niyə əhəmiyyət verilməlidir?"; "Niyə Elektron səsverməyə daha çox üstünlük verilmədir?" kimi suallara diqqət yetirilməlidir. Elektron səsvermə seçicilər üçün rahatlığı artırır. Elektron səsvermə kağız səsvermə ilə müqayisədə daha əlçatan olması bu səsverməyə olan marağı daha da artırır. Elektron səsvermənin vətəndaşların evdən və ya iş yerindən, hətta mobil cihazlardan istifadə edərək yolda səs verməsi üçün şərait yaratması seçki məntəqəsində şəxsən iştirak etmək üçün tələb olunan vaxtı və səyi azalda, səsvermə prosesini daha çevik edə bilər. Yaşlılar,

məhdud çevikliyi olan insanlar, iş saatlarında az çevikliyi olan növbəli işçilər, eləcə də səyahətçilər və xaricdə yaşayan vətəndaşlar seçkidə asanlıqla iştirak edə bilər[26]. Əlil seçicilər daha rahat səs verə bilər, Məsələn, elektron səsvermə zamanı görmə qabiliyyətini itirmiş şəxslər "audio köməkçilər" vasitəsilə səs verə bilər. Həmçinin elektron səsvermə sistemlərinin çoxdilli seçicilər üçün istifadə imkanı vardır. Elektron səsvermədə səslər daha sürətli hesablana və nəticədə seçkinin nəticəsinin daha tez elan oluna bilər. Səslərin sayılması saatlar, hətta günlərlə müqayisədə daha tez - bir neçə dəqiqə ərzində edilə bilər. Elektron səsvermə zamanı daha az əmək sərf olunur. Seçki prosesində seçki işçilərinə hələ də ehtiyac duyulsa belə, səslərin hesablanması zamanı əlavə əməyə ehtiyac duyulmur. Əlavə işçilərə veriləcək pula qənaət edilir. Potensial, uzunmüddətli xərclərə qənaət edilir (bülletenlərin hazırlanması və paylanması, seçki məntəqələrinin hazırlanması və s.). Elektron səsvermə avadanlıqlarının interfeyslərinin[27] dizaynı düzgün aparılarsa, seçim düzgün olacaqdır. Bu isə öz növbəsində "səsvermənin etibarsız sayılması" riskini aradan qaldıracaq. Həmçinin elektron səsvermədə seçici siyahılarının düzgün aparılması, habelə səsvermə və səslərin hesablanması prosesində dəqiqliyi artırmaqla seçki saxtakarlığını minimuma endirmək mümkündür. Həmçinin elektron səsvermədə səslər elektron sistem vasitəsilə hesablandığı üçün etibarlı hesab edilir və etiraza səbəb olacaq hər hansı hadisənin baş verməsi mümkün deyil. Elektron səsvermənin digər bir üstünlüyü bir neçə seçkini eyni anda keçirilməsi imkanının olmasıdır. Məsələn, elektron səsvermə zamanı eyni vaxtda prezident, parlament və yerli hökumət seçkiləri keçirilə bilər. Nəzərə alınmalı olan bir məsələ odur ki, elektron səsvermənin uğuru bilavasitə EVM-lərin səsvermə dairəsinin ehtiyac duyduğu və üstünlük verdiyi şəkildə işləmə qabiliyyətindən asılıdır. EVM-lərin ən böyük xüsusiyyətlərindən bəziləri hələ də proqram təminatı və mexaniki funksionallıq, xüsusən də dəqiqlik, məxfilik və yoxlanıla bilənliyi təmin edən inkişaflar ola bilər.

**Elektron səsvermənin problemləri**

Elektron səsvermənin böyük üstünlükləri olmasına baxmayaraq, elektron səsvermə maşınlarının istifadəsi yeni və potensial problemlərin yaranmasına səbəb olur. Elektron səsvermə sistemləri mükəmməl deyildir, hər bir sistemdə

---

[26] *Jordi Barrat i Esteve, Ben Goldsmith and John Turner, International Experience with E-voting (Norwegian E-vote Project) (2012)*

[27] *Bir-birindən asılı olmayaraq fəaliyyət göstərən iki cihaz, cihaz və ya sistem arasında qurulan fiziki və funksional əlaqə. Bu mənada insanla kompüter arasında əlaqə bir interfeys vasitəsilə edilir.*

olduğu kimi elektron səsvermə sistemlərində də çatışmazlıqlar və risklər mövcuddur. Elektron səsverməyə qarşı bir çox arqumentlər mövcuddur. Arqumentlər şikayətlərin 3 ümumi kateqoriyasına bölünüb: texnologiya ilə bağlı məsələlər, geniş saxtakarlıq imkanları, seçicilərin və onların səslərinin qorunması (Gloria Lin, Nicole Espinoza, 2007). Təbii ki, elektron səsvermə müxtəlif avadanlıqlar (cihazlar) vasitəsilə həyata keçirilir, bu texnologiyalar nəinki elektron işlərdə çox səhvlərə yol verə bilər, həm də seçicilər istifadəçi interfeysini anlamaya bilər və bu səbəbdən seçicilər səhvlər edə bilərlər. Elektron səsvermə zamanı istifadə olunan texnologiyaların sıradan çıxması, elektron səsvermə sistemində olan xəta elektron səsvermənin düzgünlüyü üçün böyük təhlükədir. İstehsal olunan hər bir elektron səsvermə texnologiyasının sıradan çıxmaması üçün və həmişə işlək vəziyyətdə qalması üçün müəyyən şərait yaradılmalıdır, bu isə əlavə xərclərə səbəb olacaqdır. Digər bir problem elektron səsvermə avadanlıqlarının müxtəlif şirkətlər tərəfindən istehsal edilməsidir. Bu zaman şirkətlər rəqabət aparır. Bu rəqabətdə qalib gəlmək üçün şirkətlər öz proqramlarını saxtakarlıqdan qorusalar belə, həmin şirkətlər seçicilərin maraqlarına və bülletenlərin düzgünlüyünə uyğun proqram istehsal etmələrinə heç bir zəmanət vermirlər. Ölkələrdə bu sistemlərin qurulması böyük investisiya tələb edir. Qurulsa belə, istehsal olunan hər bir elektron səsvermə texnologiyasının saxlanması üçün müəyyən şərait yaradılmalıdır, bu isə əlavə xərclərə səbəb olacaqdır. Bu problemin yaranmasının əsas səbəbi elektron səsvermə sistemləri, avadanlıqları üçün müəyyənləşdirilmiş standartların olmamasıdır. Kağız səsvermə zamanı seçkilərdə saxtakarlıq etmək istəyən şəxs bir neçə seçki məntəqəsinə təsir etməlidir, lakin elektron səsvermədə bütün ölkə miqyasında, demək olar ki, bir elektron səsvermə sistemindən istifadə edildiyi (bəzən 1 dən çox ola bilər, məsələn, ABŞ-da) üçün saxtakarlıq etmək istəyən şəxsin bu sistemə daxil olması kifayətdir. Yəni kağız seçkilərdə səsləri nəzərdən keçirmək üçün böyük bir qrupa ehtiyac duyulmasının əksinə elektron səsvermədə bu kiçik bir qrup hətta bir şəxs tərəfindən edilə bilər. Elektron səsvermə zamanı yenidən hesablama imkanı yoxdur. Məsələn, bəzi DRE (direct-recording electronic) səsvermə maşınları ilə keçirilən səsvermədə səslərin yenidən hesablanması mümkün deyil. Bəzi elektron səsvermə sistemlərində seçici səsverməni həyata keçirmək üçün bir çox öz şəxsi məlumatlarını sistemə daxil etməlidir, bu isə seçicilərin kimliyinin anonim saxlanması baxımından problemdir. Bu seçicilərə qarşı təzyiq göstərilməsi ilə nəticələnə bilər. Seçkilərin nəticələrinin hakerlər tərəfindən dəyişdirilməsi də digər böyük problemdir.

Nəzəri olaraq elektron səsvermə əhali üçün daha əlverişlidir, lakin unutmaq olmaz ki təhsilli və az təhsilli, zəngin və kasıb, şəhər və kənd, arasında "rəqəmsal uçurum" mövcuddur. Bu isə elektron səsvermənin bütün əhali arasında istifadə edilə bilməsi, əlçatanlığı nöqteyi nəzərindən problemdir. Müəyyən kütlə isə elektron səsvermə zamanı səslərin hesablanmasının düzgünlüyünə şübhə ilə yanaşır. Bunun səbəbi ənənəvi seçkilərdən fərqli olaraq elektron səsvermə zamanı səsləri kompüter hesablayır və bu proses seçicilər tərəfindən "görülmür". Bəziləri isə elektron səsvermənin sürətli olmasınının problem olduğunu düşünür. Bunu belə izah edirlər ki, kağız səsvermə zamanı seçici səs vermək üçün müəyyən seçki məntəqəsinə getməlidir, bu zaman onun hansı partiyaya və ya namizədə səs verəcəyi barədə düşünəcək zamanı olur, lakin elektron səsvermədə bu cür deyil. Elektron səsvermə maşınlarının quraşdırılması, həmçinin onlardan istifadə müəyyən texnoloji bilik tələb edir. Və bu səsvermənin keçirilməsi üçün həm seçki işçiləri, həm də seçicilər arasında maarifləndirmə aparılmalıdır (texnologiyalardan istifadə bacarıqlarını yoxlamaq üçün müəyyən sınaqların keçirilməsi, bu tədbirləri həyata keçirəcək orqanın yaradılması və s.), bu isə öz növbəsində əlavə xərc və vaxt deməkdir. Digər problem elektron səsvermə maşınlarının işləməsi üçün lazım olan elektrik mənbəyinin olmasıdır. Hər hansı səbəbdən elektrik mənbəyinin çatışmazlığı və ya ümumiyyətlə olamaması və ya digər hallarda elektron səsvermə keçirilə bilməz. Bu isə öz növbəsində elektrik enerjisinin olmadığı ərazilərdə elektron səsvermənin keçirilməməsi ilə nəticələnir, bu isə əhalinin həmin hissəsinin seçki hüququndan məhrum olması deməkdir. Seçki auditi[28] seçki prosesinə etimadın yaradılması və seçkilərin nəticələrinə olan etibarı artırmaq üçün mühüm xüsusiyyətdir. Lakin səsvermə sistemlərində bu proses məhdud sayda təkrar həyata keçirilə bilər.

**Problemlərin həll yolları və təkliflər**

Texnologiyanın, elmin və s. inkişafı ilə əlaqədar olaraq elektron səsvermə sisteminin problemlərinin həll edilməsi və sistemin daha da mükəmməlləşməsi üçün həll yolları axtarılır və müxtəlif təkliflər irəli sürülür. Bu tədbirlər yalnız maşınlar üçün deyil mobil telefonlar vasitəsilə yaradılacaq sayt üçün də həyata keçirilməlidir. Bu seçicilərin seçki məntəqələrinə getmədən rahat və etibarlı bir sayt vasitəsilə səs verməsi üçün vacib məsələdir. İlk öncə seçicilər elektron səsvermə zamanı elektron

---

[28] *Seçki auditi səslərin düzgün hesablandığını (nəticələrin auditi) və ya müvafiq prosedurlara əməl edilib-edilmədiyini (proses auditi) və ya hər ikisini müəyyən etmək məqsədilə səsvermə başa çatdıqdan sonra aparılan hər hansı yoxlamadır.*

səsvermə avadanlıqlarından istifadəni daha da asanlaşdırmaq üçün elektron bülletenlər kağız bülletenlər kimi hazırlanmalıdır. Bu seçki zamanı seçicilərdə çaşqınlıq yaranmasını qarşısını alacaqdır. Seçicilər vərdiş etdikləri kağız bülletenlərdəki kimi bir bülletenlərlə daha rahat şəkildə səs verə biləcək. Seçicilərin müəyyən olunmuş səs sayından (bəzən seçicilər 1-dən artıq səsə malik ola bilir, məsələn, kumulyativ seçki sistemində seçici bir neçə səsə malik olur) artıq səs verməsinin qarşısını almaq üçün sistem vasitəsilə xəbərdarlıq edilə bilər. Elektron səsvermə sistemi bütün ölkədə, ölkənin müəyyən regionlarında, müəyyən səsvermələrdə və ya müəyyən kütlə üçün istifadə edilə bilər Bunun üçün bütün elektron səsvermə sisteminə nəzarət edəcək bir orqan yaradılmalıdır. Bu orqan elektron səsvermə sistemi ilə əlaqədar hər bir məsələni həll etməlidir (ölkədə elektron səsvermə sistemi standartlarını, hansı elektron səsvermə maşınlarından istifadə olunacağını və s.). Bu elektron səsvermə sistemində olacaq boşluqların qarşısını bir qədər alacaqdır. Hərçənd ki, ən böyük problemlər də məhz standartların olmaması və elektron səsvermə maşınların düzgün seçilməməsidir. Elektron səsvermə maşınlarında səsvermə günü xəta baş verməməsi üçün elektron səsvermə maşınları üzrə təhsil görmüş mütəxəssislər həmin maşınları yoxlamalı və səsvermə üçün əlverişli olub-olmadığını sınaqdan keçirməlidir. Həmin mütəxəssislərdə məhz yaradılacaq orqan tərəfindən seçilməlidir (müəyyən tədris və sınaq mərhələlərindən sonra). Həm də bu zaman səsvermə günü maşınlarda ola biləcək hər hansı problemin daha tez aradan qaldırılması üçün vacibdir. Səsvermə günü əlavə maşınlar da olmalıdır, yəni səsvermə prosesi üçün təyin edilmiş maşınlarda problem yaranarsa və həll edilə bilinməzsə həmin maşın ehtiyat maşınla əvəz olunmalı, bununla da səsvermə davam etdirilməlidir. Elektron səsvermə maşınlarında xəta olan zaman verilmiş səslər də itir, bunun qarşısını almaq üçün doldurulmuş bülletenlər cədvəl halında çap olunaraq möhürlənmiş seçki qutusuna qoyulmalıdır. Bu xəta baş verdikdə səslərin yenidən sayılmasını təmin edə bilər.

Hakerlərin hücumlarının, kiber-hücumların əsas səbəbi sistemdə olan boşluqlardır. Məhz bu boşluqlar yenə də elektron səsvermə sistemlərinə nəzarət edən orqan tərəfindən seçilən kompüter mühəndisləri tərəfindən aşkarlanmalı və aradan qaldırılmalıdır. Bu cür bir sistem Hindistan təcrübəsində istifadə edilən VVPAT-lar ola bilər. Bəzilərinin fikrincə, VVPAT-lar EVM-lər üçün standart kimi təyin edilməlidir. Hücumlar yalnız səslərin dəyişdirilməsi üçün deyil, həm də səslərin itməsinə səbəb ola bilər. Məsələn, ABŞ-da Florida Konqresi seçkilərində 18 000 “itkin” səs tapılıb.

Məlum olub ki, buna proqram xətası səbəb olub. Kaliforniya seçkilərində 197 səsin məlumat bazasından "silindiyi" məlum olub[29]. Bunun qarşısı yenə də çap olunan bülletenlər vasitəsilə alınacaq, səslər elektron sistemdən itsə belə bülletenlər halında möhürlü qutularda saxlanılacaqdır. Elektron səsvermə sistemlərinin standartları isə W3C tərəfindən müəyyən edilmiş WCAG standartlarına uyğun gəlməlidir. Elektron səsvermə maşınlarını kənar müdaxilədən qorumaq üçün onun kənardan izlənməsinin əvəzinə (bu seçkinin gizliliyi prinsipinə ziddir) səsvermə maşınının kilidi xüsusi açarla kilidlənməlidir. Elektron səsvermə maşınlarının saxlanması üçün daşımaya ehtiyac olmadığından daha yaxın məsafədə anbar yaradılmalıdır (məsələn, rayon mərkəzində). Bu bir qədər əlavə xərclərin qarşısını alacaqdır. Elektron səsvermə maşınlarının enerji mənbəyi elektrikdir. Elektrik olmayan ərazilərdə elektron səsvermə maşınları üzərinə yerləşdirilmiş enerji mənbəyi vasitəsilə istifadə edilə bilər. Məsələn, Hindistan EVM-lər 6 voltluq qələvi batareyalarla işləyə bilir.

**Azərbaycan Respublikasında elektron səsvermənin tətbiqinin mümkünlüyü məsələsi.**

Elektron demokratiyanın tətbiqlərindən biri olan elektron hökumət Azərbaycanda XXI əsrin ikinci on illiyindən etibarən tətbiq olunmağa başlanmışdır. İlkin olaraq elektron hökumətin yaradılması ilə əlaqədar qəbul edilmiş normativ hüquqi aktlarla hüquqi baza yaradılmışdır. Bu aktlara Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 11 avqust tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)", Azərbaycan Respublikası Prezidentinin 23 may 2011-ci il tarixli "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Fərmanı, Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 5 fevral tarixli fərmanı ilə təsdiq edilmiş "Elektron hökumət portalı" haqqında Əsasnaməsi, "Dövlət orqanları (qurumları) arasında sənəd mübadiləsinin elektronlaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 01 avqust 2023-cü il tarixli Fərmanı və digər normativ aktlar aid edilə bilər. Elektron hökumət vətəndaşlara səhiyyə, sosial təminat, sosial müdafiə, təhsil, onlayn ödənişlər, rabitə xidmətləri, gömrük, vergilər, hüquqi xidmətlər, xüsusi razılıq (lisenziyaların) verilməsi ilə bağlı elektron xidmətlərin göstərilməsinə şərait yaradır. Elektron hökumətin yaratdığı imkanlarla bağlı digər addım elektron səsvermənin tətbiqi ilə seçki

[29] *Coşkun Telciler,Elektronik seçim sistemleri,sorunlar,çözüm önerileri. Nişantaşı Üniversitesi Sosyal Bilimler Dergisi(2017)*

sahəsində atıla bilər. Həmçinin "DataReportal"ın 2022-ci il məlumatlarına görə Azərbaycanda 2022-ci ilin yanvar ayında 8.32 milyon internet istifadəçisi olmuşdur, bu isə internet istifadəçilərinin ümumi əhalinin 81.1 faizini təşkil etdiyi deməkdir. Göründüyü kimi, ölkəmizdə elektron səsvermənin tətbiqinin bir vasitəsi olan internet səsverməsindən istifadə üçün mühitin olduğunu deyə bilərik. Təbii ki, bu sistemin tətbiqi üçün müəyyən hazırlıq mərhələsindən keçməlidir. İlkin olaraq hüquqi baza yaradılmalı və təbii ki, bu sistemin yaradılmasına nəzarət edəcək, həyata keçirəcək bir orqan təsis olunmalıdır.

**Sistemə hazırlıq**

Sistemə hazırlıq mərhələsində internet səsverməsindən istifadə edən dövlətlərin qabaqcıl təcrübəsindən yararlanmaq lazımdır. Bunun üçün Estoniya nümunəsindən istifadə etmək daha məqsədəuyğundur. Çünki Estoniya elektron səsvermənin həm daha çox inkişaf etdirən, həm də bütün ölkədə istifadə edən yeganə dövlətdir. İlk öncə sistemin təhlükəsizliyi təmin olunmalıdır. Bunun üçün Estoniya nümunəsində olduğu kimi əlavə nəzarət tədbiqindən istifadə edilə bilər. Seçici səs verdiyi zaman səsinin anonim qalacağından, səsinin dəyişdirilməyəcəyindən əmin olmalıdır. Sistem siyasi təsirlərdən uzaq olmalıdır, yəni, seçkidə iştirak edəcək partiyalar və ya namizədlər seçicilərə təsir etməməlidir. Sistem həmçinin kiber-hücumlara və hakerlərin hücumlarına qarşı "dözümlü" olmalıdır. Bunlar seçicidə internet səsverməsinə olan etimadı və seçicilərin iştirakını artıracaqdır. Sistemin interfeysi sadə və başa düşülən olmalıdır. Seçici internetə bağlı müəyyən cihazdan rahatlıqla sistemə daxil olmalı və bülleteni doldura bilməlidir. İnterfeysin birdən artıq dili dəstəkləməsi (azərbaycan, ingilis, rus dillərində) daha məqsədəuyğundur. Çünki, sistemin yalnız bir dili dəstəkləməsi bəzən problemlərə səbəb olur. Məsələn, Fransada sistemin interfeysi yalnız bir dildə fransız dilində olduğu üçün, yalnız xaricdəki seçicilər üçün istifadə edilən internet səsverməsi zamanı fransız dilini bilməyən seçicilər üçün çətinliklər yaranır. Seçicilərin birdən artıq səsverməsi üçün şəxsə giriş kodunun yazıldığı birdəfəlik smartkartlar seçkidən əvvəl qeydiyyatdan keçmiş seçicilər arasında paylanmalıdır. Seçici bu kodu üzərindəki "boyanı" silməklə öyrənir. Bununla da seçicinin anonimliyi təmin olunacaqdır. Sistemin yalnız müəyyən namizəd və ya partiyanı seçdikdə bülleteni qəbul etməsi sistemdə boş bülletenlərin qarşısını alacaqdır. Seçici bülletenini təsdiq etdikdən sonra bülletenin düzgünlüyünü yoxlamaq imkanı olmalıdır. Həm də bu seçiciyə öz bülletenini təsdiq etsə də, bülletenini ləğv etmə imkanını yaradacaqdır. Seçicinin seçkidə iştirak edən hər bir partiya və ya namizəd haqda məlumatlı olması qeyri-

mümkündür. Buna görə də sistemin seçiciyə seçkidə iştirak edən partiya və ya namizədlər haqqında məlumat vermək imkanının olması vacib məsələdir. Bu seçicinin səsini daha düzgün verməsinə yardım edəcəkdir.

Sistem audit və təkrar hesablamanı təmin etməlidir. Bu seçicidə sistemə qarşı etibarı artıracaq. İnternet səsverməsinin istifadəsi üçün vacib amil olan internetdən istifadənin zəif olduğu və ya internetdən istifadə edən əhalinin seyrək olduğu ərazilərdə seçicilərin səsverməsi üçün ənənəvi seçki məntəqələri yaradıla bilər. Bu da həmin əhalinin seçkilərdə iştirakını təmin edəcəkdir. Əhali bu sistemdən necə istifadə ediləcəyi ilə əlaqədar müəyyən dərəcədə məlumatlandırılarsa, seçki zamanı seçici bu sistemə "yad" olmayacaq, əksinə "özünə tanış olan" bir sistemlə səs verəcək.

**Sınaq mərhələsi**

Sistem artıq hazır olduqdan sonra sınaqdan keçirilməlidir. Əgər sınaq mərhələsindən uğurla keçərsə, tətbiq edilə bilər. Sınaq zamanı bir növü seçkinin simulasiyası yaradılır və internet səsverməsinin real seçkilərdə necə istifadə ediləcəyi, yarana biləcək problemlər, həmçinin vətəndaşların seçkidə iştirakı və s. məsələlər nəzərdən keçirilir. Sınaq zamanı yaranan problemlərin nəzərdən keçirilməsi sistemin təkmilləşdirilməsi üçün çox vacibdir. Sınaq mərhələsinə müəyyən qrup tərəfindən nəzarət edilir və bu qrup həm ölkədəki İT mütəxəssisləri, həm də bu sahədə ixtisaslaşmış xarici şirkətlərin nümayəndələrindən təşkil edilə bilər. Məsələn, Estoniyada sistemi yoxlamaq üçün səsvermədən əvvəl keçirilən "seçki"yə İT mütəxəssisləri və Yaponiyanın Nippon Electric Corporation şirkətinin kibermüdafiə qrupu rəhbərlik edir. Əgər sınaq mərhələsindən uğurla keçərsə sistem tətbiq edilə bilər.

**Sistemin tətbiqi**

Sistemin real seçkilərdə tətbiqi zamanı ənənəvi seçki sistemində olduğu kimi 3 mərhələdən keçir:

1. Səsvermədən əvvəlki mərhələ:

Namizədlərin irəli sürülməsi prosesi zamanı seçkidə iştirak edəcək namizədlər və ya partiyalar veb-saytda qeydiyyatdan keçməlidir. Qanunvericiliyə əsasən seçki hüququ olan vətəndaşlar yenə də həmin saytda qeydiyyatdan keçməlidir. Bu prosesin sonunda seçkidə iştirak edəcək namizədlərin və ya partiyaların və seçicilərin siyahısı elektron olaraq tərtib edilir.

2. Səsvermə mərhələsi.

Bu mərhələdə seçici aşağıdakı formada səs verir:

1. Səsvermədən əvvəl sistemin düzgün işlədiyi yoxlanılır (hətta hər dəfə seçkilərdən əvvəl sınaq seçkisinin keçirilməsi daha məqsədəuyğun olar)
2. Seçici internetə bağlı fərdi kompüterindən, mobil telefonundan və s. istifadə edərək internet səsverməsini həyata keçirəcəyi veb-sayta daxil olur.
3. Seçici birdəfəlik giriş kodunu daxil edir.
4. Seçici elektron bülleteni doldurur.
5. Seçici bülleteni təsdiq edir.
6. Seçici bülletenin düzgünlüyünü yoxlayır, düzgündürsə, seçici səsvermə prosesini başa vurur. Düzgün deyilsə, yenidən səs verir. Və ya seçici bülleteni ləğv edərək səs vermir.

3. Səsvermədən sonrakı mərhələ.

Bu mərhələdə səslər elektron formada hesablanır və elan edilir. Əgər seçki auditi tələb edilərsə, səslər yenidən hesablanır. Bu prosesin bir neçə dəfə edilə bilməsi imkanı vacib məsələdir.

Elektron demokratiyanın ən mühüm institutlarından biri kimi, həm də demokratik dövlətlərin ən mühüm elementi kimi elektron səsvermə seçicilərin seçki prosesində iştirakını artıracaq və qabaqcıl texnologiyalardan istifadə etməklə seçkilərin daha təhlükəsiz və qısa zamanda keçirilməsini təmin edəcəkdir. Tətbiq edilmənin ən alternativ yolu sınaq mərhələsində həm ənənəvi, həm də elektron səsvermənin hibrid şəkildə istifadə edilməsidir. Bu zaman elektron səsvermənin tətbiq edilməsi üçün hansı tədbirlərin görülməli olduğu bilinəcək, istifadə zamanı ortaya çıxan problemlər həll olunacaqdır.

## İstifadə edilmiş ədəbiyyat və internet resursları


1. European Parlıament,STOA(Science and Technology Options Assessment), E-public,e-participation and e-voting in Europe - prospects and challenges(IP/A/STOA/FWC-2008-96/LOT4/C1/SC2).
2. Juma Hamisi Mtepa , Ismail Abiodun Akintola, Ahmed Salem Muftah, Azham Hussain, The Evaluation of the Electronic Voting System: a Review.
3. Lawrence Norden and Christopher Famighetti, America’s Voting Machines at risk (September 15, 2014)
4. Jordi Barrat i Esteve, Ben Goldsmith and John Turner, International Experience with E-voting, Norwegian E-vote Project. (2012)

5. Coşkun Telciler,Elektronik seçim sistemleri,sorunlar,çözüm önerileri. Nişantaşı Üniversitesi Sosyal Bilimler Dergisi(2017)
6. Coşkun Telciler, Elektronik Seçim Sistemi.
7. Manon de Vries and Wouter Bokslag,"Evaluating e-voting: theory and practice", Department of Information Security Technology, Technical University of Eindhoven(February 9, 2016)
8. Shojae Chaeikar, Mazdak Zamani, Christian Sunday Chukwuekezie, Mojtaba Alizadeh, Electronic Voting Systems for European Union Countries(March 5, 2014)
9. Roman Sokolov, S M Samsul Arefin, E-Voting evaluation report, Case studies: France, USA, Estonia, Switzerland (Geneva)(March 5,2016)
10. Martin Russell and Ionel Zamfir, Digital technology in elections, Efficiency versus credibility?, EPRS(European Parliamentary Research Service)(September 2018)
11. Res. Asst. Nil Çokluk Cömert, Lect. Merve Özdemir, Demokrasi ve Siyasal Katılımda Yeni Bir Boyut: Elektronik Demokrasi ve Elektronik Seçimler(14 Mayıs 2020)
12. Muhammad Basit Farogh, M. Ghufran Khan, Umair, M.Nabeel Khan, Jawad Ahmed, E-voting system(2016)
13. Yrd. Doç. Dr. Melda Akın, Elektronik oy verme sistemlerinde güvenlik: Deneyimler ve Türkiye için öneriler(2006)
14. D. Ashok Kumar, T. Ummal Sariba Begum, Electronic Voting Machine – A Review
15. Cornelius Herstatt, Maximilian Herstatt India's Electronic Voting Machines (EVMs):Social construction of a "frugal" innovation, Working paper No. 86 (July 2014)
16. Bihterin Vural Dinçkol, Alper Işık Katılımcı Demokrasi ve Online Karar Alma Bağlamında E-Oy ve Estonya Örneği(2019)
17. Abdalla Al-Ameen and Samani Talab, The Technical Feasibility and Security of E-Voting, The International Arab Journal of Information Technology, Vol. 10, No. 4, July 2013.
18. Thomas M. Buchsbaum, E-Voting: International Developments and Lessons Learnt.
19. Alexander Prosser, Robert Krimmer, The Dimensions of Electronic voting.
20. Robert Krimmer, The Evolution of E-voting:Why Voting Technology is Used and How it Affects Democracy, Tallinn

University of Technology Doctoral Theses, Series I: Social Sciences, No. 19(2012).

21. Jessica I.Pegorini, Alinne C.C.Souza, Andre R.Ortoncelli, Rodrigo T.Pagno, Newton C.Will, Security and Threats in the Brazilian e-Voting System: A Documentary Case Study Based on Public Security Tests
22. O.B.Asiamah, A.A.Adjei, Prince Yeboah and K.Singh, Design of a simple remote online voting system with Token generation.
23. Daniel P. Tokaji, The Paperless Chase: Electronic Voting and Democratic Values, Public Law and Legal Theory Working Paper Series No. 25, Center for Law, Policy and Social Science Working Paper Series No. 18(September 2004)
24. Maximilian Herstatt, Cornelius Herstatt, India's Electronic Voting Machines (EVMs): Social construction of a "frugal" innovation, Working paper No. 86(July 2014)
25. Election Commission of India, Nirvachan Sadan, Ashoka Road, New Delhi-110001, Manual on Electronic Voting Machine and VVPAT Document 2 - Edition 3(July 2018)
26. Julius Jillbert, Mustarum Musaruddin, ONLINE VOTING FOR E-DEMOCRACY IN DEVELOPING COUNTRIES: IS IT POSSIBLE?

**İnternet resursları.**

27. E-Voting.CC GmbH — Competence Center for Electronic Voting and Participation, https://www.e-voting.cc/en/.
28. The International Foundation for Electoral Systems: IFES, https://www.ifes.org
29. International IDEA, https://www.idea.int
30. https://history.house.gov/Exhibitions-and-Publications/Electronic-Technology/Electronic-Voting/
31. Gloria Lin, Nicole Espinoza Stanford Universiteti (2007), https://cs.stanford.edu/people/eroberts/cs201/projects/2006-07/electronic-voting/index.html
32. Superior Electoral Court, https://international.tse.jus.br/en
33. Verified Voting, https://verifiedvoting.org/about/
34. Elektron Hökumət Portalı, https://www.e-gov.az/az



# ALİ MƏHKƏMƏNİN MƏTBUAT XİDMƏTİNDƏN

## 2023-cü ilin iyul-noyabr aylarında keçirilən tədbirlərin xülasəsi

İyulun 4-də Bakıda Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 25 illik yubileyi ilə əlaqədar "Konstitusiya normalarının tətbiqi vasitəsilə qanunvericiliyin inkişafı" mövzusunda beynəlxalq konfrans keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi konfransda iştirak edib.

Azərbaycan Respublikası Milli Məclisi, Ədliyyə Nazirliyi, Ali Məhkəmə, Daxili İşlər Nazirliyi, Baş Prokurorluq, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman), Vəkillər Kollegiyasının rəhbər və nümayəndələri, Bakı Dövlət Universitetinin rəhbər və nümayəndələri, habelə bir çox məhkəmələrin sədr və hakimləri, tanınmış alimlər, hüquq ictimaiyyətinin nümayəndələri ilə yanaşı tədbirdə iştirak etmək üçün Türkiyə, Qazaxıstan, Özbəkistan, Rusiya, Albaniya, Belarus, Bolqarıstan, Gürcüstan, Qırğızıstan, İndoneziya, Macarıstan, Serbiya və Tailand Konstitusiya Məhkəmələrinin nümayəndə heyətləri təşrif buyurublar.

Konfransda Konstitusiya Məhkəməsinin tarixi, fəaliyyəti, onun səlahiyyətləri haqqında məlumat verilərək bildirilib ki, Konstitusiya Məhkəməsi fəaliyyət göstərdiyi 25 il ərzində hüquqi dövlət quruculuğuna öz töhfəsini vermiş, qəbul olunmuş qərar və qərardadlarda Konstitusiyanın aliliyinin təmin edilməsinə yönəlmiş mühüm hüquqi mövqelər öz əksini tapmışdır. Qeyd edilib ki, Məhkəmə keçən dövr ərzində hüquq və




azadlıqların müdafiəsi üzrə fəaliyyətini daim təkmilləşdirmiş və beynəlxalq təcrübəni, o cümlədən İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnu, həmçinin "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiya və ona dair Protokolları tətbiq etməyə çalışmışdır.

Həmçinin 44 günlük Vətən müharibəsi nəticəsində işğal altındakı torpaqlarımızın azad olunması ilə Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsinin işğaldan azad olunmuş torpaqlarımızda da bərpa edilməsi vurğulanıb.

Daha sonra tədbirdə iştirak edən Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavini Əli Hüseynli, Ədliyyə naziri Fikrət Məmmədov, Ali Məhkəmənin sədri İnam Kərimov, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Səbinə Əliyeva, Baş prokurorun müavini Heydər Məmmədov və Vəkillər Kollegiyasının sədri Anar Bağırov təbrik nitqləri ilə çıxış ediblər.

Konfransın praktiki hissəsində Türkiyə Respublikası Konstitusiya Məhkəməsinin sədri, Serbiya Respublikası Konstitusiya Məhkəməsinin Sədri, Qazaxıstan Respublikası Konstitusiya Məhkəməsinin sədri, Albaniya Respublikası Konstitusiya Məhkəməsinin sədri, Bolqarıstan Respublikası Konstitusiya Məhkəməsinin sədri, Qırğız Respublikası Konstitusiya Məhkəməsinin sədri, İndoneziya Respublikası Konstitusiya Məhkəməsinin sədri, Özbəkistan Respublikası Konstitusiya Məhkəməsinin sədri, Belarus Respublikası Konstitusiya Məhkəməsinin hakimi, Rusiya Federasiyası Konstitusiya Məhkəməsinin hakimi və digər qonaqlar çıxış edərək, təmsil etdikləri ölkələrdə konstitusiya ədalət mühakiməsi sahəsində mövcud olan təcrübəni təqdim ediblər.

Tədbirdən sonra Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstan Konstitusiya Məhkəmələrinin sədrlərinin Türk Dünyası Konstitusiya Yurisdiksiyaları Konfransının (TDKYK) çərçivəsində işçi iclası keçirilmiş, konstitusiya ədalət mühakiməsi sahəsində məhkəmə-hüquq əməkdaşlıq məsələləri müzakirə edilib.

≈≈≈



İyul ayının 10-da Azərbaycan və Türkiyə prokurorluqlarının sərhədyanı əməkdaşlığı mövzusunda konfrans keçirilib.

Konfransda Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev, Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikası üzrə

səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Türkiyənin Ali Məhkəməsinin sədri Mehmet Akarca, Ali Məhkəmənin Baş prokuroru Bekir Şahin, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi ilə yanaşı muxtar respublikanın mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri və prokurorluq əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Baş prokuror Kamran Əliyev qonaqları salamlayaraq bütün sahələrdə olduğu kimi ölkələrimizin prokurorluq, ədliyyə və məhkəmə orqanları arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu deyib.

Çıxış edən Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli konfransın əhəmiyyətindən bəhs edib.

Həmçinin konfrans zamanı Türkiyənin Ali Məhkəməsinin sədri Mehmet Akarca və Ali Məhkəmənin Baş prokuroru Bekir Şahinlə yanaşı Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi çıxış edib.

Qeyd edək ki, konfransdan öncə Naxçıvan Muxtar Respublikasının Ali Məclisində Türkiyə Respublikası Ali Məhkəməsinin sədri, Ali Məhkəmənin Baş prokuroru və digər rəsmi şəxslərin Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli ilə görüşü olub. Görüşdə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi iştirak edib.

≈≈≈



2023-cü il iyulun 11-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri Anar Bağırov ilə görüşüb.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri qonaqları salamlayaraq görüşdən məmnunluğunu ifadə edib, görüşün əhəmiyyətini yüksək qiymətləndirib.

Səadət Bəktaşi bildirib ki, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq sistemində aparılan islahatlar məhkəmə sisteminin müasirləşdirilməsi və məhkəmələrə əlçatanlığın təmin olunması sahəsində

görülən işlər muxtar respublikada da ədalət mühakiməsinin inkişafında keyfiyyətcə yeni mərhələ kimi qəbul edilir.

Qeyd olunub ki, ölkədə müstəqil və ədalətli məhkəmə sisteminin bərqərar olması vəkillik institutunun inkişafını stimullaşdırdığı kimi, yaxşı təşkil olunmuş vəkillik fəaliyyəti də hüquq və azadlıqların etibarlı şəkildə müdafiə olunmasına, insanların hüquqi cəhətdən maariflәndirilməsinə, ədalət mühakiməsinin keyfiyyətinin daha da yüksəldilməsinə birbaşa təsir göstərir.

Səmimi qəbula görə təşəkkür edən Anar Bağırov məhkəmələrlə vəkillik qurumları arasındakı əməkdaşlıq münasibətlərinin əhəmiyyətini vurğulayaraq, vəkillik sahəsində aparılan islahatlar barədə məlumat verib, aparılan islahatların Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasında mövcud problemlərin həllində və bununla gələcəkdə vəkilliyin daha da inkişaf etdirilməsi istiqamətində mühüm rol oynayacağını da qeyd edib.

Qeyd olunub ki, ölkəmizin siyasi və iqtisadi sferada qazandığı uğurlar muxtar respublikada da genişmiqyaslı layihələrin həyata keçirilməsinə rəvac verməklə çoxsaylı və yeni məzmunlu hüquq münasibətlərinin yaranmasına, keyfiyyətli və peşəkar hüquqi yardım zərurətinin artmasına səbəb olur ki, muxtar respublikada vəkillik sahəsində aparılan islahatlar və həyata keçiriləcək layihələr bu istiqamətdə mühüm addım hesab olunur.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

≈≈≈



İyul ayının 11-də Türkiyə Respublikasının Ali Məhkəməsinin sədri Mehmet Akarca və Ali Məhkəmənin Baş prokuroru Bekir Şahinin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına işgüzar səfər çərçivəsində Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsində olublar. Qonaqlar məhkəmə sisteminin müasirləşdirilməsi, ədalət mühakiməsinin səmərəliliyinin artırılması və məhkəmələrə əlçatanlığın təmin olunması sahəsində görülən işlər barədə məlumatlandırılıb, məhkəmənin fəaliyyəti ilə əyani tanış olublar.

≈≈≈

2023-cü il iyulun 13-də Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi iclasda iştirak edib.

İclasda Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov çıxış edərək məhkəmə sisteminin müasir dövrün çağırışlarına uyğun təkmilləşdirilməsinin zəruriliyini vurğulayıb, bu istiqamətdə qarşıda duran vəzifələri diqqətə çatdırıb.

Sonra gündəlikdəki məsələlər üzrə məruzələr dinlənilib, məhkəmə sisteminin səmərəliliyinin artırılması, hakimlərin seçim qaydalarının təkmilləşdirilməsi üzrə konkret təkliflər müzakirə olunub, məhkəmə fəaliyyətini tənzimləyən hüquqi akt layihələrinə baxılıb.

Eyni zamanda Hakimlərin Seçki Komitəsinə yeni üzvlər seçilib, bəzi təşkilati məsələlər üzrə müvafiq qərarlar qəbul edilib.

İclasda bundan başqa hakimlərin intizam icraatı üzrə işlərə baxılıb, kobud qanun pozuntularına yol vermiş bəzi hakimlər barədə yeni intizam icraatları başlanılıb.

≈≈≈

Azərbaycan Respublikasının Ali Məhkəməsi tərəfindən həyata keçirilən "Femida Dialoq Platforması" çərçivəsində növbəti görüş sahibkarlarla keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi və Məhkəmənin kommersiya kollegiyasının sədri vəzifəsini icra edən Səxavət Bəylərli görüşdə iştirak ediblər.



Görüşdə çıxış edən Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov layihənin məqsədi barədə tədbir iştirakçılarına məlumat verərək bildirib ki, "Femida Dialoq Platfporması"nda hüquqşünaslar, vətəndaş cəmiyyəti institutları, sahibkarlar, eləcə də digər sahələrdə fəaliyyət göstərən təşkilatlarla məhkəmə-hüquq sistemində qanunvericiliyin təkmilləşdirilməsi, ortaya çıxan problemlərin həlli istiqamətində müzakirələr təşkil edilir. Üçüncü görüşün sahibkarlarla

keçirilməsinin təsadüfi olmadığını vurğulayan sədr qeyd edib ki, sahibkarlığın inkişafı dövlətimizin iqtisadi inkişaf siyasətinin əsasını təşkil edir.

Bildirilib ki, Ulu Öndər Heydər Əliyev tərəfindən ölkəmizdə yaradılan dinamik iqtisadi inkişaf mühiti sonrakı illərdə ölkə başçısı cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilib. Azərbaycanda yeni kommersiya məhkəmələrinin fəaliyyətə başlamasının sahibkarlıq fəaliyyəti ilə bağlı mübahisələrin həllində hüquqi müəyyənliyin təmin edilməsi, sahibkarların hüquqlarının müdafiəsinin daha da gücləndirilməsi və biznes mühitinin yaxşılaşdırılması istiqamətində atılmış mühüm addım olduğu vurğulanıb.

Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev çıxışında Ali Məhkəmə tərəfindən sahibkarlarla görüşün keçirilməsini yüksək qiymətləndirib və aparılan müzakirələrin məhkəmə mübahisələrində çevik qərarların qəbul edilməsinə təsir göstərəcəyini bildirib. Diqqətə çatdırılıb ki, ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması istiqamətində atılan addımların tərkib hissəsi kimi məhkəmə-hüquq sistemində aparılan islahatlar sahibkarlığın inkişafı baxımından kifayət qədər önəmlidir.

İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Səbinə Əliyeva, İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov və digər tədbir iştirakçıları çıxışlarında "Femida Dialoq Platforması" çərçivəsində keçirilən görüşün sahibkar-məhkəmə münasibətlərinin inkişaf etdirilməsinə, ölkəmizdə sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına önəmli töhfə verəcəyini vurğulayıblar.

Sonra tədbirdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub, həmçinin təkliflər səsləndirilib.

≈ ≈ ≈

İyul ayının 21-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin iclası keçirilib.

İclası giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi davam edən məhkəmə-hüquq islahatları barədə söhbət açaraq ulu öndər Heydər Əliyevin müasir hüquq sisteminin formalaşmasında xidmətlərini xüsusi vurğulayıb, Azərbaycan

Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl islahatlar barədə geniş məlumat verib.



Səadət Bəktaşi bildirib ki, hüquq münasibətlərinin subyektləri arasında hüquq və vəzifələrin həyata keçirilməsi prosesində meydana çıxan mübahisələrin qanun əsasında, ədalətli və tez həll edilməsinə olan tələbatı qarşılamalı olan məhkəmə sisteminin fəaliyyəti daimi təkmilləşməni tələb edir. Bu tələbat insanlar arasındakı iqtisadi, mülki, ailə və digər münasibətlərin ölkə çərçivəsindən kənara çıxaraq beynəlmilliləşməsi, informasiya-kommunikasiya texnologiyalarının durmadan yenilənməsi, müvafiq olaraq yeni hüquq münasibətlərinin yaranması və tənzimlənməsi ilə bağlı mövcud məhkəmə təcrübəsinin inkişafını şərtləndirir.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin gündəliyinə salınmış məsələlərə baxılmış, muxtar respublikanın ixtisaslaşdırılmış və rayon (şəhər) məhkəmələri tərəfindən baxılıb nəticə verilmiş işlər üzrə məhkəmə aktlarından verilmiş apellyasiya şikayətlərinin nəticələri və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kassasiya şikayəti verilmiş qərarlarının sabitlik göstəriciləri ətraflı təhlil edilib.

Daha sonra muxtar respublikanın ixtisaslaşmış, rayon (şəhər) məhkəmələrinin sədrlərinin 2023-cü ilin birinci yarısında gördükləri işlərə dair məlumatları dinlənilib.

Sonda 2022-ci ilin ikinci yarısında Naxçıvan Muxtar Respublikasının birinci instansiya məhkəmələri tərəfindən baxılıb nəticə verilmiş mülki, cinayət, həbs qətimkan tədbirinin tətbiq edilməsi, inzibati xətalar, inzibati və kommersiya mübahisələrinə dair işlər üzrə məhkəmə təcrübəsinin ümumiləşdirilməsinin nəticələri diqqətə çatdırılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi iclasa yekun vuraraq qeyd etmişdir ki, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi öz fəaliyyətini qanunvericiliyin tələblərinə uyğun həyata keçirməklə ölkədə aparılan mütərəqqi hüquq islahatlarının uğurla davam etdirilməsinə, məhkəmə hakimiyyətinin müstəqilliyinə və ədalət mühakiməsinin səmərəliliyinə, vətəndaş məmnuniyyətinin təmini və onların

hüquqlarının bərpasına, eyni zamanda ədalət mühakiməsinə əlçatanlığın təmini və məhkəmələrin fəaliyyətinin şəffaflığına yönəlmiş fəaliyyətini davam etdirəcəkdir.

≈≈≈

2023-cü il avqustun 31-də Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi iclasda iştirak edib.

Çıxış edən Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov ədalət mühakiməsinin və məhkəmə sisteminin təkmilləşdirilməsi üzrə qarşıda duran vəzifələri diqqətə çatdırıb, bu istiqamətdə icra edilmiş və icrası hədəflənən işlər barədə məlumat verib.

İclasda məhkəmə fəaliyyətinin ayrı-ayrı istiqamətləri üzrə, habelə hakimlərin fəaliyyətinin qiymətləndirilməsi, hakim vəzifəsinə namizədlərin seçilməsi və digər məsələlər ilə bağlı məruzələr dinlənilib, bir sıra hüquqi akt layihələri üzrə fikir mübadiləsi aparılıb.



Həmçinin, dövrün tələbi və hakimliyə namizədlərin çoxsaylı müraciətləri nəzərə alınaraq, Məhkəmə-Hüquq Şurasının "Vakant hakim vəzifələrinə hakim olmayan namizədlərin seçilməsi Qaydaları"na imtahan mərhələlərinin sayının 6-dan 4-ə endirilməsi və namizədlər üçün daha əlverişli şəraitin yaradılması üzrə yenilikləri əks etdirən müvafiq dəyişikliklər edilib.

Bundan başqa, iclasda hakimlər barəsində intizam icraatı üzrə işlərə baxılıb. Eyni zamanda, təqaüdə yola salınan hakimlər uzun illər məhkəmə sistemində öz fəaliyyətləri ilə ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına əhəmiyyətli töhfələr verdiklərinə görə fəxri fərmanlarla təltif ediliblər.

≈≈≈

04 avqust 2023-cü il tarixdə Məhkəmə-Hüquq Şurasının sədri cənab İnam Kərimov tərəfindən "Məhkəmələrin fəaliyyətinin təkmilləşdirilməsi və şəffaflığın təmin edilməsi" mövzusunda apellyasiya məhkəmələri, habelə Bakı və Sumqayıt şəhərində yerləşən ixtisaslaşmış məhkəmələr və rayon

(şəhər) məhkəmələrinin sədrləri ilə keçiririlmiş görüşün nəticəsi olaraq 23 sentyabr 2023-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi məhkəmənin ərazi yurisdiksiyasına aid olan birinci instansiya məhkəmələrinin sədrləri və hakimləri ilə iclas keçirib.

İclasda məhkəmənin sədri 04 avqust 2023-cü il tarixdə Məhkəmə-Hüquq Şurasının qaldırdığı, o cümlədən şəffaflığın təmin edilməsi, işlərə məhkəmədə baxılması zamanı süründürməçilik hallarına yol verilməməsi, qanunvericiliyin tələblərinə ciddi riayət olunması ilə bağlı məsələlərə toxunub.

Məhkəmə sistemində korrupsiyaya şərait yaradan hallara qarşı xüsusi qətiyyət göstəriləcəyini, vətəndaşların haqlı narazılığına səbəb olan neqativ hallar üzrə təsir tədbirlərinin davamlı olaraq həyata keçiriləcəyini diqqətə çatdıran məhkəmə sədri məhkəmələrdə şəffaflığın təmin edilməsi ilə bağlı, eyni zamanda məhkəmələrin nüfuzunun qaldırılması, hakimlərə etimadın artırılması istiqamətində səylərin gücləndirilməsi sahəsində məhkəmə sədrlərinin üzərinə düşən vəzifələri qeyd edib.

Sonda işlərə məhkəmələrdə baxılan zaman təcrübədə qarşıya çıxan problemlər, xarakterik pozuntular hakimlərin diqqətinə çatdırılıb, mövcud məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsinin zəruriliyi vurğulanıb, kollegiya sədrlərinin təklifləri dinlənilib, qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

≈≈≈

Cari ilin 7 oktyabr tarixində respublikada fəaliyyət göstərən hakimləri, habelə hakim vəzifəsindən təqaüdə çıxmış şəxsləri birləşdirən Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının, Ümumi Məhkəmə Hakimləri və İxtisaslaşdırılmış Məhkəmə Hakimləri İctimai Birliklərinin Ümumi yığıncaqları keçirilib. Səadət Bəktaşi yığıncaqda iştirak edib.

Tədbirdən öncə Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin xatirəsi dərin ehtiramla yad edilib, məzarı önünə gül dəstələri qoyulub. Sonra hakimlər Şəhidlər xiyabanını ziyarət edərək, Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda şəhid olmuş qəhrəman Vətən övladlarının xatirəsinə dərin ehtiramlarını bildirib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Azərbaycan Respublikasının dövlət himni səsləndikdən və Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra konfrans öz işinə başlayıb.

Konfrans iştirakçıları Azərbaycanın ərazi bütövlüyünü bərpa etməklə, xalqımıza böyük qələbə sevincini yaşadan Dövlət başçısı və müzəffər Ali Baş komandan möhtərəm cənab İlham Əliyevə, qəhrəman əsgər və zabitlərə sonsuz minnətdarlıqlarını bildiriblər.

Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının sədri Ramiz Rzayev açılış nitqində son illər həyata keçirilmiş mütərəqqi məhkəmə-hüquq islahatları haqqında məlumat verərək, hakimlərin ictimai birliklərinin bu işlərə daim dəstək verdiklərini bildirib. Hakimlər Assosiasiyalarının qanuun aliliyinin təmin olunması və ədalət mühakiməsinin həyata keçirilməsi, hakimlərin və məhkəmə hakimiyyətinin müstəqilliyinin möhkəmlənməsi və nüfuzunun qorunması, məhkəmə-hüquq islahatlarının dərinləşməsi və hakimlərin sosial problemlərinə dəstəyin göstərilməsi istiqamətində həyata keçirdiyi fəaliyyətinin səmərəliliyinin artırılması məqsədi ilə mövcud 3 təşkilat əsasında respublikada fəaliyyət göstərən bütün hakimləri və hakimlik vəzifəsindən təqaüdə çıxmış şəxsləri birləşdirən bir ictimai birliyin təsis edilməsinin zəruriliyini vurğulayıb.



Daha sonra Ümumi yığıncaq işinə davam edərək, mövcud ictimai birliklərin yenidən təşkili qaydasında Azərbaycan Respublikasının Hakimlər İttifaqının təsis edilməsi barədə qərar qəbul olunub, yeni qurumun nizamnaməsi qəbul edilərək, idarəetmə orqanları formalaşdırılıb.

Nizamnamə ilə nəzərdə tutulan qaydada açıq səsvermə yolu ilə keçirilmiş seçkilər əsasında Ramiz Rzayev sədr, Sənan Hacıyev və Ələddin Cəfərov sədr müavinləri, Tahir Kazımov, Abiddin Hüseynov, Səadət Bəktaşi, Vəli Abdullayev, Nuru Quliyev, Hökümə Babayeva, Ramin Qaraqurbanlı və Əsəd Mirzəliyev İdarə heyətinin, Günay Axundova, Fərid İsmayılzadə və Səlim Allahverdiyev Nəzarət Təftiş Komissiyasının üzvləri seçilib.

Eyni zamanda, İttifaqın tərkibində daimi əsaslarla fəaliyyət göstərəcək Beynəlxalq əlaqələr, Məhkəmə-hüquq islahatları, Tədris və etika məsələləri,

Hakimlərin hüquq və qanuni maraqlarının müdafiəsi və Kommunikasiya məsələləri komissiyaları təsis edilib.

≈≈≈

Oktyabr ayının 17-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin təşkilatçılığı ilə "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının prezidentiyəm" mövzusunda İlham Əliyevin 20 illik fəaliyyətinə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndərin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Giriş nitqi ilə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi bildirib ki, İlham Əliyevin 2003-cü ildə Prezidentlik fəaliyyətinə başlaması Azərbaycanın tərəqqi və inkişaf yolu ilə irəliləməsində yeni mərhələ olmuşdur. Həmin il müstəqilliyimizin daha da möhkəmləndirilməsi, ölkədə sabit siyasi sistemin, çoxşaxəli iqtisadi strukturun intensiv formalaşması ili oldu. Məhz o vaxtdan başlayaraq respublikada demokratikləşmə prosesləri genişlənmiş, ölkəmizin dünya transformasiya proseslərinə inteqrasiyası daha intensiv xarakter kəsb etmiş, milli iqtisadiyyatın daha da inkişafı üçün mühüm sosial-siyasi baza yaranmışdır. İlham Əliyevin böyük siyasətdə atdığı inamlı addımlar nəticəsində Azərbaycanda təkcə sosial-iqtisadi sistemdə deyil, həm də siyasi və ictimai təsisatlarda əsaslı yeniləşmələr olmuş, səmərəli intensiv islahatlar aparılmışdır.



Səadət Bəktaşi ölkədə son 20 il ərzində aparılan məhkəmə-hüquq islahatları barədə də tədbir iştirakçılarına məlumat verərək bildirib ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş mütərəqqi məhkəmə-hüquq islahatlarını 2003-cü ildən inamla davam etdirən və yeni dövrün tələblərinə uyğun təkmilləşdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hüquqi dövlət quruculuğu prosesinin mühüm tərkib hissəsi

olaraq məhkəmə hakimiyyətinin yeniləşdirilməsini mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmişdir. Son 20 ildə yeni dövrün tələblərini adekvat şəkildə reallaşdırılan bu islahatların əsas hədəfi məhkəmə-hüquq sistemini müasirləşdirmək, məhkəmə orqanlarının özünüidarə imkanlarını genişləndirmək və ədalət mühakiməsinin səmərəliliyini artırmaq olmuşdur. Bütün bu islahatlar ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılması, işlərə daha operativ baxılması və vətəndaş məmnunluğunun təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəmənin sədri qeyd edib ki, Ali Baş Komandanının qüdrətli sərkərdəliyi ilə 2020-ci il sentyabrın 27-də Ermənistanın hərbi təcavüzünə cavab olaraq başlamış haqq savaşında ordumuz tarixi hərbi uğurlar qazanmış, şəhər və kəndlərimiz düşmən tapdağından azad edilmişdir. Nəhayət bu ilin sentyabrın 19-da silahlı qüvvələrimiz tərəfindən keçirilən antiterror tədbirləri nəticəsində ərazimizdə qanunsuz fəaliyyət göstərən separatçı rejm təslim olmuş, qondarma qrumları ləğv olunmuşdur. Hazırda ölkəmizə qarşı hərbi cinayətlər törətmiş şəxslər kimliyindən asılı olmayaraq məhkəmə məsuliyyətinə cəlb olunur. Silahlı qüvvələrimizin keçirdiyi antiterror əməliyyatı nəticəsində ərazimizdə dövlətin tam suverenliyi bərpa olunmuş, Xankəndi şəhəri başda olmaqla terrorçulardan azad olunan ərazilərdə konstitusiyon təsisatlar formalaşmaqdadır. Bayrağımız bütün ərazimizdə qürurla dalğalanmaqdadır.



Sonra çıxış edən Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin sədri Polad Həsənov, Naxçıvan Şəhər Məhkəməsinin hakimi Gülsüm Əliyeva və Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsinin hakimi Elnur Hüseynov ölkə başçısı cənab İlham Əliyevin uğurlu fəaliyyətindən, onun başçılığı ilə aparılan hüquq islahatlarından, ölkəmizin bütün sahələrdə inkişafının təmin olunması istiqamətində göstərdiyi əvəzsiz xidmətlərdən danışıblar.

Sonda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 20 illik fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

≈≈≈

Oktyabrın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində Müstəqilliyin Bərpası Günü ilə bağlı tədbir keçirib. Tədbirdə həmçinin, Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsinin hakimi vəzifəsinə təyin olunan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin əməkdaşı Tural Əliyev hakim qismində kollektivə təqdim olunub.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi bildirib ki, müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan qat-qat çətindir. Azərbaycan bir əsrdə iki dəfə müstəqillik əldə etmək, özünün suveren dövlətini yaratmaq imkanı qazanıb. 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşayıb. Xalqımız ikinci tarixi imkanı yalnız 70 il sonra qazana bilib. 18 oktyabr 1991-ci il tarixində "Azərbaycanın dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul edilməsi ilə ölkəmizdə Şərqdə ilk respublikanın varisi kimi Azərbaycan tarixinin yeni dönəmi - müstəqil inkişaf dövrü başlayıb. Azərbaycan Respublikasının dövlət müstəqilliyi əldə etməsi tarixi hadisədir. Ulu Öndərin xalqın istəyi ilə Azərbaycana qayıdışı və müstəqilliyimizin təhlükə altına düşməsinin qarşısını alması, xalqımız üçün misilsiz xidmətlər göstərməsi barədə danışan Səadət Bəktaşi qeyd edib ki, Ulu Öndər tərəfindən qorunub saxlanılan müstəqilliyimiz bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilir və onun əbədiliyi təmin edilir. Ümummilli liderin layiqli davamçısı, ölkə Prezidenti İlham Əliyevin apardığı uğurlu və məqsədyönlü daxili və xarici siyasət dövlətimizin daha da güclənməsinə, regionda lider olmasına gətirib çıxarıb. Ali Məhkəmənin sədri 44 günlük Vətən müharibəsinə, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında məğlubedilməz Ordumuzun qələbəsinə



diqqət çəkib. Vurğulayıb ki, bu qələbə xalqımızın qəlbində və zehniyyətində qəhrəmanlıq salnaməsinə çevrilib.

Çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi Aparatının əməkdaşı Vüsal Muradov dövlət müstəqilliyimizin əhəmiyyətindən, Azərbaycanın siyasi, iqtisadi, mədəni sahələrdə qazandığı nailiyyətlərdən bəhs edib.

Daha sonra hakim vəzifəsinə qəbulla bağlı müsabiqədə uğur qazanaraq Azərbaycan Respublikasının Prezidentinin 11 oktyabr 2023-cü il tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsinin hakimi vəzifəsinə təyin olunan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin əməkdaşı Tural Əliyev hakim qismində kollektivə təqdim olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi hakim təyin olunmuş Tural Əliyevi məhkəmənin kollektivi və öz adından təbrik edib və onun məhkəmə orqanlarında qazandığı təcrübənin və uzunmüddətli təlim-tədris proseslərində əldə etdiyi yüksək bilik və bacarıqların məhkəmə hakimiyyətinin nüfuzunun möhkəmləndirilməsinə və cəmiyyətimizdə ədalət mühakiməsinə olan etimadın daha da artırılmasına töhfə verəcəyinə şübhə etmədiyini bildirib.

Sonda çıxış edənlər Tural Əliyevin öz nizam intizamı və əzmi ilə seçildiyini vurğulayib ona hakim kimi gələcək fəaliyyətində uğurlar arzu ediblər.

≈≈≈



2023-cü il oktyabrın 19-da Şuşa şəhərində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Ədalət mühakiməsi və informasiya texnologiyaları: müasir çağırışlar” mövzusunda beynəlxalq konfrans keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi konfransda iştirak edib.

Türkdilli dövlətlərin Ali Məhkəmələrinin sədrlərinin iştirakı ilə keçirilən konfransı giriş sözü ilə açan Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri İnam Kərimov qonaqları "Türk dünyasının mədəniyyət paytaxtı" Şuşa şəhərində salamlamaqdan məmnunluğunu ifadə edib. Sədr bildirib ki, Azərbaycan xalqının tarixində əvəzsiz xidmətlər göstərmiş dahi şəxsiyyət Heydər Əliyev Yeni Azərbaycanın memarıdır. Ulu Öndərin fəaliyyəti Azərbaycanla məhdudlaşmır, beynəlxalq aləmdə böyük nüfuza malik dahi şəxsiyyət türk dünyasında, eləcə də qlobal proseslərdə də müdrik siyasətilə böyük iz qoyub. Fəaliyyəti dövründə hər zaman türk dövlətləri ilə əlaqələrinin inkişafına xidmət edən layihələrin təşəbbüskarı, təşkilatçısı olub. Bu gün bu siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. "Türk dünyası böyük bir ailədir" deyən ölkə Prezidenti cənab İlham Əliyev türk dövlətləri ilə əlaqələrə xüsusi önəm verir.

Sonra Türkiyə Respublikası Ali Məhkəməsinin (Yargıtay) sədri Mehmet Akarca, Qazaxıstan Respublikasının Ali Məhkəməsinin sədri Aslambek Merqaliyev, Türkiyə Ali İnzibati Məhkəməsinin (Danıştay) sədri Zeki Yiğit, Özbəkistan Respublikasının Ali Məhkəməsi sədrinin birinci müavini xanım Robaxon Maxmudova, Qırğızıstan Respublikasının Ali Məhkəməsinin sədri Zamirbek Bazarbekov, Şimali Kipr Türk Respublikası Ali Məhkəməsinin sədri xanım Narin Ferdi Şefik və Türk Dövlətləri Təşkilatı Baş katibinin müavini Sədi Cəfərov çıxış edərək Türk Dövlətləri Ali Məhkəmələrinin Konfransının yaradılmasının zəruriliyi və üzv ölkələrin məhkəmə sisteminə verəcəyi faydalardan danışıblar.

Daha sonra Türk Dövlətləri Ali Məhkəmələri Konfransının təsis edilməsi ilə bağlı Şuşa Bəyannaməsinin imzalanma mərasimi baş tutub.

Sonda xatirə fotosu çəkilib.

≈≈≈

Ümumilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində qəbul olunmuş tədbirlər planına uyğun olaraq oktyabrın 25-də Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və hüquq fakültəsinin hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələri üçün "Məhkəmə təcrübəsi: mülki və cinayət qanunvericiliyinin aktual problemləri" mövzusunda elmi-nəzəri seminar keçirilib.



Tədbiri giriş sözü ilə açan Universitetin Beynəlxalq münasibətlər və hüquq fakültəsinin dekanı Yusif Hüseynov Ali Məhkəmə ilə Universitet arasında imzalanmış birgə əməkdaşlıq haqqında Anlaşma Memorandumunu qeyd edərək Memoranduma uyğun olaraq keçirilən bu cür tədbirlərin hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrin ixtisaslı kadrlar kimi yetişdirilməsində əhəmiyyətini vurğulayıb.

Sonra tələbələr üçün Ali Məhkəmənin Mülki Kollegiyasının sədri vəzifəsini icra edən Əli Allahverdiyev tərəfindən "Vərəsəlik hüququna dair problemli məsələlər" mövzusunda seminar keçirilib. Tələbələrə Azərbaycan Respublikasının mülki qanunvericiliyində vərəsəlik hüququ, mirasın qəbulu, müqavilənin ləğvi və s. mövzularda qarşılaşılan nəzəri və təcrübi problemlər və bu sahədə mövcud olan vahid məhkəmə təcrübəsi barədə ətraflı məlumat verilib.

Daha sonra Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri vəzifəsini icra edən İlqar Mirzəyev "Cinayətlərin çoxluğunun bəzi aspektləri" barədə seminar mövzusu ilə çıxış edərək cinayət işləri üzrə tövsif, sübutetmə və məhkəmə istintaqının aktual problemləri və onların həlli yolları, həmçinin müxtəlif cinayət əməlləri üzrə qarşıya çıxan nəzəri və təcrübi problemlər, onların hüquqi nəticələri, cinayət işləri üzrə icraatın mülki hüquqi xarakterli münasibətlərdən və onun hüquqi nəticələrindən fərqləndirilmə qaydası barədə ətraflı izahlar verib.

Təlimin gedişində iştirakçıları maraqlandıran suallar cavablandırılıb, mövzular barədə fikir mübadiləsi aparılıb.

≈≈≈

Oktyabrın 31-də Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi iclasda iştirak edib.

Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov çıxışında ədalət mühakiməsi və məhkəmə sisteminin təkmilləşdirilməsi üzrə qarşıda duran

vəzifələri diqqətə çatdırıb, bu istiqamətdə görülmüş işlər barədə məlumat verib. Sonra hakimlər tərəfindən təqdim olunmuş təkliflər müzakirəyə çıxarılıb.

İclasda məhkəmə fəaliyyətinin ayrı-ayrı istiqamətləri ilə bağlı məruzələr dinlənilib, bir sıra hüquqi akt layihələrinə dair fikir mübadiləsi aparılıb, habelə hakimlərin fəaliyyətinin qiymətləndirilməsi məsələlərinə baxılıb.

≈≈≈



Zəfər Günü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və muxtar respublikada fəaliyyət göstərən məhkəmələrin kollektivləri Zəfər parkını ziyarət ediblər.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi və hakim heyətinin iştirak etdiyi tədbirdə Zəfər Abidəsinin önünə gül dəstələri qoyulub, Vətənin bütövlüyü uğrunda canlarında keçmiş şəhidlərin əziz xatirəsi ehtiramla yad olunub.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında" 2020-ci il 3 dekabr tarixli Sərəncamına əsasən Vətən müharibəsində misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il 8 noyabr tarixinin Azərbaycanda "Zəfər Günü" kimi qeyd edilməsi qərara alınıb. Bu gün bütün torpaqlarımızda üçrəngli bayrağımız əbədi dalğalanır. Bu hünər savaşında şirin canlarından keçən şəhidlərimizin əziz xatirəsi daim yaşadılır.

≈≈≈

Ölkəmizin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərimiz dövlətimiz və xalqımız tərəfindən hər zaman ehtiramla yad edilir, onların ailələrinə diqqət və qayğı göstərilir.

## *Ali Məhkəmənin mətbuat xidmətindən*

Zəfər Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kollektivi Vətən müharibəsi şəhidlərinin ailələrini ziyarət edib. Kollektivin üzvləri Vətən müharibəsinin şəhidləri İbrahim İbrahimovun, Sahil Məmmədovun və Fərmin Əliyevin ailələri ilə görüşüb, şəhidlərin əziz xatirəsinə ehtiramlarını ifadə ediblər. Görüşlər zamanı bildirilib ki, Müzəffər Azərbaycan ordusunun 44 gün davam edən zəfər yürüşü şanlı qələbə ilə başa çatdı. Ali Baş komandan İlham Əliyevin başçılığı ilə ordumuz əsgər və zabitlərin canı-qanı bahasına Qarabağı və digər ərazilərimizi işğaldan azad etməklə 30 illik yurd həsrətinə son qoydu. Vətən yolunda canından keçən şəhidlərimizin ruhları qarşısında baş əydiklərini bildirən kollektiv üzvləri onlara Allahdan rəhmət, ailələrinə səbir diləyiblər.



Şəhidlərimizin ailələri dövlətimizin qayğısını daim öz üzərlərində hiss etdiklərini, qazanılan qələbədə övladlarının da payı olduğu üçün fəxr etdiklərini bildiriblər.

Qeyd edək ki, şəhid İbrahim İbrahimov Cəbrayıl, Zəngilan, Füzuli və Xocavənd uğrunda, şəhid Sahil Məmmədov Murov dağ, şəhid Fərmin Əliyev isə Tərtər rayonunun Talış kəndi uğrunda döyüşlərdə şücaət göstərmiş və qəhrəmancasına şəhid olmuşlar.

≈≈≈

Noyabrın 22-də Azərbaycanda Ədliyyə orqanlarının yaranmasının 105-ci ildönümü münasibətilə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində tədbir keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi tədbirdə iştirak edib. Tədbir iştirakçıları əvvəlcə Ümummilli Liderimiz Heydər Əliyevin Naxçıvan şəhərində əzəmətlə ucalan abidəsi önünə gül dəstələri düzüb, ədliyyə strukturunun təkmilləşdirilməsi işində böyük xidmətlər göstərən dahi şəxsiyyətə ehtiramlarını ifadə ediblər. Sonra Heydər Əliyev Muzeyi ziyarət olunub.

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində davam edən tədbirdə nazirliyin inzibati binasının foyesində yeni yaradılan Ümummilli Liderimiz Heydər Əliyevin büstü önünə gül çələngi qoyulub, Ulu Öndərin və

ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri vəzifələrini müvəqqəti icra edən, nazir müavini Hüseyn Səfərov ədliyyə işçilərini peşə bayramı münasibətilə təbrik edib, 105 yaşını qeyd edən nazirliyin keşməkeşli tarixinə nəzər salıb. Nazir müavini Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətnin hər iki dövründə ədliyyə sisteminin inkişafındakı əvəzsiz xidmətlərindən bəhs edib. Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi günü – 22 noyabr tarixini ədliyyə işçiləri daim böyük fəxr və qürur hissi ilə qeyd edirlər. Hüseyn Səfərov ölkə başçısı cənab İlham Əliyevin ədliyyə fəaliyyətinə verdiyi önəm və əhəmiyyətə diqqət çəkərək ilk dəfə 2006-cı ildə Ədliyyə Nazirliyinə hüquq-mühafizə statusunun verilməsinin ədliyyə tarixində mühüm addım olduğunu qeyd edib, dövlətimizin rəhbərinin bu sahədə həyata keçirdiyi digər tədbirlərdən söhbət açıb.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi peşə bayramı münasibətilə təbriklərini çatdıraraq bildirib ki, Azərbaycanda ədliyyə sahəsi 1918-ci ildən etibarən çox keşməkeşli yollar keçib, dahi şəxsiyyət Heydər Əliyevin rəhbərliyi ilə isə özünün yeni təkmilləşmə, inkişaf dövrünə qədəm qoyub. Ulu Öndərin əsasını qoyduğu siyasəti uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyevin qərar və fərmanları ilə bu sahənin strukturu dövrün tələblərindən irəli gələn şəkildə yenidən formalaşdırılıb.



Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli çıxışında qeyd edib ki, bu gün Naxçıvan özünün yeni inkişaf mərhələsini yaşayır. Bu prosesdə hər kəsin üzərinə ciddi məsuliyyət və vəzifələr düşür. Vurğulanıb ki, Ulu Öndərin Azərbaycana ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra bütün sahələrdə olduğu kimi, ədliyyə sistemində də struktur islahatları aparılıb, ədliyyə orqanlarının təkmilləşdirilməsi prosesi

uğurla həyata keçirilib. Naxçıvanda da ədliyyə orqanlarının formalaşdırılması işində Ulu Öndərin böyük rolu olub, dahi şəxsiyyətin “Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına dəyişikliklər və əlavələr edilməsi barədə” 2002-ci il 24 avqust tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinə əlavə səlahiyyətlər verilib.

Ölkə Prezidenti cənab İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq olunan “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın əhəmiyyətini vurğulayan səlahiyyətli nümayəndənin müavini Samir Seyidəhmədli Naxçıvanda ədliyyə sahəsində islahatların davam etdirilməsinin vacibliyini diqqətə çatdırıb, əməkdaşların peşə bayramını təbrik edib, fəaliyyətlərində uğurlar arzulayıb.

Tədbirdə qeyd olunub ki, ölkə Prezidentinin 2023-cü il 21 noyabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin əməkdaşı Xəyal Eyvazov “Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə təltif edilib. Xəyal Eyvazov əməyinə verilən yüksək qiymətə görə minnətdarlıq edib, bundan sonra da vəzifəsinin öhdəsindən layiqincə gəlməyə çalışacağını vurğulayıb.

Sonra 22 noyabr–ədliyyə işçilərinin peşə bayramı günü münasibətilə qulluqda fərqlənən 5 əməkdaşa vaxtından əvvəl rütbə, 3 əməkdaşa fəxri fərman  verilib və 7 əməkdaşa təşəkkür elan edilib.

Sonda tədbir iştirakçıları Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin inzibati binasının foyesində yaradılan guşələrlə tanış olublar.

≈≈≈



Naxçıvanda ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə “Heydər Əliyev: Mütərəqqi hüquq islahatlarının uğurlu davamı-mediasiya” mövzusunda konfrans keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi konfransda iştirak edib.

Konfransda əvvəlcə Ümummilli lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli qeyd edib ki, hüquq islahatlarının keçirilməsi ulu öndərin əsas prioritetlərindən biri olub. Belə ki, müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə onun apardığı ilk dörd islahatdan biri ölkədə hüquqi dövlətin qurulması, məhkəmə sisteminin yenidən formalaşdırılması, o cümlədən hüquq-mühafizə orqanları ilə bağlı olub. Sonradan prezident İlham Əliyevin bu sahədə apardığı məqsədyönlü fəaliyyət nəticəsində mediasiya sahəsində də kifayət qədər uğurlar qazanılıb.

Samir Seyidəhmədli qeyd edib ki, bu bizə əsas verir ki, mübahisələrin alternativ həll yolu istiqamətində öz bilik və bacarıqlarımızı daha da artıraq.




Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi və Ədliyyə nazirinin müavini Hüseyn Səfərov qeyd ediblər ki, 3 aprel 2019-cu il tarixli fərmanı ilə ölkə prezidenti məhkəmələrin yol xəritəsini müəyyənləşdirib və müasir formada inkişafına istiqamət verilib. Bu gün mediasiya haqqında qanunun qəbul olunması və işləməsi problemlərin həllində, münaqişələrin yoluna qoyulmasında və gərginliyin azaldılmasında böyük rol oynayır.

Mediasiya Şurası İdarə Heyətinin sədri Nadir Adilov bildirib ki, hazırda Mediasiya Şurasına üzv olan mediatorların ümumi sayı ölkə üzrə 320 nəfərdir. Onlardan 80-i qadın, 260-ı isə kişidir. Bakıda 200 nəfər, Naxçıvanda 5 nəfər, regionlarda isə 115 nəfər mediator fəaliyyət göstərir. Eyni zamanda dövlət qeydiyyatına alınmış mediasiya təşkilatlarından 34-ü reyestrə daxil edilib. 2023-cü il ərzində Mediasiya Şurası və mediasiya təşkilatlarına ümumilikdə 40826 müraciət daxil olub və hazırda 32103-u tamamlanıb. Onlardan 35865-i ailə, 3975-i kommersiya, 988-i əmək mübahisələridir. Xitam verilən müraciətlərin sayı isə 6821 təşkil edir.

Sonda məruzə ətrafında çıxışlar dinlənilib, müzakirələr aparılıb.

≈ ≈ ≈

## *Ali Məhkəmənin mətbuat xidmətindən*

### “Müasir dövrdə ədalət mühakiməsi: Yeni çağırışlar, yeni imkanlar” mövzusunda elmi-praktiki konfrans keçirilib

Oktyabrın 6-da Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin təşkilatçılığı ilə “Müasir dövrdə ədalət mühakiməsi: Yeni çağırışlar, yeni imkanlar” mövzusunda elmi-praktiki konfrans keçirilib.



Tədbirdən əvvəl iştirakçılar Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucalan abidəsini ziyarət edib, önünə gül dəstələri qoyub, Ulu Öndərin əziz xatirəsinə ehtiramlarını bildiriblər. Sonra konfrans iştirakçıları Heydər Əliyev Muzeyinə gedərək dahi şəxsiyyətin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar.

Sonra öz işinə başlayan konfransda Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndərin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Heydər Əliyevin ömür yoluna və fəaliyyətinə həsr olunmuş film nümayiş olunub.



Giriş nitqi ilə çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli bildirib ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə 2023-cü il “Heydər Əliyev İli” elan olunub və respublikamızın bütün bölgələrində Ulu Öndərin ömür yolu, dövlətçilik fəaliyyəti, onun zəngin irsi araşdırılır və gənc nəslə ötürülməsi üçün təqdim olunur. Bu gün müstəqil Azərbaycanın uğurla inkişaf etdirilməsi məhz

Heydər Əliyev siyasi xəttinin bəhrəsidir. Qeyd edilib ki, Ümummilli Liderin böyük səyləri nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə inamla irəliləyən müstəqil respublikamızda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi üçün yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradılıb.

Azərbaycan Respublikası Ali Məhkəməsinin və Məhkəmə-Hüquq



Şurasının sədri İnam Kərimov çıxışında ölkəmizdə bütün sahələrin, o cümlədən məhkəmə hakimiyyətinin inkişafının müasir Azərbaycanın memarı Ulu Öndərin adı ilə bağlı olduğunu vurğulayıb. Bildirilib ki, Ümummilli Liderin rəhbərliyi ilə Azərbaycanda yeni məhkəmə sisteminin tədricən təkmilləşdirilməsi istiqamətində xeyli uğurlu işlər görülüb. İnam Kərimov məhkəmə-hüquq sahəsində son dövrlər aparılan islahatlara da toxunaraq, formalaşdırılmış vahid məhkəmə təcrübəsinin bütün hüquq ictimaiyyətinə əlçatanlığının təmin edilməsi istiqamətində hazırda mühüm fəaliyyətin həyata keçirildiyini qeyd edib. Bildirilib ki, məhkəmə sistemi qarşısında duran yeni çağırışlara cavab vermək üçün ölkəmizdə məhkəmələrin müasir tələblərə uyğun qurulması, ədalət mühakiməsinin həyata keçirilməsində peşəkarlığın artırılması və innovativ texnologiyaların tətbiqi, məhkəmə proseslərində çevikliyin artırılması zamanın tələbidir.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi çıxışında deyib ki, müasir Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə gəldiyi ilk gündən respublikada dövlət-vətəndaş münasibətlərinin hüquq müstəvisində tənzimlənməsi, insan hüquq və azadlıqlarının məhkəmələrdə maksimum dərəcədə qorunması, liberal dəyərlərin möhkəm təmələ çevrildiyi sivil cəmiyyətin



yaradılması istiqamətində genişmiqyaslı islahatların reallaşdırılmasını təmin edib. Sədr vurğulayıb ki, müasir dövrdə məhkəmələrin fəaliyyətinin ədalətliliyi və etibarlılığı cəmiyyətin və dövlətin demokratikliyinin, insan hüquq və azadlıqlarının müdafiəsi və təmininin qiymətləndirilməsinin meyarlarından biri kimi qəbul edilir. Son 20 ildə yeni dövrün tələblərini adekvat şəkildə reallaşdıran islahatların əsas hədəfi məhkəmə-hüquq sistemini müasirləşdirmək, məhkəmə orqanlarının özünüidarə imkanlarını genişləndirmək və ədalət mühakiməsinin səmərəliliyini artırmaq olub. Sonra



çıxış edən Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavini Çingiz Əsgərov qeyd edib ki, Ulu Öndər Heydər Əliyev şəxsiyyətinin Azərbaycan dövlətçilik tarixində müstəsna yeri vardır. Çingiz Əsgərov vurğulayıb ki, bu gün Azərbaycanda məhkəmə sistemində daha geniş islahatlar həyata keçirilir, müasir texnologiyalar tətbiq edilir, qanunvericilik bazası təkmilləşdirilir. Əsası Ulu Öndər tərəfindən qoyulan dayanıqlı və perspektivli məhkəmə sistemi yeni dinamik inkişaf mərhələsini yaşayır.

Daha sonra Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Günay Rzayeva, Naxçıvan Muxtar Respublikası ədliyyə naziri Daşqın Rəhimov və Naxçıvan Muxtar Respublikasının prokuroru Sənan Paşayev öz çıxışlarında Ulu Öndərin zəngin və şərəfli həyat yolu, siyasi və dövlətçilik fəaliyyətindən, onun başçılığı ilə aparılan hüquq islahatlarından, ölkəmizin bütün sahələrdə inkişafının təmin olunması istiqamətində göstərdiyi əvəzsiz xidmətlərdən danışıblar.

≈≈≈≈≈≈≈≈≈

≈≈≈≈≈≈

≈≈≈

**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**ALİ MƏHKƏMƏSİNİN BÜLLETENİ**

4700000000
053-2022

Yığılmağa verilmiş: 08.12.2023.
Çapa imzalanmış: 15.12.2023.
Formatı 70x100 1/8 “Tayms” qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 6,5 ç.v.
Sifariş № 323. Tiraj 100 nüsxə.

“Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi.
Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.